**AZƏRBAYCAN RESPUBLİKASI**

**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**

**ELMİ-METODİKA ŞÖBƏSİ**




***Vəsait uşaq kitabxanalarında kütləvi tədbirlərin təşkilinə köməklik məqsədilə yazılmışdır.***

# *Uşaq kitabxanalarında kütləvi tədbirlərin formaları və təşkili*

**Bakı-2015**

## *Tərtibçi*



Kitabxanalar mövcud dünya mədəniyyətlərinin izləri hesab edilən yazılı sənədləri mühafizə edən saxlayıcılardır. Bu yazılı mənbələr bəşəriyyətin elm və yaradıcılıq nailiyyətləri ilə yanaşı, tarix və cəmiyyətin qarşılıqlı əlaqələrini də əks etdirir. Fikirləşdiklərimiz, yaratdıqlarımız və kəşf etdiklərimizdən ibarət olan bu materiallar keçmişin gələcəyə hədiyyəsi kimi çatdırılması üçün kitabxana fondlarında və arxivlərdə mühafizə olunur. Kitabxana fondu 100 000 nüsxələrlə sənədləri əhatə edən zəngin bilik xəzinəsi olmaqla minlərlə oxucunun əsl mütaliə mənbəyinə verilmiş sərvətdir ki, “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının qanununda deyilir: “Kitabxana elmi informasiya, mədəniyyət, təhsil, tərbiyə müəsisəsi kimi çap əsərlərinin digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların ictimai istifadəsini təmin edən, cəmiyyətin intellektual mənəvi potensialının inkişafına kömək göstərən sosial institutdur. Çünki kitabxanaların sərvəti olan kitablar bilik mənbəyi olmaqla yanaşı, mədəniyyət daşıyıcılarıdır.”

Buna görə də inkişaf etmiş xalqlar kitaba xüsusi önəm verir, onun yazarına, nəşrinə və təbliğinə qayği ilə yanaşırlar. Uşaq kitabxanasının əməkdaşı olaraq deyə bilərəm ki, uşaqların informasiya tələbatının ödənilməsi, onların mütaliəyə cəlb edilməsi uşaq kitabxanalarının qarşısında duran ən vacib məsələlərdən biridir. Firidun bəy Köçərlinin adını daşıyan kitabxanamız öz fəaliyyətində xalqımızın Ümummilli lideri Heydər Əliyevin gələcəyimiz olan uşaqlar haqqında müdrik kəlamını rəhbər tutmuş, öz işini bu kəlamın həyata keçirilməsi uğrunda mübarizəyə həsr etmişdir.



Heydər Əliyev deyir: “Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır.” Uzaqgörən siyasi lider olan Heydər Əliyevin yaratdığı və nəsillər üçün miras qoyduğu ənənələr bu gün də uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uşaq hüquqlarının müdafiəsi sahəsində atdığı addımlar, Heydər Əilyev Fondunun gördüyü işlər bu ənənələrin hələ uzun illər yaşayacağına və Azərbaycan körpələrinin taleyində əhəmiyyətli rol oynayacağına zəmanət verir. Son illər ərzində sürətli inkişaf yolu ilə irəliləyən Azərbaycanda tibb ocaqları, təhsil müəssisələri, idman-sağlamlıq kompleksləri ilə yanaşı uşaq mədəniyyət və incəsənət mərkəzləri də istifadəyə verilib. Təbii ki, onların böyük əksəriyyəti bu gün birbaşa uşaqların

sərəncamındadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 22 dekabr tarixli sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi də Azərbaycan dövlətinin uşaqlara sonsuz qayğısının bariz təzahürü idi. Bu mühüm kampaniya çərçivəsində respublikamızda uşaq hüquqları sahəsində ardıcıl və məqsədyönlü xarakter daşıyan tədbirlər həyata keçirilmişdir. Amma təkcə 2009-cu ildə deyil, bütün sonrakı illərdə də uşaqların problemlərinin həllinə Azərbaycan dövləti öz diqqətini bir an belə azaltmamış, əksinə, daim artırmağa çalışmışdır. Bəli, bu gün uşaq kitabxanaları uşaqların, məktəblilərin informasiya təlabatını ödəmək üçün dünya biliklərinə açılan pəncərə, mədəni dəyərlərin mühafizəsini təmin edən və nəsillərdən-nəsillərə çatdıran bir elm müəssisəsi olub, bitib-tükənməyən, hesaba gəlməyən informasiya sərvətini özündə cəmləşdirməklə yanaşı, insanların məlumat bazasının zənginləşdirilməsinə və elmi dünyagörüşünün kamilləşməsinə, cəmiyyətin maariflənməsinə xidmət göstərir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2007-ci il aprelin 20-də "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncamına əsasən "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" hazırlanmışdır ki, bu da mədəniyyətimizin mühüm sahəsi olan kitabxanalarda kompleks tədbirlərin həyata keçirilməsinə imkan vermişdir. Sərəncamda göstərildiyi kimi, kitabxanalarımız Azərbaycan xalqının milli sərvətidir və bu sərvət daim qorunmalıdır. Həmçinin sərəncamda "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın yaradılması vəzifəsi də qarşıya qoyulmuşdur.Kitabxana işi sahəsində görülən bütün bu işlər yalnız bir məqsədə ölkəmizdə kitabxana işinin müasir tələblər səviyyəsinə qaldırılmasına xidmət edir. Kitabxanada kitabların tövsiyə olunması və mütaliənin təşkili sahəsində oxucuların yaş və fərdi xüsusiyyətlərinə və tövsiyə olunan kitabın xüsusiyyətlərinə uyğun olaraq müxtəlif üsul və metodlar tətbiq edilməlidir.

Hər il ənənəvi olaraq uşaq kitabxanalarında keçirilən kitab bayramları, kitab sərgiləri, müsabiqələr, sənət adamlarının yubileyləri, kitab təqdimatları məhz bu məqsədə xidmət edir.

Məsələn: Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Kitabla dünyanı fəth et!" adlı kitab bayramlarını, uşaqlar arasında "Kitabla dost ol, ən fəal oxucu ol!" başlığı altında təşkil edilən müsabiqələri və s.tədbirləri qeyd etmək olar.

Kitabxana işçilərinin vəzifəsi isə dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplamaq, gələcək nəsillərə çatdırmaqla müstəqil və yaradıcı düşünən vətəndaşların formalaşmasına fəal yardım etməkdən ibarətdir.

Təqdim olunan vəsaitdə siz kütləvi tədbirlərin ənənəvi və yeni formaları ilə tanış olacaqsınız. Vəsait Respublika ərazisində yerləşən uşaq kitabxanalarına metodik köməklik məqsədilə yazılmışdır. Vəsaitdə F. Köçərli adına RUK- sının iş təcrübəsindən istifadə edilmişdir.

## *Uşaq kitabxanalarında kütləvi tədbirlərin ənənəvi və yeni formaları*



Ölkəmiz qədim dövrlərdən başlayaraq milli-mənəvi sərvətləri, xüsusilə kitab mədəniyyəti ilə seçilmiş və zəngin kitabxanaları ilə tanınmışdır.

Bildiyimiz kimi uşaq kitabxanalarında kütləvi tədbirlərin keçirilməsi kitabxana sahəsində irəli atılmış ən məqsədyönlü tədbirlərdəndir. Kütləvi tədbirlər kitabın, elektron nəşrlərin və digər çap məhsullarının geniş oxucu kütləsi içərisində təbliğ edilməsində xüsusi rol oynayır. Kütləvi tədbirlərin təsiri ilə kitabxanaya yeni-yeni oxucular cəlb edilir. Hər bir kütləvi tədbir oxucularda müəyyən bir mövzu haqqında konkret təsəvvür yaradır, həmin mövzularda gedən müzakirələrin iştirakçısına çevirir, bununla bağlı mövcud ədəbiyyatla tanış edir. Uşaq kitabxanalarında oxucuların ideya-siyasi tərbiyəsi, elmi dünyagörüşünün formalaşması, əlamətdar və tarixi günlərimiz haqqında olan ədəbiyyatın təbliği məqsədilə bir sıra tədbirlər həyata keçirilir. Bu gün informasiya cəmiyyəti və biliklər cəmiyyətinin qurulmasında kitabxanaların üzərinə böyük vəzifələr düşür. Çünki kitabxanalar əhalinin bütün təbəqələrinə informasiya xidməti göstərən yeganə sosial institutdur.

Məhz kitabxanalar vasitəsilə cəmiyyətin intellektual potensialının formalaşması və inkişafı kimi funksiyalar yerinə yetirilir. Ümumiyyətlə, kitabxana-informasiya şəbəkəsinin inkişafı əhalinin mədəni səviyyəsinin yüksəlməsinə, onların fasiləsiz təhsilə və informasiyaya olan tələbatının ödənilməsinə imkan yaradır. Bizim gələcəyimiz olan uşaqların kitaba və kitabxanalara marağının artırılmasında respublika və ümumşəhər əhəmiyyətli mədəni-kütləvi tədbirlərin mühüm rolu vardır. Həmçinin aktual mövzularda yazılan vəsaitlərin, məqalələrin "Mədəni həyat", "Kitabxanaşünaslıq və informasiya" jurnallarında dərc edilərək öz oxucularına çatdırılması məqsədəuyğundur. Kitabxana işində ədəbiyyatın elektron versiyasının, elektron kataloqun təşkili proseslərinin idarə edilməsi və bu proseslərə nəzarət, kitabxanaların veb-saytlarında informasiyaların tənzimlənməsi, veb-saytlarda turizmlə bağlı məlumatların yerləşdirilməsi kimi vəzifələri özündə birləşdirir.

Uşaq kitabxanalarında Azərbaycanın turizm potensialını, respublikanın təbiətini, tarixini və milli adət-ənənələrini əks etdirən ədəbiyyatın təbliği və öyrənilməsi istiqamətində müxtəlif tədbirlərin keçirilməsi: sərgilər, söhbətlər, oxucu konfransları, "dəyirmi masalar", Azərbaycanın qoruqlarına, milli parklarına, tarixi yerlərinə ekskursiyalar və s. vacibdir.

## *Uşaq kitabxanalarının vəzifələri*

- uşaqların, yeniyetmələrin, mütailəyə rəhbərlik edənlərin və kitabxanadan istifadə etmək istəyən digər vətəndaşların informasiyadan və sənədlərdən sərbəst istifadə etmək imkanını, onların bəşər fəaliyyətinin bütün sahələrində milli və dünya mədəniyyətinin nailiyyətləri ilə tanış olmasını təmin etmək;
- əhatə etdiyi ərazidəki bütün yaşayış məntəqələrində uşaqlara və yeniyetmələrə, o cümlədən orta ümumtəhsil məktəblərinin şagirdlərinə kitabxana və informasiya xidmətini həyata keçirmək;
- cəmiyyətin informasiyaya olan tələbatını təmin etmək, informasiyadan sistemli şəkildə istifadəni təşkil etmək, bununla da şəxsiyyətin dünyagörüşünün artmasına, hərtərəfli inkişafına kömək göstərmək;
- oxuculara kitabxana xidmətinin təşkilində kitabxana sahəsinin bütün mütərəqqi formalarından istifadə etmək;
- sistemdaxili kitab mübadiləsindən və kitabxanalararası abonementdən istifadə etməklə oxucu sorğularının ödənilməsinə nail olmaq;
- kitabxananın fonduna daxil olan yeni ədəbiyyatlarla oxucuların mütəmadi şəkildə informasiyalanmasını təşkil etmək;
- oxucu sorğuları nəzərə alınmaqla fondun komplektləşdirilməsini təmin etmək;
- Kitabxana-informasiya sahəsinə dair konfranslar, seminarlar, dəyirmi masalar, sərgilər, müsabiqələr, kitab bayramları, festivallar və s. tədbirlər təşkil etmək;
- Beynəlxalq kitab mübadiləsi və beynəlxalq əməkdaşlığı həyata keçirmək, beynəlxalq təşkilatlara üzv olmaq, beynəlxalq kitabxana və s. proqramların həyata keçirilməsində iştirak etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada kitabxana birlikləri yaratmaq, ictimai və həmkarlar təşkilatlarının, assosasiyaların, cəmiyyətlərin üzvü olmaq;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə büdcə müəssisələrinə verilən bütün güzəştlərdən istifadə etmək;
- Respublika Uşaq Kitabxanası fondunda olan Azərbaycan və dünya uşaq ədəbiyyatı nümunələrinin, bütün kitab sərvətlərinin, digər informasiya daşıyıcılarının etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasını, onların geniş təbliğini təmin etmək;
- Fondlarını gələcək nəsillər üçün qoruyub saxlamaqla bəşəriyyətin məcmu mədəniyyətinə töhvə vermək;
- Fəaliyyətində partiyalara, ictimai hərəkatlara və dini konfessiyalara münasibətdə neytrallığa riayət etmək;
- Zəruri resurslardan, materiallardan və informasiyadan bərabərhüquqlu istifadə prinsiplərinə riayət etməklə kitabxananın bütün istifadəçilərinə yüksək keyfiyyətli xidmətlər təqdim etmək;
- "İnternet" sistemi vasitəsilə respublika və xarici ölkələrin kitabxanaları ilə işini əlaqələndirmək;

- Fondun qiymətli nəşrlərinin üzə çıxarılması, uçotu və mühafizəsi ilə məşğul olmaq;
- Kitabxananın inkişafı və modernləşdirilməsinə dair layihələr və planlar hazırlamaq.

***LAYİHƏLƏR***

***"Kitabxanada uşaqlar üçün internet - sinfin açılması"***

- "Kitabxanada uşaqlar üçün internet-sinfin açılması" layihəsi;
- "Kompüterin əsasları və internet" kursu açılması;
- Bu mövzuda Anket sorğuları analiz edilməsi, gələcəkdə oxucuların təklifləri əsasında öz işinizi qurmağı planlaşdırmaq.
- ***"Kitabxanada maraq kursları və "Biləyən" multi-media zalının təşkili.***
- Layihəyə əsasən media zalı üç dildə kitab, audio və video kasset, CD disklər, qəzet və jurnallarla təmin olunması, qruplarla ibtidai sinif uşaqlarına xidmət olunması. Təbiət, musiqi, xarici dillər üzrə sənədlərin oxucuların marağına əsasən kitab rəflərinə düzülməsi.
- ***"Gələcəyin dialoqu: Uşaqlar və kitab"***
- Bu layihəyə əsasən uşaqlar istifadəyə yararsız, cırılmış kitabları təmir edərək cildləməsi və yenidən oxucuların istifadəsinə verməsi;
- ***"Dinləyək, öyrənək, yaşayaq!" adlı layihəni hazırlamaq.***
- Həmin layihə əsasında Bakı məktəblərində uşaq koloniyasında, biznes məktəbində təşkil olunmuş mühazirə-treninqlərdə şagirdlərə dünyanın bəlası olan AIDS ( Acquired Immune deficit Syptoms) xəstəliyini törədən HIV (Human Immune deficit Virus ) virusunun tarixini, yoluxma mənbələrini, ondan qorunma vasitələrini öyrətmək.

Hər bir kitabxananın illik kütləvi tədbirlər planı hazırlanarkən respublikanın ictimai-iqtisadi və siyasi həyatında baş verən hadisələr, insanların bu hadisələrə konkret münasibətləri, dövlətin və xalqın qarşısında duran perspektiv vəzifələr və problemlər nəzərə alınmalıdır. Hər bir kitabxanaçı il ərzində kitabxananın fondunun lazımi ədəbiyyatla komplektləşdirilməsini təmin etməlidir. Əgər kitabxanada peşəkar kadrlar, mütəxəssislər çalışırsa, onda daxil olan informasiya formasından (çap və ya elektron) asılı olmayaraq, məlumatlar vaxtında seçilməli, çeşidlənməli, sis-temləşdirilərək tələbatçıya çatdırılmalıdır. Kitabxanaçı bu xəzinənin ən dəyərli hissəsini öyrənməyi və seçib ayırmağı bacarmalıdır.
Hazırkı şəraitdə kitabxanaçıların başlıca vəzifəsi uşaq kitabxanalarında keçirilən kütləvi tədbirləri sistemli şəkildə istiqamətləndirmək, oxucuların mütaliə mədəniyyəti və bilik dairəsinin genişlənməsinə səy göstərməkdən ibarətdir.
Bu vəzifələrin yerinə yetirilməsində aşağıdakılara xüsusi diqqət etmək lazımdır: **oxucuları (uşaqları) müntəzəm olaraq oxu üçün seçilmiş kitablarla tanış etmək; kitabların təbliğini kütləvi tədbirlər vasitəsilə təşkil etmək.**

***Kütləvi tədbirlərdən söz düşmüşkən F. Köçərli adına RUK- sının iş təcrübəsini qısaca nəzərinizə çatdırmaq istərdim.***



Məlumdur ki, uşaq kitabxanaları ənənəvi informasiya daşıyıcıları olaraq bütün zamanlarda öz aktuallığını qoruyub saxlamışdır. Belə kitabxanalardan biri də respublikada uşaq kitabxanaları üzrə elmi metodik mərkəz sayılan F.Köçərli adına Respublika Uşaq Kitabxanasıdır. F.Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci ildə yaranmış, 50 ildir ki, fəaliyyət göstərir. Respublika üzrə başlıca metodik mərkəz sayılan F.Köçərli adına Respublika Uşaq Kitabxanası yüksək səviyyədə kütləvi tədbirləri həyata keçirən mədəniyyət ocağıdır. F. Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci il yanvarın 1-də Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə M.Qorki adına kitabxana fondunun bazası əsasında yaradılmışdır. 12 sentyabr 1967-ci ildən Azərbaycan Respublikası Mərkəzi Komitəsinin 25 saylı (§22) sərəncamına əsasən uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan, Azərbaycan ədəbi dilinin saflığı uğrunda daim mübarizə aparmış Azərbaycan ədəbiyyatşünası, pedaqoq, maarifpərvər, uşaq folklor antologiyasının banisi Firidun bəy Köçərlinin adını daşıyır. 1965-ci ildə Respublika Uşaq Kitabxanasının yaradılması uşaqlara kitabxana xidmətinin və onun metodik təminat sisteminin formalaşmasında irəliyə atılmış ciddi addım oldu. Belə ki, görkəmli alim və maarifçi F. Köçərlinin adını daşıyan Respublika Uşaq Kitabxanasının yaradılması nəticəsində uşaqlara kitabxana xidmətinin ümumrespublika metodik mərkəzi meydana gəldi, uşaqlara xidmət edən digər kitabxanalara, o cümlədən, 3 mindən çox məktəb kitabxanasına metodik rəhbərlik təmin edildi. Nəhayət, uşaq kitabxanaları üçün metodik mərkəzin yaradılması ölkədə uşaqlara kitabxana xidmətinin inkişaf perspektivlərinin elmi konsepsiyasının yaradılmasına, bu işə xidmət bütün kitabxanaların fəaliyyətinin əlaqələndirilməsinə və tam bir sistem kimi fəaliyyət göstərməsinə hüquqi, nəzəri, metodik və təşkilati zəmin yaratdı. Respublika Uşaq Kitabxanasının elmi-metodik fəaliyyətini kitabxanaşünaslıq fikrinin son nailiyyətləri zəminində təşkil etmək məqsədilə 70-ci illərdə zəngin metodik nəşrlər fondu yaradıldı. Bu fondda uşaqlara kitabxana xidmətinin bütün nəzəri, metodik və təcrübi nailiyyətlərini və qabaqcıl təcrübəni əks etdirən ədəbiyyat toplanıldı.Bu illər ərzində kitabxanamız yüksək səviyyədə kütləvi tədbirlər keçirmiş, öz dəyərli oxucularının xidmətində olmuşdur. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əsas məqsədi uşaqlarımızın gələcək həyatına yeni dəyərlər gətirmək, tez-tez dəyişən, inkişaf edən rəngarəng dünyamızda uşaqlarımızın mütaliə aləmini zənginləşdirmək, dünyagörüşünü artırmaq,



hər cürə yeniliklərə qarşı onların daha savadlı, daha zəkalı böyüməsinə təkan verməkdir. Son illər kitabxanamızda geniş oxucu kütləsi arasında kitab təbliğini və oxucu mütaliəsini istiqamətləndirməyin elmi əsaslarını təhlil edən mütaliə nəzəriyyəsində təkmilləşmə prosesi gedir. F.Köçərli adına Respublika Uşaq Kitabxanası müstəqillik illərində Azərbaycan mədəniyyətinin inkişafı və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılması, dünya kitabxanaları səviyyəsinə qalxması istiqamətində də mühüm addımlar atmışdır. Belə ki, bir çox dünya kitabxanaları ilə əlaqələr yaradılmış, onların iş təcrübələrindən istifadə etməklə uşaqlara kitabxana xidmətində ən müasir metod və formalar tətbiq olunmuşdur. Milli mənəvi dəyərlərimizin qorunması məqsədilə kitabxananın saytında (www.clb.az) kitab adidələri rubrikası açılmış və orada qızıl fonddan (386 kitab) bəzi kitabların təqdimatı hazırlanaraq oxucuların diqqətinə çatdırılmışdır. Milli dəyərlərimizin qorunması və təbliği işində kitabxana bir sıra tədbirlər həyata keçirir. Hər il kitabxanada 2 aprel Beynəlxalq Uşaq Kitabı günü ilə əlaqədar Milli Uşaq Kitabı Sərgisi təşkil olunur. F.Köçərli adına Respublika Uşaq Kitabxanası beynəlxalq - Krım, İFLA, LİBNET, Anapa, Lipetsk konfranslarda iştirak etməklə Müstəqil Azərbaycanımızın kitabxana işi sahəsindəki uğurlarını dünya ictimaiyyətinə çatdırırlar. Rusiya, İsveçrə, Türkiyə, Ukrayna, Almaniya, Moldaviya, Latviya, Bosniya, Hersoqovinya, Serbiya, Sloverniya ölkələrinin şəhərlərinin kitabxana cəmiyyətləri ilə müqavilə yaradılmış, həmin ölkələrə Azərbaycan uşaq ədəbiyyatı göndərilmişdir. F.Köçərli adına Respublika Uşaq kitabxanası respublikanın mədəni həyatında fəal iş aparır. Xalq cümhuriyyətinin yaranması, Dövlət bayrağı günü, müstəqillik günü, Ulu öndərimizin doğum günü, 20 yanvar və Xocalı faciəsi , 31 mart soyqırımı günü, dünya Azərbaycanlılarının həmrəylik günü və s. bu kimi tarixlər xüsusi qeyd olunmaqla uşaqlar və yeniyetmələr arasında maraqlı işlər görülür. Kitabxanamızda yaranan hüquq informasiya bölməsi ilə əlaqadar saytımızın (clb.az) menyusunda hüquq rubrikası açılmış, həmin rubrikada qanunlar, beynəlxalq sənədlər, uşaq hüquqları konvensiyasının materialları, uşaq hüquqları ilə bağlı xülasələr, uşaqlar üçün maraq doğuracaq təqdimatlar-slaydlar, qaynar xətt telefon nömrələri və s. verilmişdir. Saytımızın “Kitab abidələri” rubrikası üzrə kitabxana fondunda olan ən qədim kitabların (1927-1960) siyahısı Power Point proqramında hazırlanmış və kitabxananın elektron saytında yerləşdirilmiş, həmin kitabların Tammətnli verilənlər bazasında yerləşdirilmiş, elektron sənədlərin toplu kataloqunda uşaq dövrü mətbuat sənədlərinin mövzular üzrə işlənmişdir. F.Köçərli adına Respublika Uşaq Kitabxanası uşaqlar üçün ən maraqlı nağılların elektron variantını hazırlayaraq kitabxananın WEB saytında elektron nəşrlər və səsli nağıllar adı altında (www.clb.az) yerləşdirmişdir. Kitabxananın təsis etdiyi “Göy qurşağı” jurnalında valideynlər üçün guşədə “Uşaqlarınızı mütaliəyə necə cəlb edə bilərsiniz” adı altında mütaliəyə cəlb etməyin yolları açıqlanmışdır.

Uşaq yazıçı və şairlərindən Ələmdar Quluzadə, Zahid Xəlil, İlyas Tapdıq, Oktay Rza, Rafik Yusifoğlu, Teyyub Qurban, Vahid Əziz, Nüşabə Məmmədli, Sevinc Nuruqızı, Reyhan Yusifqızı və s. şair və yazıçılar oxucularla görüş keçirmiş, onların yubileyləri geniş şəkildə kitabxanada qeyd olunmuşdur. Həmçinin Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə bir sıra dünyasını dəyişmiş uşaq şair və yazıçıların, görkəmli şəxsiyyətlərin maraqlı, yaddaqalan tədbirləri keçirilmişdir.





Kitab bayramları, milli uşaq kitabı sərgisində təşkil olunan sərgilər, viktorinalar, müsabiqələr, teatr tamaşa-müzakirəri uşaqların kitabxanaya cəlb olunması ilə yanaşı, onların mütaliəsinə də marağı artırmışdır.

Kitabxanamız artıq neçə ildir ki, Moldova Milli Uşaq kitabxanası və Rusiya Dövlət uşaq kitabxanalarının iş təcrübəsi əsasında elmi tədqiqat işləri aparır, elmi işlər yazılaraq respublikamızda fəaliyyət göstərən uşaq kitabxanalarına göndərilir. Bu gün Uşaq hüquqlarının müdafiəsi məsələsi daima dövlətimizin diqqət mərkəzindədir və bu problem həmişə ictimaiyyəti maraqlandıran bir məsələ olmuşdur. Dünyanın bir sıra ölkələrində bu məsələ ilə ciddi məşğul olunur. Azərbaycanda da uşaq hüquqlarının müdafiəsi ilə bağlı mühüm addımlar atılmış, bir sıra qərar və qanunlar qəbul edilmişdir. Uşaqları maarifləndirmək, onları öz hüquqları barədə daha ətraflı məlumatlandırmaq kitabxanaların üzərinə düşən mühüm vəzifələrdən biridir. Bu məqsədlə Elmi metodika şöbəsi uşaq kitabxanaçılarına kömək məqsədilə "Uşaq kitabxanalarında uşaq hüquqlarının təbliği" adlı vəsait hazırlamış və respublika uşaq kitabxanalarına göndərmişdir. Bundan əlavə kitabxanamızda "Beynəlxalq uşaq hüquqlarının müdafiəsi" ilə bağlı keçirilən bir sıra tədbirlər də uşaqların, yeniyetmələrin, hətta valideynlərin hüquqi cəhətdən maariflənməsinə kömək etmişdir. Elmi-metodika şöbəsi ezamiyyələr təşkil edərək rayon uşaq kitabxanaılarında uşaq hüquqlarını təbliği haqqında kitabxanaçılara sərgilərin təşkilində, mövzu ilə əlaqədar keçirilən tədbirlərin hazırlanmasına da öz köməkliyini əsirgəməmişdir.

Dövlət Proqramının kitabxanaçıların qarşısında qoyduğu vəzifələrdən biri rayon kitabxanalarında yaradılan informasiya mərkəzlərinə kömək etməkdən ibarət olmuşdur. F. Köçərli ad. RUK-nın Məlumat-biblioqrafiya şöbəsi bu sahədə bir sıra işlər görmüşdür. "Uşaq ili" ilə əlaqədar "Uşaqlara dövlət qayğısı" adlı ədəbiyyat siyahısı hazırlayıb rayon kitabxanalarına göndərmişdir ki, rayon kitabxanalarında

bu siyahı əsasında kartoteka qutusu hazırlansın və kartoteka qutusu kitabxananın gələcəkdə əldə edəcəyi materiallarla zənginləşdirilsin. Bu siyahıda ədəbiyyatla yanaşı həm də uşaqlara dair müdrik sözlər də öz əksini tapmışdır. Bundan əlavə həmin informasiya guşəsini materialla zənginləşdirmək məqsədilə uşaqlara dair hüquqi sənədlər ("Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu", "Uşaq hüquqları Konvensiyası", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsi və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiyaya (onun müddəalarını tamamlayan190 nömrəli Tövsiyə daxil olmaqla) qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu", "Valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu", "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu" və s.) əlavə edilmişdir. Daha sonra şöbə narkomaniya ilə mübarizə sahəsində "Sağlam həyat tərzi keçirək" adlı ədəbiyyat siyahısı hazırlayaraq müvafiq hüquqi sənədlərin ("Narkoloji xidmət və nəzarət haqqında Azərbaycan Respublikasının Qanunu") müşaiyəti ilə Xaçmaz, Yardımlı, Şirvan, Kürdəmir, Quba, Şəmkir, Tovuz rayonlarına göndərmuşdir. Kitabxana işçiləri üçün Uşaq Hüquqları ilə bağlı treninq mühazirə keçirilmişdir. Dövlət Proqramının kitabxanaçıların qarşısında qoyduğu vəzifələrdən biri rayon kitabxanalarında yaradılan informasiya mərkəzlərinə kömək etməkdən ibarət olmuşdur. Kitabxanamız Azərbaycanda fəaliyyət göstərən bütün uşaq kitabxanaları üzrə elmi metodik mərkəz olmaqla Azərbaycan uşaq ədəbiyyatının, çap məhsullarının saxlayıcısı hesab olunur. Bu məqsədlə saytımızda(www.clb.az) kitab adidələri rubrikası açılmış və orada qızıl fonddan bəzi kitabların təqdimatı hazırlanaraq oxucuların diqqətinə çatdırılır. Milli dəyərlərimizin qorunması və təbliği işində kitabxana bir sıra tədbirlər həyata keçirir. Bunlardan "Milli dəyərlərimizi qoruyaq – Nağıllarımızı yaşadaq", hər il 2 aprel Beynəlxalq Uşaq kitabı günündə Milli Uşaq kitabları sərgilərinin təşkili, uşaq kitabı bayramlarının keçirilməsi, Beynəlxalq Novruz bayramının digər ölkələrin uşaq kitabxanalarında tanıdılması məqsədilə telekörpülərin təşkili, xarici ölkə kitabxanalarında Azərbaycan uşaq ədəbiyyatı fondunun yaradılması və s. göstərmək olar. Avtomatlaşdırma şöbəsinin inkişaf etməsi və səyi nəticəsində şöbələrarası əlaqələri təmin edən lokal kompüter şəbəkəsi yaranmış və avtomatlaşdırılmış İnformasiya sisteminin tətbiqi istiqamətində bir sıra vacib işlər görülmüşdür. Hazırda şöbə fonddan daha çox istifadə edilən, sorğu tələb edən kitabların və qəzet, jurnal məqalələrinin elektron informasiya daşıyıcılarına köçürülməsi və elektron kataloqun tam yaradılması prosesini müvəffəqiyyətlə həyata keçirir. Elektron kataloqda kitabların, elektron kartotekada qəzet, jurnlal və kitabiçi məqalələrin təsviri verilmişdir. Kitab fondunda olan xüsusi əhəmiyyətli və oxucular təfərindən soruşulan kitabların(74)tammətni hazırlanaraq rəqəmli daşıyıcılara köçürülmüş və saytda elektron kitablarda yerləşdirilmişdir. Retro bazasında isə kiril qrafikasında olan azərbaycan dilində kitablar daxil edilmiş və hazırda bu iş davam edir. Bu ilin sonuna qədər kitabxananın bütün fondunun elektron kataloqda əks etdirilməsi qarşıda duran məsələlərdəndir. Bəli, bu gün F. Köçərli adına Respublika Uşaq kitabxanası respublikanın mədəni həyatında fəal iş

aparır. Xalq cümhuriyyətinin yaranması, Dövlət bayrağı  günü, müstəqillik günü, Ulu öndərimizin doğum günü, 20 yanvar və Xocalı faciəsi , 31 mart soyqırımı günü, dünya Azərbaycanlılarının həmrəylik günü və s. bu kimi tarixlər xüsusi qeyd olunmaqla uşaqlar və yeniyetmələr arasında maraqlı işlər aparılır. Veb-saytımızda (clb.az) kitabxanamızda yaranan hüquq informasiya mərkəzi ilə əlaqədar saytımızın menyusunda hüquq rubrikası açılmış, həmin rubrikada qanunlar, beynəlxalq sənədlər, uşaq hüquqları konvensiyasının materialları, uşaq hüquqları ilə bağlı  xülasələr, uşaqlar üçün maraq doğuracaq təqdimatlar-slaydlar, qaynar xətt telefon nömrələri və s. verilmişdir. Saytımızın "Kitab abidələri" rubrikası üzrə kitabxana fondunda olan ən qədim kitabların (1927-1960) siyahısı  Power Point proqramında hazırlanmış və kitabxananın elektron saytında yerləşdirilmişdir. Həmin kitabların Tammətnli verilənlər bazasında  yerləşdirilməsi, elektron sənədlərin toplu kataloqunda uşaq dövrü mətbuat sənədlərinin işlənməşdir.
Elmi metodika şöbəsi 50 illik fəaliyyəti  dövründə **"Bilmək istəyirik ki...** tədqiqat xarakterli rəy sorğusu, "**Vətənpərvər kimdir?"** mövzusunda  rəy sorğusu, **Müasir uşaq kitabxanalarında informasiya texnologiyalarının tətbiqi"** mövzusunda kitabxana işçiləri arasında tədqiqat xarakterli rəy sorğusu, **"Uşaq yazarları necə olmalıdır"** mövzusunda rəy sorğusu, **"Mütaliəyə rəhbərlik edənlərin informasiyaya olan tələbatı" mövzusunda**  rəy sorğusu **,"Oxucu və kitabxana "** oxucuların informasiya tələbatını öyrənmək məqsədilə keçirilən rəy sorğusu, **"Mütaliə və müasir kitabxana"** mövzusunda rəy sorğusu, **"Uşaqlara və uşaq mütaliəsinə rəhbərlik edənlərə uşaq kitabxanasında kitabxana xidməti"** mövzusunda rəy soğusu keçirmişdir.
"Ekologiya ili" ilə əlaqədar olaraq rayon və kənd kitabxanalarında aksiyalar keçirmiş, ekoloji pasport tərtib olunub göndərilmişdi. Kitabxanamızda "Uşaq kitabxanalarında uşaq hüquqlarının təbliği" mövzusunda bir sıra kütləvi tədbirlər keçirilmişdir. Azərbaycan Respublikasında " Ekologiya ili" elan etməsi ilə bağlı kitabxanamız tədbirlər planı  üzrə rəngarəng tədbirlərlə liseylərdə, məktəblərdə, uşaq evlərində, uşaq bağçalarında, gimnaziyalarda oz oxucularını sevindirmişdir. Azərbaycanda fəaliyyət göstərən uşaq kitabxanalarında ekoloji pasportun hazırlanması məqsədilə tövsiyyələr verilmiş, hazırlanaraq bütün kitabxanalara göndərilmişdir. Kitabxanamızda ekologiya ilinə həsr olunmuş ekoloji kitab bayramı keçirilmişdir.Tədbiri keçirməkdə məqsədimiz təkcə ekologiyaya deyil, müxtəlif mövzulara dair ədəbiyyatın ictimaiyyətin diqqətinə çatdırılması, kitab bayramı ilə mütaliəyə maraq yaratmaq idi. Bu məqsədlə Xaçmaz rayonunda İstirahət parkı bayraqlar, şarlar, ekologiyaya aid Ulu öndərimizin, Prezidentimizin müdrik kəlamlarla olan plakatları ilə bəzədilmişdi. İstirahət parkının hər iki girəcəyində ekoloji kitab bayramının emblemi qoyulmuşdu. Parkın ərazisində müxtəlif mövzularda kitab sərgiləri ("Müstəqilliyimiz əbədidir, dönməzdir", "Təbiəti qorumaq Vətəni qorumaq deməkdir", "Dünyanı, Təbiəti, insanları qoruyaq!", "Nə qədər gözəlsə bu meşə, bu dağ, İnsansız təbiət yetim kimidir." Nəbi Xəzri", "Mənim nağıllı dünyam", "Təbiəti sevək, qoruyaq", "Sağlam həyat tərzi keçirək", "Ekologiya və biz", "Təbiət bizim evimizdir", "Yeddi rəngli kəmərim", " Təbiət - ən qiymətli kitabdır" və s.) təşkil olunmuşdu. Həmçinin

“Ekologiya və biz” adlı rəsm müsabiqəsi üzrə göndərilən rəsmlərin sərgisi təşkil olunmuşdu. Tədbirdə iştirak edən bütün uşaqlara tədbirin emblemi çəkilmiş döş nişanları paylanmışdır. Ekoloji kitab bayramında Mədəniyyət və Turizm nazirinin müavini Sevda xanım Məmmədəliyeva, nazirliyin kitabxana sektorunun müdiri Lətifə xanım Məmmədova, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı İlqar Ağabalayev, Xaçmaz rayon İcra Hakimiyyəti başçısı Şəmsəddin Xanbabayev, Icra nümayəndələri, Xaçmaz rayon Mədəniyyət və Turizm şöbəsinin işçiləri, bütün kitabxanalar, məktəblər, uşaq baxçaları, KİV nümayəndələri iştirak edirdi. Üç gün öncə keçirilmiş “Yurdumuzu gülüstana çevirək” adlı aksiyada Zərifə Əliyeva adına 8 saylı liseyin yuxarı sinif şagirdləri iştirak edərək zibilliklə olan geniş ərazini təmizləmiş və tədbirdə onların foto şəkilləri olan sərgisi nümayiş olunmuşdur. Tədbirdə Uşaq yazıçı və şairlərindən Ələmdar Quluzadə, Zahid Xəlil, Sevinc Nuruqızı, Nüşabə Məmmədli və başqaları iştirak etmişdir. KİV nümayəndələrindən: Mədəniyyət qəzetləri və Elli, Göyərçin, Bala dili jurnalları iştirak edirdi. Tədbirin simvolik sulh rəmzi olan göyərçinlər və şarlar havaya qalxdı. Sonra nağıl qəhrəmanları uşaqların görüşünə gələrək onları kitab bayramı münasibətilə təbrik etmiş, ana təbiətə qayğı ilə yanaşmaqdan, torpağa olan məhəbbətdən söz açmışdır. Kiçik yaşlı uşaqlar kitab, təbiətin mühafizəsi ilə bağlı şeirlər söyləyib, mahnılar oxudular.
Kitabxanaçılar təbiətdə davranış qaydaları ilə bağlı kiçik yaşlılarla viktorina keçirmiş və viktorinada suallara düzgün cavab verənlər kiçik hədiyyələrlə mükafatlandırılmışdır. Tədbirin sonunda **“Ekologiya və biz“** adlı rəsm müsabiqəsi üzrə qaliblər elan olunmuş, diplom və hədiyyələrlə mükafatlandırılmışdır. Ekologiyamızın qorunması ilə əlaqədar “**Planetin ən yaxşı müdafiəçisi**” adlı aksiya keçirilmişdir. Aksiyanı keçirməkdə məqsədimiz istifadə olunmuş, köhnəlmiş, atılası batareyaların yığılması idi. Həmin il oxucularda informasiya təlabatını öyrənmək və mütaliəyə marağı artırmaq məqsədilə elmi konfrans keçirildi. Son illərdə Dövlət Proqramının həlli istiqamətində atılan addımlardan biri də rayonlarda aparılan monitorinqlər, uşaq kitabxanalarında keçirilən rəy sorğularıdır. Aparılan monitorinqlər, sorğulardan sonra F.Köçərli adına Respublika Uşaq kitabxanası MKS-in uşaq şöbələri və kənd kitabxanaçıları üçün “Kitabxanaya uşaqların cəlbi : informasiya cəmiyyəti” mövzusunda seminar müşavirə keçirmiş, uşaqların mütaliəyə cəlb olunması ilə bağlı qarşıda duran problem məsələlərin aradan qaldırılması və həlli istiqamətində rəy və təkliflərini vermişlər.Kitabxanada Uşaq İli ilə əlaqədar “Dünya uşaq ədəbiyyatının inciləri” adlı beynəlxalq kitab sərgisi təşkil olunmuşdur. Tədbiri keçirməkdə məqsəd kitab mədəniyyətinin təbliği, dünya uşaq ədəbiyyatı nümunələrinin daha aydın şəkildə geniş oxucu kütləsinə göstərilməsi, ona maraq yaratmaqdan ibarət olmuşdur. Sərgidən sonra kitabxanaya hədiyyə olunmuş kitablar kitabxananın dünya uşaq ədəbiyyatı fondunda saxlanılmaqla, geniş oxucu kütləsinin istifadəsinə verilmişdir. Azərbaycanda fəaliyyət göstərən 20 ölkənin səfirlikləri öz uşaq ədəbiyyatlarını kitabxanada nümayişi təkcə uşaq ədəbiyyatı nəşri ilə məşğul olan nəşriyyatların, redaktorların, yazarların deyil, həmçinin uşaqların marağına səbəb olmuşdur.




Həmçinin Almaniyanın Azərbaycandakı səfiri Per Kristofer Stançinanın təşəbbüsü ilə kitabxanada alman uşaq ədəbiyyatı sərgisi keçirilmiş, alman mədəniyyəti təbliğ olunmuş, uşaq ədəbiyyatı nümunələri daha aydın şəkildə göstərilmiş, uşaqların xarici ədəbiyyata marağı daha da artmışdır. Sərgidə həmçinin alman uşaq ədəbiyyatının multimedia nümayişi oxucuların diqqətinə çatdırılmışdır. Almaniyanın Azərbaycandakı səfiri Per Kristofer Stançina sülh mövzusunda olan üç plakatı kitabxanaya hədiyyə etmişdir. Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının təsis etdiyi "Göyqurşağı" Uşaq Jurnalı məktəblilərin dünyagörüşünün inkişafında, onlarda vətənpərvərlik hisslərinin daha da güclənməsində, təhsilə marağın artmasında böyük rol oynamaqla daim diqqət mərkəzində olmuşdur. `32 səhifədən ibarət rəngli şəkillərlə nəfis tərtib olunan bu jurnalın hər sayı uşaqlar tərəfindən maraqla qarşılanır. Jurnalın hər sayında əlamətdar tarixi günlər, bayramlar, tarixi və görkəmli şəxsiyyətlər, təhsil müəssisələri haqqında məlumatlar, uşaqların qələmə aldıqları şeir və hekayələr, çəkdikləri rəsmlər dərc olunur. Jurnalda kitabxanaya daxil olan yeni kitablar haqqında oxuculara müntəzəm məlumat verilir. Uşaqların intellektual səviyyələrinin atrıtılmasına xidmət edən məntiqi suallarla zəngin əyləncəli səhifə və rubrikalar jurnalı daha da maraqlı edir. "Göyqurşağı" Uşaq Jurnalı Mədəniyyət və Turizm Nazirliyinin göstərişi ilə Azərbaycanın bütün rayonlarının Mərkəzləşdirilmiş Kitabxana Sistemi vasitəsilə ən ucqar dağ kəndlərinə belə yayılır. Dövlət Proqramında oxucuların inforamasiya tələbatının ödənilməsi ilə bağlı Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanası artıq neçə illərdir ki, Uşaq və yeniyetmələr üçün səyyar kitab sərgisini - "Uşaq kitab Karvanı" layihəsini uğurla həyata keçirir. 4 il ərzində (2011-2015) keçirilən layihə üzrə Azərbaycanın rayonlarına Kitab Karvanı yola düşmüş, 14270 nüsxə uşaq kitabları hədiyyə edilmişdir.







F.Köçərli adına Respublika Uşaq kitabxanası 2012-ci ildən mötəbər bir təşkilatın- Beynəlxalq Uşaq Kitabı Şurasının (İBBY) üzvüdür. Atrıq üç ildir ki, həmin təşkilatla sıx əlaqə saxlayır, keçirilən sərgilərdə, konqresdə iştirak edirlər. Təşkilata üzv olmaqda əsas məqsəd Azərbaycanda uşaq yazıçıları, rəssam və tərcüməçilərini müasir uşaq ədəbiyyatımızdakı problemlərə yönəltmək, Beynəlxalq Uşaq Ədəbiyyatı Şurası vasitəsilə ölkəmizi tanıtmaq və uşaq ədəbiyyatı sahəsində olan yenilikləri tətbiq etməklə uşaqların mütaliəyə olan həvəslərini artırmaq, onları dünya uşaq ədəbiyyatı nümunələri ilə tanış etməkdir.

F. Köçərli adına Respublika Uşaq kitabxanası informasiya təminatı istiqamətində fəaliyyətinin səmərəsinin artırılması, inkişafı və təkmilləşdirilməsi məqsədilə günün tələbləri səviyyəsində mütərəqqi iş üsullarından istifadə edir. Yəni kompyuter texnologiyalarının tətbiqi, ənənəvi informasiya mənbələrin elektron daşıyıcılara köçürülməsi, CD-ROM texnologiyaların tətbiqi, informasiyanın təqdim etmək imkanları və bir sıra başqa işlərin həyata keçirilməsi üçün səy göstərərək uğurlar əldə edirlər. F. Köçərli adına RUK- sı respublika uşaq kitabxanalarının işini toplayıb analiz və sintez edir, onların hesabatını hazırlayıb rəhbər orqanlara çatdırır, elmi-tədqiqat işləri aparılır, qabaqcıl təcrübəni bütün ölkəyə yayır, rayonlara ezamiyyələr edir, yeni layihələrin işlənməsində və kitabxananın tədbirlərində yaxından iştirak edir. Elmi-metodika şöbəsində ixtisasa aid elmi-kütləvi yazılar, əlamətdar və tarixi günlərlə bağlı metodik vəsaitlər çap olıunur  və bu vəsaitlər uşaq kitabxanalarına göndərilir. Yubiley günləri ilə bağlı yazılarda görkəmli şəxsiyyətlərin, yazıçı və şairlərin kitabxana-biblioqrafiya qaydası ilə təbliğ olunmasının metodikası verilir. Bu məqsədlə saytımızda(www.clb.az) kitab adidələri rubrikası açılmış və orada qızıl fonddan bəzi kitabların təqdimatı hazırlanaraq oxucuların diqqətinə çatdırılır. Milli dəyərlərimizin qorunması və təbliği işində kitabxana bir sıra tədbirlər həyata keçirir. Kitabxanamızın mütəxəssisləri elektron kataloqun formalaşdırılmasında dünya kitabxanalarının təcrübəsini öyrənir və onlara əsaslanaraq, elektron kataloqun yaradılmasının mövcud olan müxtəlif yollarının ən optimal və əlverişlisini seçib, sənədlərin elektron kataloqa daxil edilməsi qaydalarını müəyyən edərək ümumi metodikasını işləyib hazırlamağa başlamışdır. Elektron kataloqun formalaşdırılması üçün qəbul edilmiş standartlara uyğun olaraq cari ədəbiyyatın biblioqrafik təsviri, elektron kataloqun redaktəsi aparılır. Bütün bunlarla yanaşı F. Köçərli adına Respublika Uşaq Kitabxanasının qarşısında duran mühüm vəzifələrdən biri oxuculara metodika, biblioqrafiya və elmi informasiya xidmətini dünya kitabxanaları səviyyəsinə qaldırmaq, oxucuların tələbatını ödəmək üçün yeni informasiya texnologiyalarını tətbiq etmək, İnternet şəbəkəsinin elektron ehtiyatlarından istifadə etməkdir. Hazırda kitabxananın fondunda 270000 çox kitab var. Respublika Uşaq Kitabxanası məktəbdənkənar tərbiyə müəssisəsi olub uşaqlara, yeniyetmələrə (məktəbəqədər və I-XI sinif şagirdləri) və uşaq mütaliəsinə rəhbərlik edənlərə kitabxana xidməti göstərir. Kitabxana öz fəaliyyətində qüvvədə olan qanunları, kitabxana işi haqqında Əsasnaməni, Azərbaycan Respublikası Mədəniyyət və Turizm  Nazirliyinin  əmr və göstərişlərini, respublikada kitabxana işi üzrə metodiki mərkəzlərin tövsiyələrini, həmçinin bu Nizamnaməni işində rəhbər tutur. Kitabxana özünün metodiki tədqiqat və biblioqrafik fəaliyyətini respublikanın milli kitabxanası olan M.F.Axundov adına Azərbaycan Dövlət Milli Kitabxanası, Azərbaycan Respublika Gənclər Kitabxanası, həmçinin digər nazirlik, idarə və təşkilatların uşaq və yeniyetmələrə xidmət edən metodiki kitabxana mərkəzləri ilə əlaqələndirir. Kitabxana uşaqların tərbiyəsi və yeni təhsil sisteminə uyğun şəkildə ədəbiyyatın kompleks təbliğini həyata keçirir, uşaq və yeniyetmələrin  vətənpərvərlik,  əmək, mənəvi, estetik tərbiyəsi məqsədilə respublika kitabxanalarının fondundan maksimum dərəcədə istifadəni təşkil edir.




Kitabxana məktəblərdə peşəyönümlü təhsil və tərbiyənin həyata keçirilməsinə, uşaqlarda yaradıcı fəallığın, əmək vərdişlərinin, dərketmə qabiliyyətinin, təhsilə və ictimai vəzifələrə sayıq münasibətin inkişafına kömək edir, uşaq və yeniyetmələrdə oxu mədəniyyətini həyata keçirir. Kitabxana abonement, oxu zalı, digər struktur yarımbölmələri, həmçinin KAA yolu ilə fonddan oxucuların istifadəsini təmin edir. Məlum olduğu kimi, son illər kitabxana şəbəkəsinin genişləndirilməsi, onun maddi - texniki bazasının möhkəmləndirilməsi, fondların zənginləşdirilməsi, dünya kitabxanaları ilə faydalı əlaqələrin qurulması istiqamətində dövlətimiz tərəfindən məqsədyönlü tədbirlər görülür. Çünki uşaqların düzgün tərbiyə olunması və mükəmməl tədrisi cəmiyyətin qarşısında duran ümdə vəzifələrdən biridir.

Kitabxanamız beynəlxalq - Krım, Lipetsk konfranslarda iştirak etməklə Müstəqil Azərbaycanımızın respublika uşaq kitabxanasının uğurlarını dünya ictimaiyyətinə çatdırmışlar. İsveçrə, Türkiyə, Ukrayna, Almaniya, Bosniya, Sloveniya, Moldova ölkələrinin şəhərlərinin kitabxana cəmiyyətləri ilə müqavilə yaradılmış, həmin ölkələrə Azərbaycan uşaq ədəbiyyatı göndərilmişdir. Kitabxanamız 20-23 iyun 2011-ci il tarixində Rusiyanın Lipesk şəhərində keçirilən V "Bələdiyyə kitabxanalarının informasiya resurslarının şəhərin inkişafında rolu. Təcrübə və perspektivlər" adlı "Mütaliə" konfransında ilk dəfə olaraq iştirak etmişdir. Kitabxanamızın əməkdaşları "Kitabxanaya uşaqların cəlbi. Mütaliə haqqında düşüncələr" adlı məruzə ilə çıxış etmişdir. Konfransda məruzələr dinlənilmiş, Distansion rejimdə Qazaxıstanın Taraz mərkəzi şəhər kitabxanasından, Belarusiyanın Brest şəhər kitabxanasından, Estoniyanın Sillamyae Milli kitabxanasından nümayəndələr diskussiyada iştirak etmişdir. On- layn sistemdə Bolqariyanın Varna şəhərinin "Penço Slaveykov" kütləvi kitabxanası, Almaniyanın Bremen şəhər kitabxanası maraqlı məruzə ilə çıxış etmişdir. Konfrans çərçivəsində rus yazıçısı, dedektiv romanlar ustası kimi tanınan Polina Daşkova ilə görüşdə, A.Bersenev və V. Sotnikovun yaradıcılıq gecəsində iştirak etmişdir.



F.Köçərli adına RUK- sı olaraq kitabxanamızda yüksək səviyyədə sərgilər təşkil olunur. Sərgilərdə nümayiş etdirilən "Gözümüzün nuru Vətənimiz Azərbaycan ", "Biz sülh istəyirik", "28 may", "Bir bayraq altında birləşək", 20 Yanvar və Xocalı faciəsinə həsr olunmuş rəsmlərin önündən durmadan keçə bilmirsən.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında 29 aprel 2014-cü il saat 12-00 da Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, şair və tərcüməçi olan Teymur Elçinin anadan olmasının 90 illiyi münasibətilə "Ustad qələmində uşaq dünyası" adlı yubiley tədbiri keçirilmiş, Teymur Elçinin kitablarından ibarət sərgi təşkil olunmuşdur. Orta məktəb şagirdləri senariy əsasən şairin şeirlərini, hekayələrini səhnələşdirərək tamaşaçılara çatdırmış, sözləri Teymur Elçinə (musiqisi Oqtay Zülfüqarov, Rəşid Şəfəq) məxsus olan mahnılar oxumuşdur.Tədbirdə Teymur Elçin yaradıcılığını özündə cəmləşdirən video slayd göstərilmişdir.



Kitabxanada uşaqlar arasında "Kitabxanaçılar – oxucuların gözü ilə" adlı rəy sorğusu keçirilmişdir. Sorğunun keçirilməsində əsas məqsəd şagirdlərin gələcək kitabxanaçıları necə görmək istədiklərini öyrənmək idi.

2014 - cü ildə Əli bəy Hüseynzadənin 150 illik yubileyi münasibəti, Ölkəşünaslıq ədəbiyyatının Uşaq Kitabxanalarında təbliği mövzusunda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən M. Ə. Rəsulzadənin 130 illik yubileyi münasibəti ilə, Qasım bəy Zakirin anadan olmasının 230 illiyi münasibəti ilə, Mənəvi irsimizi qoruyaq, nəsillərə çatdıraq mövzusunda,Yetkinlik yaşına çatmamış uşaqlarla cinayətkarlığa qarşı mübarizə üsulları mövzusunda, Biomüxtəliflik günü "Dünyanın mədəniyyət rəngləri" mövzusunda, Mənəvi, əxlaqi və hüquqi tərbiyə:problemlərin həllində uşaq kitabxanalarının iş təcrübəsi mövzusunda, şair Teymur Elçinin anadan olmasının 90 illiyi münasibəti ilə, şair, dramaturq Zeynal Xəlilin anadan olmasının 100 illiyi münasibəti ilə, dramaturq, yazıçı Nəcəf bəy Vəzirovun anadan olmasının160 illiyi `münasibəti ilə, yazıçı Qılman İlkinin anadan olmasının 100 illiyi (1914) münasibəti ilə, Xalq yazıçısı, dramaturq İlyas Əfəndiyevin anadan olmasının 100 illiyi münasibəti ilə, şair İlyas Tapdığın anadan olmasının 80 illiyi (1934) münasibəti ilə, şair Nəbi Xəzrinin 90 illik yubileyi münasibəti ilə, F. Köçərli adına Respublika Uşaq Kitabxanasının metodik fəaliyyətinin müasir vəziyyəti və inkişaf perspektivləri və s. mövzularda metodiki vəsaitlər işlənib, rayonlara göndərilmişdir.



5 dekabr 2014-cü ildən etibarən F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Gənc Ana və Uşaqların Maarifləndirilməsi İctimai Birliyi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi və TİKA-nın Bakı Ofisinin əməkdaşlığı

çərçivəsində görmə qabiliyyəti zəif və məhdud uşaqlar üçün kitabxanada Dil kursları və İnformasiya mərkəzi fəaliyyət göstərir.Burada onlara dil kursları, kompüterdən istifadə etməklə mətnlərin yazılışı, internetdə saytlardan istifadə kimi təlim dərsləri keçirilir. Bu gün Respublikamızda əlillərə yüksək səviyyədə qayğı göstərilir, Əlilliyi olan uşaqlar digər sağlam uşaqlarla eyni zamanda informasiya almaq hüququna malik olmaqları üçün, respublikamızda bir çox sosial layihələr həyata keçirilir. Son illər ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan insanlara dövlət tərəfindən daha çox diqqət artırılıb. Ölkə başçısının imzaladığı sərəncamlar bu təbəqədən olan insanların həyat şəraitinin yaxşılaşmasında və onların cəmiyyətə inteqrasiyasında əhəmiyyətli rol oynayır. Həmçinin, bu insanları öz sıralarında birləşdirən, onların problemlərini işıqlandırıb, həllinə çalışan ictimai təşkilatların da fəaliyyətləri üçün də geniş imkan yaranır. Layihənin məqsədi görmə qüsuru olan uşaqların internet şəbəkəsinə sərbəst çıxışının təmin edilməsi, kitabxana saytlarında elektron kitabların oxunması təcrübəsinin öyrədilməsidir. Layihə çərçivəsində qüsurlu uşaqlar kompyuter texnologiyaları texnikası sahəsində bilgilərə sahib olmaqla kitabxananın imkanlarından digər uşaqlarla eyni vaxtda istifadə etmək hüququna malik olacaqlar. Layihə çərçivəsində 50-yə yaxın gözdən əlil kompyuter kurslarına cəlb ediləcəkdir. Kursda iştirak edən gözdən əlil və zəif uşaqlar səsli proqramlar vasitəsilə onlara lazım olan ədəbiyyatı oxuya biləcəklər. Kompyuterdə proqram təminatı və bütün əmrlər Azərbaycan dilindədir. Gözdən əlil kiçik yaşlı uşaqlar nağıl otağında digər uşaqlarla birgə səsli nağıllar dinləyir, kitabxana xidmətindən yararlanırlar. Bu layihənin həyata keçirilməsi BMT-nin “Uşaq hüquqları haqqında” və “Əlillərin hüquqları haqqında” konvensiyaları; “Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının qanunu; eləcə də Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası və “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın icrasına dəstək verməkdir. Kitabxanada açılmış bu mərkəzin fəaliyyətini genişləndirmək məqsədilə onların ən müasir avadanlıqlarla təchiz olunması, brayl şrifti ilə uşaq ədəbiyyatının çapı məsələləri tezliklə həyata keçiriləcəkdir. Həqiqətən də bu layihənin həyata keçməsi ilə görmə qabiliyyətini itirmiş uşaqların cəmiyyətə tam və səmərəli inteqrasiyasına dəstək vermək, onların sağlam uşaqlarla davamlı ünsiyyətini təşkil edərək cəmiyyətdə mövcud olan stiqmanın aradan qaldırılmasına kömək etməkdir. Bu layihənin həyata keçməsi həmin uşaqların da sağlam uşaqlar kimi informasiya almaq hüququnu reallaşdırdı, uşaqlara dəstək odluğunu göstərdi.
2015-ci il yanvarın 6-dan F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Görmə

qabiliyyəti zəif və məhdud uşaqlar üçün Dil və İnformasiya Kurslarının açılması ilə əlaqədar kitabxanaçılara treninq məşğələlər keçirilir. Kitabxanamızda açılmış bu mərkəzin də fəaliyyəti bundan ibarət olmaqla, məqsədi ilkin kitabxanadan istifadə edən əlil uşaqlara düzgün yanaşma, psixoloji yardım etməklə onların cəmiyyətə inteqrasiyasına kömək etməkdir. Uşaqlar üçün GAZ proqramın təminatı lokallaşdırılmış, internetə çıxışın təmin olunması və tədris-təlim proqramlarının hazırlanması, audiostudiya və kitabxananın fəaliyyəti təmin edilməsi istiqamətində daha geniş işlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Məşğələlərdə əlil insanlarla necə rəftar etmək, kompüterdən istifadə qaydaları, həmçinin Brayl şriftləri ilə yazmaq və oxumaq kimi dərslər keçirilir. Hər həftənin sonu keçiriləcək dərslər üzrə test tapşırıqları verilir və yoxlanılır. Həmçinin bu kursların köməyi ilə istifadəçilər Azərbaycan, rus və ingilis dillərində olan istənilən kitabların kompyuterin yaddaşına köçürülüb oxunması, səslənməsi, dinlənilməsi bacarığına malik olacaqlar. Eyni zamanda, musiqiyə qulaq asmaq, internetdən istifadə etmək, məktublaşmaq, 100 min səhifəlik materialı yaddaşda saxlamaq, surətini çıxarmaq, SMS göndərmək bacarıqları əldə edəcəklər. Bizim kitabxanamız məkan olaraq bu layihənin reallaşdırılmasında öz imkanlarından istifadə edərək görməyən uşaqların görənlərlə eyni vaxtda kitabxana xidmətlərindən istifadəsinə çalışır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası müstəqillik illərində Azərbaycan mədəniyyətinin inkişafı və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılması, dünya kitabxanaları səviyyəsinə qalxması istiqamətində də mühüm addımlar atmışdır. Belə ki, bir çox dünya kitabxanaları ilə əlaqələr yaradılmış, onların iş təcrübələrindən istifadə etməklə uşaqlara kitabxana xidmətində ən müasir metod və formalar tətbiq olunmuşdur. F. Köçərli adına Respublika Uşaq kitabxanası informasiya təminatı istiqamətində fəaliyyətinin səmərəliliyinin artırılması, inkişafı və təkmilləşdirilməsi məqsədilə günün tələbləri səviyyəsində mütərəqqi iş üsullarından istifadə edir, informasiyanın təqdim etmək imkanları və bir sıra başqa işlərin həyata keçirilməsi üçün səy göstərərək yeni-yeni layihələrə imza atır, uğurlar əldə edir. Bütün bunlarla yanaşı F. Köçərli adına Respublika Uşaq Kitabxanasının qarşısında duran mühüm vəzifələrdən biri oxuculara metodika, biblioqrafiya və elmi informasiya xidmətini dünya kitabxanaları səviyyəsinə qaldırmaq, oxucuların tələbatını ödəmək üçün yeni informasiya texnologiyalarını tətbiq etmək, İnternet şəbəkəsinin elektron ehtiyatlarından istifadə etməkdir.Kitabxanamız Respublika ərazisində fəaliyyət göstərən uşaq kitabxanalarında uşaqlara göstərilən kitabxana xidmətinin vəziyyətini öyrənir, təhlil edir, onun yaxşılaşdırılması barədə təkliflərini mədəniyyət orqanlarının müzakirəsinə verir.

## *Uşaq kitabxanalarında keçirilən kütləvi tədbirlərin formaları və təşkili*



Uşaq kitabxanaları gənc nəslin tərbiyəsində misilsiz təsir qüvvəsinə malikdir. Gənc nəslin tərbiyəsi və mütaliəsi ilə məşğul olan hər bir kitabxanaçı işini elə qurmalıdır ki, yetişən hər bir gənci dövrün tələbinə cavab verə biləcək bir səviyyəyə çatdıra, bilik və bacarıqlara yiyələndirə bilsin. Uşaqların savadlı, zəhmətsevər, ağıllı və sağlam yetişməsində kitabxanalar da eyni dərəcədə maraqlıdır. Müstəqil yaşamaq, taleyinin sahibi olmaq, öz dövlətini qurmaq hər bir xalqın arzusudur. Azərbaycan xalqı da həmişə bu istəklə yaşamışdır. 1991-ci il oktyabrın 18-də respublikanın qanunvericilik orqanı parlament Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul etdi və bununla da respublikamızın müstəqilliyi bərpa olundu. Həmin vaxtdan bəri 24 ildir ki, xalqımız azad yaşayır, öz milli dövlətini möhkəmlədərək inkişaf edir. Qısa müddətdə müstəqil Azərbaycan siyasi, sosial-iqtisadi, mədəni sahələrdə böyük nailiyyətlər əldə etmişdir. Müstəqillik illərində Azərbaycan mədəniyyətinin inkişafına və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılmasına böyük diqqət və qayğı ilə yanaşan prezedentimiz Azərbaycanda kitabxana işinin inkişafına da öz töhfələrini vermişdir. Bu illər ərzində uşaq kitabxanalarında maraqlı tədbirlər keçirilmiş, televiziya kanalları vasitəsilə işıqlandırılmışdır.

Gənc nəslin mənəvi tərbiyəsi sahəsində kitabxanalrın əsas vəzifələri onların əsas fəaliyyət istiqamətlərini müəyyən edir:

- Mədəni-tarixi-mənəvi dəyərlər əsasında uşaqların şüurunda öz vətəni ilə qürur duymaq, fəxr etmək hissinin aşılanması;
- Uşaqlarda fəal həyat mövqeyi tərbiyə etmək;
- Öz ölkəsinə, xalqına gərəkli olmaq duyğusunu tərbiyə etmək;
- Bədii, elmi-kütləvi nəşrlərin, audio-video materialların tam spektrindən istifadə etmək;
- Təbiət, canlılar və bitkilər aləmi haqqında biliklər təbliğ etməklə ekoloji tərbiyəni aşılamaq;
- Doğma ana dilinə, ədəbiyyata, mədəniyyətə sevgi və onları yaşatmaq ;
- Uşaq və yeniyetmələrin informasiya mədəniyyətinin yüksəlməsinə yardım göstərməli;
- Kompüter əsrinin nəslinə çevrilən azərbaycanlı uşaq və yeniyetmələr üçün onların mənəvi-əxlaqi-hüquqi tərbiyəsini təmin edən kibermühitin yaradılmasına çalışmalı;
- Böyüməkdə olan nəslin sosial-iqtisadi və ictimai həyata adaptasiyasına yardım göstərməli;
- Günün və cəmiyyətin tələbləri səviyyəsində fəaliyyət göstərməlidir;

Bildiyimiz kimi kitabxanaların inkişafında ən əsas məsələ kütləvi tədbirlər, kitabxana fondlarının düzgün komplektləşdirilməsi ilə oxucu sorğularının ödənilməsi, həmçinin kitabxana xidmətini ən yüksək səviyyəyə çatdırmaq, kitabxanaya oxucular cəlb etməkdir. Bundan əlavə kitabxanalarda "Beynəlxalq uşaq hüquqlarının müdafiəsi" ilə bağlı keçirilən bir sıra tədbirlərdə uşaqların, yeniyetmələrin, hətta valideynlərin hüquqi cəhətdən maariflənməsinə kömək etmək biz kitabxanaçıların vətəndaşlıq borcudur. Həmçinin Uşaq kitabxanalarında fəaliyyət göstərən Elmi-metodika şöbələrinin işçiləri ezamiyyələr təşkil edərək rayon uşaq kitabxanaılarında kitabxanaçılara sərgilərin təşkilində, mövzu ilə əlaqədar keçirilən kütləvi tədbirlərin hazırlanmasına da öz köməkliyini əsirgəməməlidir. Mədəniyyətimizi, tariximizi,ədəbi əlaqələrimizi geniş oxucu



kütlələri arasında yaymaq kitabxanaların ümdə vəzifəsidir. Bunların həyata keçirilməsində kütləvi tədbirlər mühüm əhəmiyyətə malikdir. Bu aydın məsələdir ki, hər bir kütləvi tədbirin düzgün təşkili oxucu ilə kitabxanaçı arasındakı ünsiyyəti daha da genişləndirər, oxucunun kitab mütaliəsinə olan meylini və marağını daha da artırar.

Bu gün informasiya əsri adlandırılan XXI əsr əsas məlumat mənbəyi olan uşaq kitabxanalarının qarşısında keyfiyyətcə yeni vəzifələr qoyur. Müasir kitabxanaçılar tələbatı günbəgün artan və genişlənən oxucuların təzə məlumatlar almaları məqsədilə onların dünya informasiya məkanına daxil olmaları, ümumbəşəri intellektual potensialdan operativ istifadə etmələri üçün geniş imkanlar yaratmalıdırlar. Bu baxımdan Azərbaycanda kitabxana işinin inkişafında yeni mərhələyə başlanğıc verən mühüm sənədlər Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" (20 aprel 2007) və "Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın (6 oktyabr 2008) təsdiq edilməsi haqqındakı sərəncamlarının həyata keçirilməsi kitabxana quruculuğunun Azərbaycan dövləti tərəfindən prioritet sahə kimi müəyyənləşdirilməsini təsdiq edir. Dövlət Proqramı kitabxana fondlarının müasir komplektləşdirmə mexanizminin yaradılması, respublikada kompyuterləşdirilmiş kitabxana-informasiya şəbəkəsinin yaradılması, kitabxanaların kompyuter və informasiya-proqram təminatı, Azərbaycan Respublikasının milli-mədəni irsinin və informasiya ehtiyatlarının qorunması, gələcək nəsillərə çatdırılması, kitabxana xidmətinin əhatə dairəsinin genişləndirilməsi, onun forma və məzmunca yeniləşdirilməsi, kitabxana şəbəkəsinin idarəetmə strukturunun təkmilləşdirilməsi, optimallaşdırılması və kadr islahatlarının həyata keçirilməsi və s. məsələləri əhatə edir. Bütün bunlar kitabxanaçıdan bilikli və yüksək səviyyəli peşəkar olmağı, informasiya kommunikasiya texnologiyalarından istifadə etməyi, müasir dövrlə

ayaqlaşmağı bacarmağı tələb edir. Zamanın ənənəvi texnologiyalar və kitabxanaların əhaliyə xidmət formalarının ciddi surətdə dəyişdirilməsi mərhələsinə başlanmışdır. Yeni informasiya texnologiyaları hər bir kitabxanaçının qarşısında çox geniş imkanlar açmışdır. İndi müasir kitabxanaçı təkcə bədii ədəbiyyat, elmi çap məhsulları və informasiya ilə əlaqədar oxucu tələbatının bilicisi deyil, həm də informasiya mənbələrinin yaradılması və istifadəsi texnologiyası sahəsində mütəxəssis, İnternet elektron şəbəkədə naviqator, informasiya-kitabxana sferasında menecer, kitab nəşriyyatı bazarının aktiv subyektidir. Kitabxanalar meydana gəldiyi gündən müasir günə qədər, cəmiyyətin və onun hər bir üzvünün tələbatını ödəmək və əsrlər boyu toplanmış informasiyanı gələcək nəsillərə çatdırmaq funksiyasını yerinə yetirirlər. Mədəni və tarixi irsimizin qorunub saxlanılması kitabxanaların inkişafına gedən yoldan keçir. Bu sahənin inkişaf etdirilməsi ilə yanaşı, kitabxanalarımızın dünya informasiya məkanına daxil olmasını təmin etmək istiqamətində də işlər görülməkdədir. XXI əsrin bizə verdiyi imkanlar bu işin həyata keçirilməsini daha da asanlaşdırır.
Kitabxanaya oxucu cəlb etmək üçün kitabxanaçı kitabxananın daxili tərtibatına xüsusi fikir verməlidir. Çünki müasir dövrdə kitabxanaların zövqlə tərtibatı oxucuların kitabxanaya cəlb edilməsinə təsir göstərən əsas amillərdən biridir. Bu işdə birinci şərt binanın estetik görünüşü, məqsədəuyğun avadanlıq və tərtibatın təmin edilməsidir. Kitabxana haqqında daha canlı təsəvvür yaratmaq üçün vestibüldə vacib sayılan müxtəlif məzmunlu reklamlardan istifadə olunmalıdır. Bu reklamda kitabxananın xidmət xüsusiyyətləri, fəaliyyət göstərən dərnəklər, maraq klubları haqqında məlumatlar verilməlidir. Əyani təbliğat vasitələri və kitabxananın dekorativ tərtibatı bina avadanlığının ümumi kompozisiyası və divarların rəngi ilə uyğun gəlməli, əlaqələndirilməlidir. Binanın işıqlandırılması isə otaqların funksiyasından (iş otağı, fond) asılıdır. Azərbaycan Respublikasının dövlət rəmzləri - bayrağı, gerbi, himni kitabxanaya daxil olan hər kəsin, hər bir oxucunun görə biləcəyi yerdə yerləşdirilməlidir.
Ulu öndər Heydər Əliyevin kitab haqqında bu çıxışlarını rolik formasında kitabxananın girişində ekranda nümayiş olunur. “Kitabxana xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir.” Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.

Ümummilli lider Heydər Əliyevə həsr olunmuş guşə (“Dahi insan, qüdrətli şəxsiyyət”, “Xalqa bəxş edilmiş ömür”, “Heydər Əliyev. Dünyaya pəncərə”, “Heydər Əliyev - Azərbaycan mədəniyyətinin hamisi”, “Heydər Əliyev və Azərbaycanda kitabxana işi” və s. başlıqlarda), “Bunları unutmaq olmaz”, “Qan yaddaşımız”, “Əsir torpaqlarımız bizi gözləyir”, “Əsrin dahisi, sənətin fədaisi”, “Milli Qəhrəmanlarımız” və s. başlıqlar altında guşələr, işğal altında olan rayonlarımızın adı, işğal tarixi diqqəti çəkən şəkildə yazılıb asılmalıdır. Görkəmli şəxsiyyətlərin şəkilləri, onların ibrətamiz kəlamlarından ibarət sitatların yazılıb divardan asılması da məqsədəuyğun olardı.



Hər bir kitabxana tərəfindən kütləvi tədbirlərin təşkili əvvəlcədən planlaşdırılmış şəkildə həyata keçirilməlidir. Ilk növbədə qeyd etmək lazımdır ki, kitabxanaçı il ərzində həyata keçiriləcək kütləvi tədbirin adını, tədbirin nə vaxt keçirilməsini illik planda əks etdirməlidir. Plan əlamətdar günlər, təqvimdə göstərilən yubileylər, ikigünlük seminar planları əsasında dəqiqləşdirilməlidir. Məlum olduğu kimi kütləvi tədbirlər müxtəlif şifahi, əyani, yazılı planlaşdırılır. Bunların isə müxtəlif növləri mövcuddur.Planlaşdırılmış şifahi tədbirlər isə əsasən **oxucu konfransı, görüşlər, ədəbi – bədii gecə, biblioqrafik kitab icmalları, sual - cavab gecələri, söhbətlər** və s. ibarətdir.




Əyani tədbirlərə isə sərgilər, guşələr, stendlər, kitabxana plakatı, kataloqlar və s daxildir. Yazılı təbliğat formalarına isə kartotekalar, biblioqrafik tövsiyə siyahıları, ədəbiyyat göstəriciləri daxildir.

Yəqinki, hər hansı kütləvi tədbirin səmərəli təşkili isə kitabxanaçıların yaradıcılıq bacarığından daha çox asılıdır.Ümumiyyətlə hər hansı bir şifahi, əyani və yazılı tədbirlər illik planda öz əksini tapmalıdır. Kitabxanaçıya ayrı - ayrı kütləvi tədbirlərin təşkili və keçirilməsinə dair bir sıra metodik tövsiyələrin izahı olduqca vacibdir.Uşaq kitabxanaları və onların filialları yubiley ilində oxuculara çatdırılacaq əyani və şifahi təbliğatın; kitab sərgiləri, kitabxana plakatları, stend, albom, ədəbi – bədii gecələr, söhbətlər, disputların aparılması, oxucu konfranslarının və biblioqrafik icmalların keçirilməsini təmin etməlidir. Bundan əlavə hər hansı bir kitabxananın imkanı çatmırsa plakatlardan və yaxud öz gücünə çəkilmiş rəsm və karikaturalardan istifadə edə bilər. Həmçinin bütün şifahi təbliğat formalarından müvafiq qaydada istifadə edilə bilər. Kitabxanalarda keçirilən kütləvi tədbirlərin **mütəşəkkil, planlı, sistemli, romantik və emosional təşkili** və s. keçirilməsi cansıxıcılığı, formalizmi aradan qaldırır və onların təsir gücünü artırır.



Sözsüz ki, tədbirlərin əsas məqsədi bədii irsin ana xəttini oxuculara çatdırmaqdan ibarətdir. Belə tədbirlər sayəsində oxucular respublikamızda baş verən hadisələr və respublikamızın görkəmli ictimai, elmi – mədəniyyət xadimləri haqqında düzgün məlumat almış olurlar. Elə buna görə də kitabxanalarda mədəni – kütləvi tədbirlərin geniş oxucu kütləsi üçün gərəkliliyi və səmərəliliyi böyük əhəmiyyət kəsb edir. Təbii ki, mədəni – maarif müəssisələrində və kitabxanalarda bu formada atılan hər yeni addım milli mədəniyyətimizin tərəqqisini genişləndirdiyi kimi müasir oxucunu da qədim və

zəngin mədəniyyətimizə, söz sənətimizə hörmət ruhunda tərbiyə etməkdən ibarətdir.Kitabxanalarda keçirilən ən iri həcmli tədbirlərdən biri oxucu konfranslarıdır.

## Oxucu konfransı.



Bu geniş kütləvi tədbir formalarından biridir. İlk əvvəl qeyd edək ki, oxucu konfransı, görüş, ədəbi bədii gecə, sual – cavab gecələri və sairə bu kimi geniş kütləvi tədbirlərə hazırlıq zamanı kitabxanaçı kitabxananın şura üzvüləri ilə razılığa gələrək yuxarıda adı çəkilən tədbirlərin təşkilinə aid əvvəlcədən ayrıca proqram təşkil etməlidir. Belə ki, bu kitabxananaçı üçün bir növ həm yaddaş, həm də tədbirə hazırlaşmaqla yanaşı görüləcək işlərin dəqiqliyini müəyyənləşdirməlidir. Kitabxanaçı proqramda keçiriləcək tədbirin adını, giriş sözü və eləcə də çıxış edəcək başqa şəxslərin adını göstərməlidir. Bütün bunlarla yanaşı tədbirin harada nə vaxt keçiriləcəyi də qeyd edilməlidir. Kitabxanaçı ilk növbədə aktual mövzuları .... nəzərdən qaçırmamalıdır.Qeyd etmək lazımdır ki, hər hansı tədbir üçün müəyyən hazırlıq dövrü nəzərdə tutulmalıdır. Kitabxanaçı tədbir çoxluğuna yox, onun keyfiyyətli və məzmunlu keçirilməsinə fikir verməlidir. Hər hansı bir tədbirin yaxşı təşkili və bunun təsiri nəticəsində kitabxanaçı oxucuların kitablardan daha çox istifadə etməsinə nail ola bilər. O, iş planında il ərzində 4-5sayda oxucu konfransı nəzərdə tutulmalıdır. Konfransın hazırlıq işi 3 aya qədər davam etməlidir. Kitabxanaçı bu vaxt ərzində bir sıra məsələlərə də ciddi yanaşmalıdır. Konfransın mövzusu üzrə fondda olan kitabların bir neçəsini seçib ayırmalı və məruzəçiyə hazırlaşmaq üçün həmin kitabları tövsiyə etməlidir. O, həmçinin konfransa hazırlaşan yoldaşlarla əlaqəyə girib onların çıxışa nə vaxt hazır olduqlarını da müəyyənləşdirməlidir.Yalnız bundan sonra konfransı keçirmək üçün vaxt təyin edib elan yazmaq olar. Kitabxanaçı oxucu konfransının maraqlı və səmərəli keçməsi üçün məruzə və çıxışlara ziyalıları cəlb etməlidir. Bu işdə müəllim və fəal oxucuların gücündən geniş istifadə etməyidə unutmamalıdır. Kitabxanaçı tədbirin mövzusu üzrə kitabxana tərəfindən həyata keçirilmiş məsələlərdən danışmalıdır. Oxucu konfransının gedişatı haqqında protokol yazılmalıdır.Hər hansı kitab müzakirəsi də oxucu konfransı formasında təşkil olunur. Müzakirənin sonunda çıxışların nəticəsi əsasında ümumi qərar qəbul edilir.

Oxucu konfranslarının üstün cəhətlərindən biri odur ki, bu və ya başqa ictimai xadimlərin yaradıcılığı və yaxud onların ayrı – ayrı əsərləri ilə kütləvi oxucunu tanış etmək imkanı yaradır. Oxucu konfransında müzakirə olunacaq əsərlərin nə dərəcədə əhəmiyyətli və təsirli olması, günümüzün tələbləri ilə necə səslənməsi əsas meyar kimi götürülür. Oxucu konfransını keçirmək üçün kitabxanaçı kitabxana filialları ilə birlikdə proqram tərtib etməlidir. Həmin proqramda keçiriləcək tədbirin adı, giriş sözü və çıxış edəcək başqa şəxslərin adı qeyd olunmalıdır.Oxucu konfranslarına hazırlıq dövründə kitabxanaçı yubilyar haqqında

olan ədəbiyyatı seçməli və həmçinin dövrü mətbuatda dərc olunan materiallardan da istifadə etməlidir. Tədbirin keçirilməsində orta məktəbin müəllimlərinin, ixtisaslı mütəxəssislərin, klub və muzey işçilərinin, məktəbin sinif şagirdlərinin imkanlarından maksimum istifadə etmək vacibdir. Onu da qeyd etmək lazımdır ki, belə tədbirlərin təşkilində məktəb şagirdlərinin iştirakına şərait yaratmaq çox vacibdir.Bütün bu cür tədbirlər kitabxanalarda oxucuların və kitab verilişinin çoxalmasına xidmət edir.Uşaq və gənclər kitabxanaları tərəfindən şagirdlərin tədbirlərə cəlb edilməsində əsas amil onların asudə vaxtının düzgün təşkil edilməsinə, mütaliənin düzgün istiqamətləndirilməsinə, oxucu marağının öyrənilməsinə və həmçinin görkəmli şəxsin irsindən faydalanmasına kömək edəcəkdir.

***Ədəbi bədii gecə***



Uşaq Kitabxanalarında ədəbi – bədii gecələrin təşkili də vacib tədbir vasitələrindən biridir. İlk növbədə qeyd edək ki, hazırda bu tədbir müxtəlif adlar altında da təşkil olunur. Bir çox hallarda bu tədbir ..... və sairə başlıqlarla da keçirilir. Adından məlumdur ki, ədəbi – bədii gecə iki hissəyə bölünür. Tədbirin birinci hissəsində ədəbi mövzu və onun müəllifi haqqında rəsmi çıxışlar olmalı və məlumatlar verilməlidir.Ədəbi – bədii gecənin ikinci hissəsində isə tədbirin mövzusu ilə bağlı şeir, bədii qiraət, şeirlərə həsr olunmuş mahnılar səslənir, slayd göstərilir, səhnəcik göstərilir. Ədəbi – bədii tədbirlərin məzmunlu və maraqlı olması məqsədilə hazırlıq işləri aparılmalıdır. Qeyd etmək lazımdır ki, hər hansı tədbirdə hökmən mövzunu tamamlayan sərgi də təşkil edilməlidir. Kitabxanaçı çıxışdan sonra həmin sərgidən istifadə olunmasını tədbirə toplaşan oxuculara tövsiyə etməlidir.Ədəbi - bədii gecələrin köməyi vasitəsilə oxuculara kütləvi tədbirlər haqqında geniş məlumat verilir. Bu tədbirləri müxtəlif adlar altında keçirmək olar. Tədbir iki hissədən ibarət olur:ədəbi və bədii. Birinci hissədə müzakirə olunan əsər və ya mövzu haqqında məruzə, çıxışlar olur. İkinci hissədə isə tədbiri keçirən kitabxananın imkanlarından asılı olaraq bədii proqram təşkil edilir. Ədəbi və bədii hissənin proqramı ayrı - ayrılıqda tutulur və hər iki hissə eyni mövzuya həsr edilir. İkinci hissədə yubliyarın yazdığı şeirlərdən parçalar, pyesləri əsasında düzəldilmiş kiçik səhnələr və lirikasına bəstələnmiş mahnılar formasında ssenari tərtib edilməlidir. Tədbirin mövzusuna uyğun materiallar keyfiyyətlə seçilməli, bədii hissənin ssenarisi ilə uyğunlaşmalıdır. Belə tədbirlər oxucu kütləsini özünə daha çox cəlb edir, onların bədii – estetik zövqünün formalaşmasına real şərait yaradır, həmçinin də oxucuların müəyyən qismi biləvasitə tədbirin iştirakçılarına çevrilir. Tədbirin dinamikliyini və ahəngdarlığını artırmaq üçün klub teatr dərnəklərinin əməkdaşlarını, orta məktəb müəllimləri və yuxarı sinif şagirdlərini işə cəlb etmək lazımdır. Çünki kitabxanalar bu tədbiri ayrılıqda öz qüvvəsi ilə təşkil etmək və keçirmək imkanına malik deyildir.Bu

tədbiri keçirmək üçün kitabxanaçı ilk növbədə ,əlaqədar təşkilatlar, mədəniyyət evi, orta məktəblərin dil ədəbiyyat müəllimləri və yubliyarı şəxsən tanıyan adamlar ilə əlaqə saxlamalıdır. İstər oxucu konfransları və istərsə də ədəbi – bədii gecələrin təşkili bir qayda olaraq fotostendlər və kitabxana plakatları ilə tamamlanır.Fotostendi nəzərdən keçirən hər bir oxucu yubliyarın yaradıcılığının ölməz inciləri olan müxtəlif dram əsərlərinin tamaşalarından fotolarla tanış olmaq imkanını qazanır. Stenddə nümayiş edilən hər bir foto – şəkil oxucunu ədibin zəngin yaradıcılığı ilə tanış edir. Foto – sərgidə görkəmli rejissorların, aktyorların və başqa görkəmli xadimlərin ədib haqqında dediyi qiymətli fikirlərdən sitatlar da öz əksini tapmalıdır. Bir sözlə, sənətkarın yaradıcılıq irsinin müəyyən məqamlarının bədii tərtibat: fotosərgilər və plakatlar vasitəsilə geniş oxucu kütlələrinə göstərilməsi kitabxanalarda keçirilən tədbirlərin bədii estetik gücünü artırır. Çünki keçirilən hər bir tədbirin səviyyəsi haqqında təsərrüfatı onlar yaradır.Bundan başqa kitabxanalarda kitab müzakirələrinin, disputların və ucadan oxuların keçirilməsinin əhəmiyyəti olduqca böyükdür. Keçirilən kütləvi tədbirlər içərisində kitab müzakirələri xüsusi yer tutur. Çünki kitablar oxucuların dünyagörüşünün və bədii estetik baxışlarının tərbiyə edilməsində mühüm rol oynayır.Kitab müzakirələrini ədibin müxtəlif əsərlərinə görə keçirmək olar. Kitabxanaçı əsərin müzakirəsinə ciddi hazırlıq görməli və əsərlə bağlı müxtəlif suallar tərtib etməlidir. Həmin suallar müzakirə zamanı pyesin mahiyyətinin aydınlaşdırılmasına xidmət etməlidir.Kitabxanaçı əsərə uyğun sualların sayını artıra bilər.Müzakirə zamanı maraqlı və oxucuları düşündürən məsələlər meydana çıxır.Həmin məsələlərin oxuculara çatdırılmasında kitabxanaçının ədəbiyyat müəllimlərinin gücündən istifadə etməsi daha məqsədəuyğundur.




### ***Biblioqrafik icmallar***

Uşaq kitabxanalarında keçirilən kütləvi tədbirlərdən biri də biblioqrafik icmallardır.İcmallar əsasən müəllifin kitabları və ayrı – ayrı əsərləri haqqında oxuculara məlumat vermək üçün təşkil edilir. Göründüyü kimi, yubileyə hazırlıq dövründə yubilyarın şəxsiyyətinə, ədəbi irsinin düzgün təhlilinə aid olan ədəbiyyata maraq daha da artır. Belə məlumatlar əsasən qəzet və jurnallarda dərc olunduğundan geniş oxucu kütləsi onları ardıcıl əldə edib oxuya bilmirlər. Odur ki, belə əsərlərin biblioqrafik icmalını keçirmək üçün yubilyarın adı altında xüsusi kartoteka tərtib olunmalıdır.

***Kitab təbliğinin ən sanballı təbliğat formalarından biri kitab sərgiləridir.***




Sərgilərin ümumi məqsədi bir olsa da, mövzusuna görə müxtəlif olur.Uşaq kitabxanalarında kitabxanaçılara məsləhət görərdik ki, kitab sərgilərində birinci növbədə mövzuya müvafiq olaraq rəhbər ədəbiyyatı yerləşdirsinlər və yeri gəldikcə, illüstrasiya materiallarından, şəkillərdən və sitatlardan da istifadə etsinlər. Sərgilər vasitəsilə çap əsərləri oxuculara əyani olaraq çatdırılır.Yubilyarın kitabxanalarda sərgilərinin tərtibi metodikasına diqqətlə yanaşmaq tələb olunur. Sərgilərin tərtibatına başdansovdu yanaşmaq, eksponatları necə gəldi düzmək olmaz. Sərgi xüsusi zövqlə tərtib olunmalı, məzmununa, bədii - estetik dəyərlərinə ciddi fikir verilməli, çap məhsullar, şəkillər və sitatlar xüsusi sistemlə düzülməlidir. Belə sərgilər daha cəlbedici olur və seçilmiş materiallar mövzunun bütün tələblərini əhatə edir. Lakin kitabxanaçılar sərgiləri tərtib edərkən kitabxananın öz daxili imkanlarını da nəzərə almalıdırlar. Beləliklə, sərgilər oxucuları kitabxanalarda təşkil edilən tədbirlərə çatdırır və onlarda xüsusi maraq oyadır.

Sərgiyə əlavə ədəbiyyat, əsərlərinə çəkilmiş filmlərdən fotolar, dram tamaşalarından çəkilmiş şəkillər, şeirlərinə yazılmış mahnıların valları, klipləri və s. yerləşdirmək olar. Sərginin hazırlanmasını tərtibçi – kitabxanaçının öz təxəyyülü ilə daha da zənginləşdirilə bilər. Çünki, indi yeni texnologiyalar vardır. Kompüter və başqa texniki vasitələr nəzərdə tutulur.Bütün bunlara yekun vuraraq, belə bir nəticəyə gəlirik ki, kitabxanalar hər hansı bir yubilyarın yubileyini geniş miqyasda keçirməsini təmin etmək üçün, əlaqədar təşkilatın köməyindən əhəmiyyətli dərəcədə istifadə etməli, nəzərdə tutulmuş tədbirin reallaşmasında öz bilik və bacarığını əsirgəməməlidir.

***Sual - cavab gecələri.*** Məlumdur ki, sual – cavab gecələri müxtəlif mövzularda təşkil edilir. Məs: incəsənət, vətənpərvərlik, estetik tərbiyə, ekoloji tərbiyə, mütaliə, mənəvi əxlaqi tərbiyə, beynəlmiləl tərbiyə və s.

Sual – cavab gecəsini təşkil etdikdə kitabxanaçı qarşısına məqsəd qoymalıdır. Bu sual-cavab gecəsində iştirak edən Azərbaycanımızın gələcəyi olan uşaqlar bu gecədən nə kimi biliklər əldə etdilər.

Uşaq kitabxanalarında kütləvi tədbirlər kitabın, elektron nəşrlərin və digər çap məhsullarının geniş oxucu kütləsi içərisində təbliğ edilməsində xüsusi rol oynayır. Kütləvi tədbirlərin təsiri ilə kitabxanaya yeni-yeni oxucular cəlb edilir. Hər bir kütləvi tədbir oxucularda müəyyən bir mövzu haqqında konkret təsəvvür yaradır, həmin mövzularda gedən müzakirələrin iştirakçısına çevirir, bununla bağlı mövcud ədəbiyyatla tanış edir.

Kütləvi işin mərkəzində daim kitab durur. **Kitabın təbliği vasitəsiz və vasitəli şəkildə həyata keçirilir.** Birinci halda oxucu (məs. kitab müzakirələri, kitab sərgiləri və s.) kitab haqqında ancaq məlumat ala bilir. Vasitəli məlumat isə işin yaxşılaşdırılması məqsədinə xidmət edir. Məsələn, kitabxanaçılar və kitabxana şurası oxucu konfranslarında kitabxananın işi haqqında hesabat verirlər. Yaxud,

mütaliə mədəniyyətinə həsr olunmuş tədbir zamanı uşaqlar kitabla davranış qaydaları haqqında məlumatla tanış olurlar.

***Kitabxanada həyata keçirilən fərdi və kütləvi işlər 2 əsas funksiya daşıyır:***



**1. Məlumat funksiyası - oxuculara müəyyən biliklərin verilməsi;**
**2. Tərbiyəvi funksiya - oxucularda yaradıcılıq vərdişləri, təşəbbüskarlıq,** təşkilatçılıq, kollektiv fəaliyyətdə iştiraka maraq yaradılması və bu cəhətlərin inkişaf etdirilməsi.

Bu funksiyaların birliyi oxucuların tələbinə uyğun olaraq kitabxanadaxili elmi dünyagörüşünün, mənəvi aləminin hərtərəfli inkişafına kömək edir, oxucu ilə kitabxanaçı arasında ünsiyyəti daha da genişləndirir, oxucunun mütaliəyə olan marağını artırır.

Uşaq kitabxanalarında kütləvi tədbirlərin keçirilməsinə kömək məqsədilə bir sıra tədbirlərdən nümunələri nəzərinizə çatdırırıq.

20 yanvar 1990-cı il. Xalqımızın azadlıq və müstəqilliyə qovuşduği il. 25 ildir ki, xalqımız azadlığımız uğrunda qurban getmiş övladlarını daim yad edir.

Matəm günü ilə əlaqədar "Qanla yazılan tarix", "20 yanvar- tarix dərsi", "Şəhidlər unudulmur", "Başını uca tut Vətən!"adlı kitab sərgiləri təşkil etmək, kiçik yaş qrupu üzrə oxu zalında söhbətlər, ucadan oxu və səhərcik keçirmək. Və yaxud "Qan yaddaşımız- 20 yanvar" adlı tədbir Tədbirdə dedektiv romanlar və vətənpərvərlik ruhunda əsərlər yazan yazıçı Elxan Elatlı ilə görüş .Kitabxanaçı yazıçının həyat və yaradıcılığı haqqında danışaraq onu oxucularına təqdim edir. Tədbirdə Elxan Elatlının Azərbaycanaın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr etdiyi "Qisas gecəsi" romanının müzakirəsi keçirilir. Sonra tədbir iştirakçıları arasında "Vətənpərvər kimdir?" adlı rəy sorğusu aparılır. Rəy sorğusunun keçirilməsində əsas məqsəd orta məktəb şagirdlərinə vətənpərvərlik ruhunun aşılanmasıdır. Biz düşünürük ki, gənc nəslin unutqan olması, vətənpərvərlik ruhunun aşağı səviyyədə olması kimi problemləri aradan qaldırmaq üçün belə tədbirlərin keçirilməsi məqsədəuyğundur. 20 yanvar şəhidlərinə həsr olunmuş "Yarımçıq talelər" adlı ədəbi-bədii kompozisiyanın göstərilməsi, proyektorla "Qalib ordu, qalib xalq " adlı sənədli film nümayiş etdirilməsi məqsədəuyğundur. Məktəbin xoru "Qalx, qalx, ulu torpaq!" mahnısını da oxuya bilərlər.

Azərbaycan ərazisinin bir hissəsi erməni işğalçılarının tapdağı altında qaldığından və müharibə təhlükəsi hələ də sovuşmadığından keçirilən tədbirlərin əsas mövzusu hərbi vətənpərvərlik tərbiyəsinə həsr olunmalıdır. Müharibə şəraitində yaşayan bir ölkədə gənc nəsildə torpağa, vətənə məhəbbət hisslərinin aşılanması, düşmənə nifrət duyğularının formalaşması vacibdir və bu mövzuda yazılmış bədii əsərlərin təbliğinə daha geniş yer verilməlidir.

Torpaqlarımızın 20 faizinin işğal altında və əhalinin 8 nəfərindən birinin qaçqın olduğu bir şəraitdə vətənpərvərlik tərbiyəsi ilə bağlı mövzuların aktuallığı daha da kəskinləşir. Kitabxanaçı bədii ədəbiyyatın təbliği zamanı müasir dövrdə

vətənpərvərliyin yeni məzmun və məna kəsb etdiyini dünyada baş verən hadisələrlə vəhdətdə götürməli, bu mövzuda kitabları oxuculara təbliğ edərkən çağdaş prosesləri nəzərdən qaçırmamalıdır.
Gənclərin vətənpərvərlik tərbiyəsində ölkənin qəhrəmanlıq tarixini əks etdirən şifahi xalq ədəbiyyatı nümunələrinin təbliğinin də əhəmiyyəti böyükdür. “Dədə Qorqud” və “Koroğlu” dastanlarının, bir sıra nağıllarımızın uşaqlar və gənclər arasında geniş təbliğ edilməsi onlarda qəhrəmanlıq, mübarizlik, yadelli işğalçılara qarşı nifrət, doğma torpağa məhəbbət hissləri və duyğuları tərbiyə edir. Nümunə üçün “Koroğlu” dastanını götürək. Bildiyimiz kimi ictimai məzmununa, ideya əhəmiyyətinə və digər yüksək bədii dəyərlərinə görə “Koroğlu” dastanı xalqımızın qəhrəmanlıq tarixinin canlı inikasıdır. Bu möhtəşəm abidə zaman-zaman aşıqlarımız tərəfindən yeni boyalarla, cizgilərlə zənginləşmiş, xalqın ruhuna, qanına hopmuş, qüvvət və qüdrət, qəhrəmanlıq mücəssəməsinə çevrilmişdir. Dastanın bu günlə səsləşən bir çox xüsusiyyətləri uşaqların qəhrəmanlıq ruhunda tərbiyə edilməsinə müsbət təsir göstərir.
Vətənpərvərlik tərbiyəsində klassiklərimizin bədii irsinin təbliği də çox faydalıdır. Bu baxımdan N.Gəncəvi, M.Füzuli, M.F.Axundov, A.Səhhət, M.Ə.Sabir, S.Vurğun və başqa klassiklərimizin əsərlərindəki vətənpərvərlik hisslərinin və çağırışlarının təbliği məqsədəuyğundur.
1941-1945-ci illərin Böyük Vətən müharibəsində iştirak etmiş və qəhrəmanlıqlar göstərmiş azərbaycanlılar haqqında, Dağlıq Qarabağ müharibəsi, 20 Yanvar, Xocalı faciəsi, Şuşanın, Laçının və başqa rayonların işğalını əks etdirən əsərləri dönə-dönə uşaqların diqqətinə çatdırmaq lazımdır.
Hər bir kitabxana tərəfindən kütləvi tədbirlərin təşkil olunması əvvəlcədən planlaşdırılmış şəkildə həyata keçirilməlidir. Kitabxanaçı ilk növbədə il ərzində həyata keçiriləcək kütləvi tədbirlərin adını və vaxtını illik iş planında əks etdirməlidir. Plan əlamətdar günlər, təqvimdə göstərilən yubileylər, ikigünlük seminar planları əsasında dəqiqləşdirilməlidir.



***Kütləvi tədbirlər şifahi, əyani və yazılı (mətbuat, çap) formalarda həyata keçirilir.***
**Məsələn:** Ulu öndərimiz Heydər Əliyevin anadan olmasının ildönümü münasibətilə “Sən elə bir zirvəsən“ adlı ədəbi bədii gecə kecirmək, “Bir dahi doğuldu, gəldi dünyaya”, “Vətən oğlu“, ”Dədə Heydər-Atatürk”, ”Olməz insana” və s. başlıqlar altında sərgi təşkil etmək, Ulu öndərimiz Heydər Əliyevin uşaqlarla birgə keçirilmiş tədbirlərdən bəhs edən slaydlar göstərmək, Ulu öndər Heydər Əliyevə həsr olunmuş ”Sən elə bir zirvəsən“ şeir müsabiqəsi təşkil etmək olar.
Gənclər qünü münüsibəti ilə kitabxananın oxu zalında“Gənclər sabahın qoruyucusudur” adlı sərgi tərtib etmək, Akif Əlinin “Öncə Vətəndir” adlı kitabının icmalını keçirmək olar.

Beynəlxalq qadınlar günü münasibəti ilə “Ana müqəddəsdir”, “Dünyada ən uca zirvədir  - Ana!”, “Bütün müqəddəsləri, dahiləri də ana yetişdirib” adlı sərgi keçirmək,  Taleh Həmidin "Ana dedim, qarşımda gözəl bir səhnə açıldı" kitabının icmalını keçirmək olar.  Keçirilən bu tədbirlər  anaların ülvüliyini, böyüklüyünü, əvəzsizliyini nəzərə çarpdırmaq arzusunun nişanəsidir. "Ana dedim, qarşımda gözəl bir səhnə açıldı" kitabı "Kitabi-Dədə Qorqud"dan "Sən sağ ol, qadın ana!" şeiri ilə başalyır. Kitabda Əfzələddin Xaqani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzulidən üzü bəri, yəni bugünkü günümüzə kimi şairlərin bu müqəddəs varlıq haqqında şeirləri toplanıb.

Beynəlxalq teatr günü münasibəti ilə yuxarı sinif şagirdləri ilə“Teatr-Problem-Tamaşa” mövzusunda müzakirə keçirmək. Tədbirdə müəllif, rejissor və teatr truppasının iştirakı məqsədəuyğundur. Yazıçı-dramaturq Əli Əmirli, rejissor xalq artisti Cənnət Səlimova şagirdlərin teatr, ədəbiyyat, sənət haqqındakı çoxsaylı suallarını cavablandıra, yaradıcılığı haqqında ətraflı məlumat verə bilərlər. 31 Mart - azərbaycanlıların soyqırımı günü ilə əlaqədar mühazirə-treninq keçirmək olar.  Tədbirdə interaktiv üsulla bu mövzuda  uşaqların yaradıcı qabiliyyətləri yoxlanılır. Uşaqlar maraqlı şeir, hekayə, inşa yazıb, rəsm çəkmələri yerinə düşərdi. Onların yaradıcılıq nümunələrindən seçmələr kitabxananın münsifər heyəti tərəfindən mükafatlandırıla və  kitabxananın dərc etdiyi jurnalda dərc edilə bilər.






2 aprel- Beynəlxalq Uşaq Kitabı günü münasibətilə kitabxana Milli Uşaq Kitabı sərgisi təşkil edə bilər. Tədbiri keçirməkdə əsas məqsəd uşaqların informasiya tələbatının ödənilməsi ilə bağlı onları milli uşaq ədəbiyyatı ilə tanış etmək, mütaliəyə həvəsləndirməkdir. Kitab sərgisi oxu zalında keçirilir. Tədbirdə müxtəlif başlıqlar altında “Xalq yaradıcılığı paytaxtları”, “Nağıllar aləmində”, “Beşik”dən ərməğan”, “Təhsil nəşriyyatından”, “Altun nəşriyyatından”, “Gözlə bizi Qarabağ”, “Kitablarda mən hələ...”, “Dərədən, təpədən”, “Güvəncin nağılları”, “Çox oxuyan, çox bilər”, “Tarix- keçmişdən gələcəyə”, “Yeddi rəngli kəmərim” və s. kitab sərgiləri nümayiş olunmaqla 5 gün davam edə bilər. Həmin günlərdə kitabxanaya çoxlu sayda məktəblilər gələrək uşaq ədəbiyyatı nümunələri ilə tanış olurlar. Sərgi iştirakçılarına kitabxananın vizit kartları, əlfəcinlər və kitabxananın təsis etdiyi jurnalların  hədiyyə edilməsi, oxucuların kitaba marağını daha da artırar.



Uşaqlar arasında “Boxçadan suallar” adlı viktorina keçirilmək, suala düzgün cavab tapanlara hədiyyələr vermək olar. Sərginin açılış günündə uşaq yazıçılarından Sevinc Nuruqızı, Gülzar İbrahimova, Rafiq Yusifoğlu, Zahid Xəlil, Ələmdar Quluzadə, Yayım Assosasiyasının əməkdaşları, məktəblilər, müəllimlər, valideynlər iştirak etməsi məqsədəuyğundur.Həmçinin kitabxanada “Kitab.Dünya.Uşaq” adlı dəyirmi masada keçirmək olar. Tədbirin keçirilməsində əsas məqsəd uşaq yazarlarını, rəssamlar və tərcüməçilərini müasir uşaq ədəbiyyatımızdakı problemlərə yönəltməklə, Beynəlxalq Uşaq Ədəbiyyatı Şurası vasitəsilə ölkəmizi tanıtmaq, dünya arenasına çıxmaqdır. Tədbirdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri uşaq ədəbiyyatı nəşr edən bir çox nəşriyyatların(Altun, Turan, Çinar-Çap, Çaşıoğlu, Təhsil, Beşik ) əməkdaşları , uşaq yazıçılarından, İlyas Tapdıq, Zahid Xəlil, Sevinc Nuruqızı, Rafiq Yusifoğlu, Ələmdar Quluzadə, Qəşəm İsabəyli, Gülzar İbrahimova, Gülarə Munis, Solmaz Amanova, Oqtay Rza iştirak edə bilərlər.



Uşaq kitabxanalarında Azərbaycanın müstəqilliyinin memarı, qurucusu olan ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin anadan olması günü ilə əlaqədar hər il “Uşaq kitab bayramı” nın keçirilməsi məqsədəuyğundur.Tədbir zamanı uşaqlar arasında keçirilən “Heydər Əliyevin şah əsəri – Müstəqil Azərbaycan” adlı şəkil müsabiqəsinin, uşaqların çox sevdikləri nağıl kitablarının paradının keçirilməsi bütün kitabsevərlərin diqqətini cəlb edər. Keçirilən bu tədbirlər sayəsində kitablar öz ürək sözlərini nəşriyyatlara, yazıçılara bildirə bilərlər.Tədbirdə “Heydər baba – Millət atası”, “Heydər Əliyev və uşaqlar” “Əsrin müqaviləsindən başlanan yol”, “Mən fəxr edirəm ki, Azərbaycanlıyam!”, “Xalqa, Vətənə, Dövlətə sədaqət”, “Təbiət bizim evimizdir”, “Dünya uşaq ədəbiyyatının inciləri” , “Millətin xilaskarı”, “Mənim nağıllı dünyam”, “Sənin maraq dünyan”, “Göyərçin ”, “Yeddi rəngli kəmərim” kitab sərgilərilərinin təşkil olunması məsləhətdir. Tədbirə məktəblilər, uşaq baxçasının məktəbə hazırlıq qrupunun uşaqları dəvət oluna bilərlər. Tədbiri keçirməkdə məqsəd kitab mədəniyyətinin təbliği, dünya uşaq ədəbiyyatı nümunələrinin daha aydın şəkildə geniş oxucu kütləsinə göstərilməsi, ona maraq yaratmaqdan ibarət olmalıdır.



1 iyun Uşaqların Beynəlxalq Müdafiə Günü həsr olunmuş “Dünyanı verək uşaqlara” adlı Uşaq Kitabı Bayramı keçirmək məqsədəuyğundur. Səhnənin baş tərəfində bayramın emblemi, hər iki tərəfdə isə ulu öndərimiz Heydər Əliyevin uşaqlarla birlikdə çəkilmiş şəkilləri olan plakatlar asılır. “Kitab – mənəvi sərvətimizdir”, “Kitab oxumağın vaxtıdır” adlı şüarlar, elm və biliklə bağlı müdrik kəlamlar tədbirə yığışanların nəzəri diqqətini cəlb etməlidir. 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə “Mənim dünyam” asfalt üzərində rəsm müsabiqəsi keçirmək olar. Tədbir zamanı uşaqlar bir-birindən gözəl mahnı, rəqs və şeirlərlə çıxış edə bilərlər. Tədbirdə uşaqların rəsmləri, əl işləri də nümayiş olunması, kitabxananın təşkil etdiyi kitab sərgisi tədbir iştirakçılarının marağına səbəb olar.Tədbirin sonunda uşaqları həvəsləndirmək məqsədilə rəsm müsabiqəsinin Həyətin divarlarında “Günəş” rəsm studiyasında çalışan uşaqların rəsmləri asılır. Kitab sərgilərini aşağıdakı mövzular üzrə təşkil etmək olar:“ Baş rolda -mənim hüquqlarım”, “Məktəb proqramına kömək”, “Nağıllar aləmində”, “Sirli-sehrli nağıllar”, “Sənin maraq dünyan”, “Kitablarda mən hələ, baxıram şəkillərə...”, “Çox oxuyan, çox bilər”, “Biri var idi, biri yox idi” və s. Həmçinin “Mənim rəng dünyam” adlı rəsm müsabiqəsinə təqdim olunmuş rəsmlərin də sərgisi təşkili mümkündür. Kiçik yaşlı uşaqlar asfalt üzərində rəsmlər çəkə bilərlər.



***Kitab sərgiləri aşağıdakı mövzular üzrə təşkil oluna bilər:***

Gözəl qələm sahibi, istedadlı yazıçı, hərbi jurnalist, məhsuldar tədqiqatçı olan Şəmistan Nəzirlini geniş oxucu kütləsi yaxşı tanıyır. Onun çoxillik yaradıcılıq əməyinin bəhrələri olan **"Azərbaycan generalları", "Qəribə talelər", "Vurğun keçib bu yerlərdən", “Güllələnmiş Azərbaycan generalları", Qoridən gələn qatar"** və digər kitabları oxucular tərəfindən maraqla mütaliə olunur. Xüsusilə, Ş.Nəzirlinin Vətənə, torpağa məhəbbət, qəhrəmanlıq, şücaət mövzulu yazıları gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində böyük və əvəzedilməz rol oynayıb. Uşaq kitabxanalarında bu kitabların sərgisini təşkil etmək, müzakirəsini keçirmək məqsədəuyğundur.

**“Gözlə bizi, Qarabağ”** stendində Azərbaycan tarixi, xüsusən Qarabağın taleyi ilə maraqlananlar üçün bir neçə adda yeni kitabların nümayişi Nüşabə Məmmədlinin

«Zəngulə», Fazil Qaraoğlunun «Ermənilər və həqiqətlər», Nübar Həkimovanın «Ermənilərin tarixi cinayətləri ziyalıların qan yaddaşında» kitabları, kitabxanamızın redaksiya heyətinin hazırladığı «Gözlə bizi, Qarabağ!» və «Azərbaycanlılara qarşı iki əsr davam edən soyqırım» adlı broşüraları bu qəbildəndir.

**“Xalq yaradıcılığı paytaxtlan-2011”** oxucusunu Azərbaycanın folklor paytaxtı olan Lənkərana, əfsanələr paytaxtı Şabrana, sənətkarlıq paytaxtı İsmayıllıya səyahətə dəvəti «Azərbaycanın Lənkəran regionu toponimlərinin izahlı lüğəti», «Azərbaycan folkloru», Bəhlul Abdullayevin «Azərbaycanm mərasim folkloru», Manaf Süleymanovun «Lahıc», «Kənd yaşıl turizmi» və s. kitablar bu sahədə əla məlumat mənbələridir.

**“Xalım-xalçam - dünyam mənim”** stendi təkrarolunmaz xalçalarımızm tarixini, yaranma mərhələlərini, ustaların həyatnı əks etdirən «Azərbaycan incəsənəti - mənbələr», Kübra Əliyeva və Eldəniz İbrahimovun «Lətif Kərimov», Eldəniz Ibrahimovun «Azərbaycanın gənc rəssamları» və «Şərqin qapısında möcüzələr» kimi kitabları

**“Dünyanı, təbiəti, insanları qoruyaq”** devizi, yəqin, sənə indi ekologiyaya həsr olunmuş kitablar «Uşaqların ekoloji məhkəməsi», «Heyvanların dilindən», «Yaşıl kitab», «Azərbaycan heyvanlar aləmi» kitablar silsiləsi təbiət və ətraf mühitlə maraqlanan oxucularımıza gözəl bələdçilik edər.

**“Tarix - keçmişdən gələcəyə”** stendində nümayiş olunan Rauf Məlikov və Nizami İbrahimovun «Məktəblinin tarix lüğəti», Əkbər Qocayevin «Tarixi şəxsiyyətər», türk yazarı Reha Yılmazın türk dövbtlərinin tarixindən danışan «Tariximizdə iz qoyanlar» adlı kitabları və bir çox başqa nəşrlər tarix sevənlər üçün




töhfədir.“Müstəqillik yollarında ”, “Tarix – keçmişdən gələcəyə”, “İncəsənət – bəşəriyyətin misilsiz sərvəti”, “Məktəb proqramına kömək”, “Nağıllar aləmində”, “Sirli-sehrli nağıllar”, “Azərbaycan – yurdum mənim”, “Sənin maraq dünyan”, “Kitablarda mən hələ, baxıram şəkillərə...”, “Çox oxuyan, çox bilər”, “Azərbaycanın elm və mədəniyyət xadimləri”, “Biri var idi, biri yox idi” , “Güvəncin nağılları”, “Dərədən , təpədən”, “Mən və mənim dünyam”, “Elm və texnika – inkişaf tarixi”, “Xarici dilləri öyrənək”, “Sağlam həyat tərzi yaşayaq”, “Qüvvət elmdədir, başqa cür heç kəs, Heç kəsə üstünlük eyləyə bilməz”, “Musiqi – səmimiyyət məbədi”, “Bilikli adamlar uzağı

görər, cahilin zəhməti hədərdir, hədər. (N.G.)", "Yeddi rəngli kəmərim", "Muğam dünyasına səyahət", "Vətən mənə oğul desə nə dərdim", "Azərbaycan xalq yaradıcılığı paytaxtları " və s.

Uşaq kitabxanalarında təkcə şair və yazıçıların yubileyi deyil, maraqlı mövzular ətrafında da görüşlər təşkil olunmalıdır. Belə görüşlərdən birinə Milli Kulinariya Mərkəzinin baş direktoru, Azərbaycan Milli Kulinariya Assosasiyasının prezidenti Tahir Əmiraslanovu dəvət etmək olar. Görüş zamanı kitabxana işçiləri müxtəlif bölgələri təmsil edən unudulmuş Azərbaycan milli şirniyyatlarını hazırlayıb qonaqlara təqdim etməklə yanaşı, bişirilmə qaydası, hansı mərasimlərdə istifadə olunması haqqında da məlumat verə bilərlər. Bütün bunlar qonaqlarda böyük maraq doğurub, onları təəccübləndirər. Tədbirdə "Azərbaycan mətbəxini sevdirən insan" adlı çarxlı slaydların nümayiş etdirilməsi yerinə düşərdi. Slayd Tahir Əmiraslanovun həyat və fəaliyyətini, ölkə və beynəlxalq miqyaslı tədbirlərdə iştirakı və qazandığı nailiyyətləri, Azərbaycan mətbəxinə dair maraqlı məlumatlardan bəhs etməlidir. Həmçinin kitabxanada Tahir Əmiraslanovun "Mətbəx dastanı" və "Novruz süfrəsi" kitablarının icmalını da keçirmək məqsədəuyğundur.Tədbiri keçirilməkdə əsas məqsəd kitabxana işçilərinin diqqətini milli mətbəximizlə bağlı dünyada baş verən yeniliklər və məlumatlara, faktlara yönəltməklə milii mətbəximiz haqqında daha da geniş məlumat əldə etmək, milli mətbəximizi unutmamaqdır. Belə tədbirlər Azərbaycan milli mətbəxini bir daha oxuculara sevdirməklə yanaşı, vətənpərvərlik hisslərini də artırır.

Uşaq hüquqlarının müdafiəsi məsələsi daima dövlətimizin diqqət mərkəzindədir və bu problem həmişə ictimaiyyəti maraqlandıran bir məsələ olmuşdur. Dünyanın bir sıra ölkələrində bu məsələ ilə ciddi məşğul olunur. Azərbaycanda da uşaq hüquqlarının müdafiəsi ilə bağlı mühüm addımlar atılmış, bir sıra qərar və qanunlar qəbul edilmişdir. Uşaqları maarifləndirmək, onları öz hüquqları barədə daha ətraflı məlumatlandırmaq kitabxanaların üzərinə düşən mühüm vəzifələrdən biridir.Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümü ilə əlaqədar kitabxanada Hüquq həftəsi çərçivəsində bir neçə məktəbin IX və X sinif şagirləri arasında "Hüquq biliciləri" adlı maariflənmə işi aparmaq, diskussiya təşkil etmək olar. Tədbirdə Ombudsman nümayəndələrindən hüquqi maarifləndirmə sektorunun məsləhətçilərini , insan hüquqları müdafiəsi şöbəsinin məhbusların hüquqlarının müdafiəsi sektorunun məsləhətçilərini tarix və ədəbiyyat müəllimlərini dəvət etmək olar. Tədbirin giriş hissəsində (sözləri Gülnur Aslan, musiqisi Novruz Aslan) Rəşad İlyasovun ifasında "Uşaqları qoruyaq" klipinin proyektor vasitəsilə nümayişi məqsədəuyğundur. Tədbirdə hüquq həftəsi çərçivəsində keçirələn tədbirlərdən, "Baş rolda mənim hüquqlarım" adlı rəsm müsabiqəsi, diskussiyalar, uşaqlar arasında komandalar şəklində interaktiv oyun da təşkil etmək məsləhətdir. Hüquq həftəsi çərçivəsində keçirilən tədbirlərə "Uşaqları qoruyaq", "Qoy həmişə günəş olsun", "Baş rolda mənim hüquqlarım" və s. başlıqlar altında təşkil etmək olar.




Uşaq kitabxanalarında Türkiyə, Amerika, Böyük Britaniya, Almaniya, Yaponiya, Rusiya, Ukrayna, Belarusiya, Litva, İran, Hindistan, İtaliya, Polşa, Norveç, Bolqarıstan, Estoniya, İspaniya və digər ölkələrin uşaq ədəbiyyatlarını kitabxanada nümayiş etdirilməsi, sərgilərin təşkili təkcə uşaq ədəbiyyatı nəşri ilə məşğul olan nəşriyyatların, redaktorların, yazarların deyil, həmçinin uşaqların marağına səbəb olar. Həmçinin Uşaq kitabxanalarında “Milli dəyərlərimizi qoruyaq, nağılları yaşadaq : Kitabxana və oxucu” adlı əl işlərinin sərgisini təşkil etmək, nağıllarımızla bağlı uşaqların hazırladıqları əl işlərini sərgiləmək məqsədəuyğundur.



Kitabxanalarda “Ekologiya və biz” adlı rəsm müsabiqəsi, “Yurdumuzu gülüstana çevirək”, “Yaşıl həyat” adlı aksiyalar da təşkil etməklə, gələcəyimiz olan uşaqların ekologiyaya aid kitablarla daha yaxından tanış olmalarına şərait yaratmış olarıq. Tədbirdə kiçik yaşlı uşaqlar kitab, təbiətin mühafizəsi ilə bağlı şeirlər söyləyib, mahnılar oxuya bilərlər. Kitabxanaçılar təbiətdə davranış qaydaları ilə bağlı kiçik yaşlılarla viktorinalar da təşkil edə bilərlər.

Bildiyimiz kimi BMT 21 mart gününü - Beynəlxalq Novruz Günü elan etmişdir.














Bununla əlaqədar Kitabxanalarda “Novruz gəlir, yaz gəlir” “Novruzum, Yazım mənim” və s. başlıqlar altında tədbir keçirmək, sərgilər təşkil etmək olar. Bu tədbirlərin kitabxanalarda təşkilində məqsəd Azərbaycanlı uşaqlara elimizin gözəl bayramı olan Novruzla bağlı məlumat vermək, uşaqların ifasında el şənliyini göstərməklə milli, mənəvi dəyərlərimizin dünyanın hər bir yerində qorunub saxlanmasıdır. Tədbirdə uşaqlar milli geyimdə çıxış edərək, şeirlər və mahnılar söyləyib, craftsəməni və xonçalarla rəqs etdib, novruz çərşənbələrindən danışıb, papaqatdı, yumurta döyüşü, ocaq üzərindən tullanma kimi qədim adətlərimizi göstərə bilərlər. Uşaqlar arasında “Boxçadan suallar” adlı viktorina da təşkil etmək olar.



***Uşaq Kitabxanalarında “Kitabxanaya uşaqların cəlbi:***




Mütaliə haqqında düşüncələr”, “Uşaq və məktəb kitabxanalarında mütaliə problemləri”,“Mütaliə bilik və informasiya cəmiyyətində”, “Mütaliənin müasir forma və metodları”, “Kitabxanalar milli mədəniyyətin dirçəliş resursudur” mövzusunda elmi konfransların təşkil olunmasında məqsəd uşaq və məktəb kitabxanalarında monitorinqlərin keçirilməsi uşaqların mütaliəyə cəlb olunması ilə bağlı qarşıda duran problem məsələlərin aradan qaldırılması və həlli istiqamətində mütəxəssis rəylərinin bir araya gəlməsidir.

Uşaq kitabxanalarında yubliyar yazıçı və şairlərimizin xatirəsinə həsr olunmuş yubiley tədbirlərinin keçirilməsi uşaqların dünyagörüşünün zənginləşməsi, öz füsunkarlığı ilə seçilən Azərbaycan ədəbiyyatı ilə yaxından tanış olmalaraı üçün şərait yaradır.

Məsələn: M.Cəlal Paşayev şifahi xalq ədəbiyyatı və klassik irsimizin ənənələri əsasında yetişərək böyük ədəbiyyatda öz sözünü deyib, şərəfli imzasını qoyub. Kitabxanalarda Mir Cəlal Paşayevin yubileyinin rəsmi qeyd olunması haqqında YUNESKO qərarına əsasən “Qızıl qələm” mükafatının laureatı, yazıçı tədqiqatçı Ramiz Dənizin “Qəlblərdə yaşayan Mir Cəlal” kitabının təqdimatını keçirmək məsləhətdir.

Mikayıl Müşfiq Azərbaycan ədəbiyyatında, tariximizdə, xalqımızın yaddaşında və qəlbində həmişə 30 yaşlı çılğın bir gənc olan bir şairimizdir. Ömrümüzün hər çağında onun nəğmələrini dinləyəcək, şeirlərini xatırlayacaq, harayını eşidəcəyik.Şairimizin yubileyi ilə əlaqədar uşaq kitabxanasına Respublika elmi pedaqoji kitabxananın əməkdaşlarını, məktəbin dil ədəbiyyat müəllimlərini, psixoloq və başqa qonaqları dəvət etmək olar. Tədbirdə M.Müşfiqə həsr olunmuş sənədli filminin nümayişi məqsədəuyğundur. Tədbirdə məktəbli oxucuların ifasında Səid Rüstəmov və Ramiz Mirişlinin ”Oxu, tar”, Hacı Xanməmmədovun “Yaşa könül”, “Yadıma düşdü”, Vasif Adıgözəlovun “Yenə o bağ olaydı” mahnılarını ifa edə bilərlər. Yuxarı sinif şagirdləri şairin şeirlərini azərbaycan, rus, ingilis dilində söyləyə bilərlər. Tədbirdə bağça uşaqları M.Müşfiqin “Şəngül, Şüngül, Məngül” mənzum nağılı əsasında səhnəcik də göstərə bilərlər.



Kitabxanada Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının ildönümü münasibətilə dəyirmi masa keçirmək, “Azadlıq günəşimizin ziyası“ adlı rəsm və “İstiqlal bütün xalqın əsəridir” mövzusunda inşa, “Azərbaycan deyiləndə ayağa dur ki...” şeir müsabiqələri təşkil etmək olar. Uşaq kitabxanalarında “Kitabxanaya uşaqların cəlbi: Mütaliə haqqında düşüncələr” mövzusunda keçirilən elmi konfranslar təşkil etmək məqsədəuyğundur.

## *Şifahi təbliğatın formaları*



Ədəbiyyatın şifahi təbliği öz istiqamətinə və imkan dairəsinə görə 4 metoda, daha doğrusu 3 əsas və 1 köməkçi metoda bölünür: Oxucuların tənqidi-təhlili fəallığının inkişafına təsir göstərən metod və ya qısaca olaraq tənqidi-təhlil metodu; oxucuların müzakirə olunan kitablara maraqlı münasibətini və söhbət mövzusu olan ədəbiyyatla ilkin tanışlığını təmin edir. Aparıcının istiqamətləndirdiyi fikir mübadiləsi nəticəsində əsər və onun dəyəri haqqında düzgün ictimai fikir formalaşır. Bu metodun əsas növləri bunlardır:

- sahəvi və bədii ədəbiyyat nümünələrinin müzakirəsi;
- müxtəlif aktual problemlərə dair oxucu konfransları; (bəzən əsər (hazırlanan mövzu ilə bağlı) və onun motivləri əsasında çəkilmiş film eyni vaxtda müzakirə və müqayisə olunur. Bu oxucu-tamaşacı konfransı adlanır);

-ucadan oxular (qəzet materialları da ola bilər); - bu zaman mütaliəçi şərhlər verir, dinləyicilərin suallarını cavablandırır və çox vaxt tədbir oxunmuş mətnin müzakirəsi ilə başa çatır:

- **sual-cavab gecələri;**
- **disputlar** (belə gecələrdə müzakirə obyekti ən aktual mövzular, problemlər, eləcə də hamını düşündürən məsələlərdən bəhs edən kitab və digər materiallar olmalıdır).

Pozitiv-illüstrativ metod - buraya oxucuları çap əsərlərində təsvir edilən real, həyati faktlarla, hadisələrlə, bu əsərlərin müəlliflərinin həyat və fəaliyyətləri ilə tanış olmağa imkan yaradan üsüllar daxildir:

- **kitab müəllifləri ilə görüş;**
- **ədəbi-bədii gecələr;**
- **musiqili ədəbi gecələr.**

Bu metodların uğuru istifadə olunan yeniliklərdən, əsərlərin oxuculara məlum olmayan cəhətlərinin açılmasından asılıdır. Uşaqların maraq dairələrini nəzərə alaraq kitabxanaçı tədbir başlamazdan öncə mövzu ilə bağlı ədəbiyyatı təbliğ edir.

**Tövsiyə-məlumat metoduna aşağıdakılar daxildir:**

**- biblioqrafik icmallar;**

**- şifahi jurnallar;**

Bu tədbirlərin keçirilməsinin məqsədi uşaqlarda tövsiyə olunan əsərlərə maraq oyatmaq, onları həmin əsərləri oxumağa sövq etməkdir.

Ədəbiyyat təbliğinin vasitəli metodu əsasən 2 üsulla həyata keçirilir:

**- kitabxanaların fəaliyyətini işıqlandıran oxucu konfransları;**

**- fəal oxucular cəlb etməklə keçirilən kitabxana müşavirələri.**

Kitabxanada hər bir metodun vaxtaşırı səmərəli şəkildə istifadə edilən özünəməxsus üsulları vardır. İndi kitabxanalarda daha tez-tez müraciət edilən təbliğat üsullarını qısaca şərh edək.

Kitabxanalarda bədii ədəbiyyatın təbliği zamanı kütləvi işin hər üç formasından, yəni əyani, şifahi, mətbuat (çap) formalarından səmərəli şəkildə istifadə edilməlidir. Təcrübə təsdiqləyir ki, bunlardan daha geniş yayılan və tez-tez tətbiq edilən şifahi və əyani təbliğat formalarının rəngarəng üsullarıdır.

Başqa növlərə nisbətən şifahi təbliğat özünün fərqləndirici xüsusiyyətləri, üstünlükləri ilə seçilir ki, bu da onu təbliğatın daha səfərbəredici və fəal vasitəsinə çevirir. Onun əsas üstünlüyü auditoriya ilə canlı ünsiyyətin olmasıdır. Oxucularla canlı ünsiyyət, konkret auditoriyanı, onun intellektual səviyyəsini, marağını, həvəsini nəzərə almaqla istənilən nəticəni verəcək tədbir keçirməyə imkan verir. Şifahi üsullar oxucu qruplarına eyni vaxtda təbliğat təsiri göstərmək məqsədilə canlı sözdən istifadəyə əsaslanır. Bu zaman həm kitab və onun məzmunu ilə oxucuların tanışlığı təmin edilir, həm də onlara şəxsi təhsil, mütaliə vərdişləri və bacarıqları aşılanır.

***Bədii ədəbiyyatın təbliğinin şifahi forması bu üsullarla həyata keçirilir:***

***məruzə və mühazirələr, söhbətlər, oxucu konfransları, kitab müzakirələri, ədəbi-bədii gecələr, kitab təqdimatları, ucadan oxular, görüşlər, şifahi jurnallar, biblioqrafik icmallar və s.***



Bundan başqa, əsasən uşaq kitabxanalarında ifadəli oxu və nəqletmə üsullarından da istifadə edilir ki, bunlar kiçik yaşlı məktəblilərin marağına səbəb olur. İfadəli oxu balacalar arasında bədii ədəbiyyatın ən yaxşı tövsiyə forması, təbliğatın özəyi olub, kitaba və mütaliəyə dərin məhəbbət oyadır. Kitabxanalarda təbliğat işinin şifahi üsulları kütləvi kommunikasiya vasitələrinin ağlagəlməz inkişafı dövründə belə öz üstünlüyünü qoruyub saxlayır. Ən əsası isə budur ki, oxucularla birbaşa əlaqə saxlayan və üzbəüz ünsiyyətdə olan kitabxanaçı oxucunun reaksiyasını dərhal öyrənmək və məsələni dəqiqləşdirərək onun diqqətini lazımi istiqamətə yönəltmək imkanına malikdir.

Kitabxanaçının nitq mədəniyyəti, ifadə vasitələrinin zənginliyi mühüm əhəmiyyət kəsb edir. Ona görə də hər bir kitabxanaçı öz ünsiyyət mədəniyyəti ilə yanaşı, nitq mədəniyyətinə də fikir verməlidir.



***Mühazirə*** **-** problemin dərindən və hərtərəfli izah edilməsi, təbliği metodudur. Mühazirə müxtəlif aktual mövzulara həsr edilməlidir. Mühazirənin mövzusunu seçərkən hazırki dövrdə izah edilməsi zəruri olan əsas vəzifə və məsələlərdən çıxış etməli, kimlər üçün təşkil edilməsi mütləq nəzərə alınmalıdır. Mühazirəçi ilə mühazirənin adını müəyyənləşdirmək, aydın və ifadəli ad tapmaq üçün məsləhətləşmək lazımdır. Mühazirəçi bəzi məsələləri, mühazirənin əsas planını, mövzu üzrə ədəbiyyat mənbələrini müəyyən edir. Bunların hamısı dəvətnamədə, elanda yazılır. Hansı xəritə, diafilm, kinofilm və başqa əyani vasitələr, illüstrasiya materiallarını hazırlamaq barədə də mühazirəçi ilə məsləhətləşmək zəruridir.

Söhbətlər - kütləvi-şifahi işin ən təsirli və geniş yayılmış metodudur. Kiçik qrup ilə (qruplar üzrə) və ayrı-ayrı şəxslərlə (fərdi) keçirilir və onu hər bir şəraitdə, işdən asudə vaxtda da keçirməyə imkan verir. Söhbətin əsas xüsusiyyəti qarşılıqlı danışıq, məsələnin birgə müzakirəsidir. Söhbətin müvəffəqiyyəti mövzunun aktuallığından, oxucuların həmin mövzuya olan marağından, söhbət aparanın savad və hazırlığından, problemin kollektiv müzakirəsinə iştirakçıları cəlb etmək bacarığından asılıdır. Söhbətin əsas məqsədi oxucuların mürəkkəb, bəzən qarışıq və ziddiyətli hadisələrdən ibarət olan müasir ictimai-siyasi həyatdan müstəqil baş çıxarmasına kömək etməkdir. Söhbətə hazırlıq metodikası onun məqsədinin müəyyən edilməsindən, mövzunun seçilməsindən, planın işlənməsindən, materialın seçilib öyrənilməsindən, əyani materialların toplanmasından ibarətdir. Söhbəti qəzet və ya jurnal məqaləsinin oxunuşundan, kiçik söhbətdən, hər hansı bir sualın qoyuluşundan başlamaq olar. Mövzunun müzakirəsinə daha çox dinləyici cəlb etmək üçün oxuculara veriləcək suallar diqqətlə düşünülməlidir. Nəinki sualın xarakterinin, eləcə də onun qoyuluşunun, aydın ifadəsinin böyük əhəmiyyəti vardır. Söhbəti istiqamətləndirərkən söhbət aparan şəxs mövzunun bütün məsələlərini əhatə etməli, aydın, yadda qalan misallar gətirməli, inandırıcı sübutlar göstərməli, onu kollektivin işi və həyatının konkret məsələləri ilə sıx bağlamalıdır. Müzakirənin vaxtında yekunlaşdırılmasının, çıxış edənlərin hamısına diqqətlə yanaşılmasının, meydana çıxan suallar üzrə tədbir görülməsinin söhbətin müsbət nəticəsi üçün böyük əhəmiyyəti vardır.

Mühazirə və söhbətlər zamanı texniki vasitələrdən – video çəkilişlərdən, sənədli filmlərdən və İnternet səhifələrində olan məlumatlardan istifadə etmək məqsədəuyğundur.

***Oxucular arasında bədii ədəbiyyatı təbliğ etməyin ən geniş yayılmış şifahi üsulu kitab müzakirəsidir.***



Kitab müzakirəsi adətən hər hansı bir kitaba, oxucu konfransı isə müəyyən bir mövzuya və ya problemə (məsələn, ictimai-siyasi və tarixi hadisələrə, beynəlxalq həyata və s. məsələlərə dair kitablar haqqında müxtəlif oxucu fikirləri) həsr edilir. Kitab müzakirələri oxucu fəallığının artmasına, bədii-estetik zövqlərin formalaşmasına, kitab üzərində müstəqil işləmək, oxuduqları çap əsərləri haqqında sərbəst fikir yürütmə bacarığının yaranmasına təsir göstərir. Müzakirələrdə məktəblilər, yuxarı sinif şagirdləri, yüzlərlə adam - gənclər, yaşlılar, ziyalılar, şagirdlər, tələbələr və başqa oxucular fəal iştirak edirlər. Yazıçı və şairlərlə oxucular arasında ünsiyyətin yaradılmasında, bədii ədəbiyyata meylin yaranmasında belə müzakirələr böyük əhəmiyyət kəsb edir. Kitab müzakirəsi heç bir halda formal xarakter daşımamalıdır. Hər hansı bədii əsərin müzakirəsi ciddi hazırlıq tələb edir. Bir qayda olaraq müzakirəyə həyat həqiqətini düzgün əks etdirən, geniş ictimaiyyəti həyəcanlandıran problemlərlə səsləşən, vətənpərvərlik hissləri aşılayan bədii əsərlər çıxarılmalıdır. Kitab müzakirəsi üçün bədii ədəbiyyat nümunəsi seçərkən kitabxananın oxucu kontingenti, onların maraq və sorğuları nəzərə alınır. Bədii əsər seçiləndən sonra plan tərtib olunur, həmin hazırlıq planını bir qayda olaraq kitabxana fəalları müzakirə edirlər.

Kitab müzakirəsi aparıcının 5-10 dəqiqəlik giriş sözü ilə açılır. Aparıcının vəzifəsi qısaca olaraq müəllifin yaradıcılığının əsas cəhətlərini nəzərə çatdırmaqdan, müzakirə olunan əsərin mühüm məqamlarını qeyd etməkdən, çıxışlara ümumi istiqamət verməkdən ibarət olmalıdır.

Yekun sözünə isə daha çox vaxt ayrılır. Bu zaman çıxışlarda səslənmiş əsas fikirlər, mülahizələr və qeydlər ümumiləşdirilir, oxucuların əsər haqqında söylədikləri yanlış mühakimələrə düzəliş verilir, əsər bütövlükdə qiymətləndirilir. Çox vaxt çıxışlardan sonra kitabın müəllifi də çıxış edir, müzakirələr isə oxucuların yazılı və şifahi suallarına müəllifin cavabları ilə yekunlaşır. Müzakirə materialları oxucuların rəyləri, protokol, hazırlıq planı və s. toplanır və kitabxanada saxlanılır.



***Kitab təqdimatı*** bütün kitablara deyil, geniş ictimaiyyət, müxtəlif oxucu qrupları üçün maraq obyekti olan, ölkənin ictimai-siyasi həyatına, iqtisadiyyatına, maarif və mədəniyyətinə, xalqın dövlətin həyatında böyük xidmətləri olan, ictimai-siyasi və dövlət, elm, maarif, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinin həyat və fəaliyyətlərini əks etdirən kitablara həsr olunur.

Kitab təqdimatı hazırlanması və təşkili baxımından kitab müzakirəsinə oxşayır. Lakin kitab təqdimatı mahiyyətcə və məqsədinə görə kitab müzakirəsindən fərqlənir.
Kitab müzakirələrində başlıca məqsəd müzakirə obyekti olan kitab haqqında oxucuların fikirlərini bilmək, onun nə dərəcədə maraqla oxunduğunu müəyyənləşdirməkdirsə, kitab təqdimatının başlıca məqsədi təqdimata yığışanları yeni kitab haqqında məlumatlandırmaq, onun ictimai əhəmiyyəti haq-qında təsəvvür yaratmaqla geniş təbliğ olunmasına çağırış xa-rakteri daşıyır.
Kitabların təqdimat mərasimi aparıcının 3-5 dəqiqəlik giriş sözü ilə başlayır. O, iştirakçıları salamlayaraq, kitabın mövzusu, təqdimatın məqsədi haqqında məlumat verir. Aparıcı təqdim olunan kitabın ya özünu, ya da fotoşəklini nümayiş etdirir. İnformasiya mərkəzi olan kitabxanalarda proyektorun köməyilə ekranda kitabın elektron variantı göstərilir. 10-15 dəqiqə ərzində kitabın kimlər üçün nəzərdə tutulduğu haqqında danışılır və elektron variantda kitabın içindəkilər (mündəricatı) göstərilir. İştirakçılara kitabın yerləşdiyi İnternet ünvanlar çatdırılır. 10-15 dəqiqə oxucularla dialoq aparılır. Kitabın əhəmiyyəti haqqında rəy və mülahizələr öyrənilir və mövzuya uyğun suallar verilir. 5-10 dəqiqəlik son sözdə kitabın əhəmiyyətindən bir daha danışılır, kitabın qiyməti, haradan almağın mümkünlüyü haqqında məlumat verilir. Mərasimdə müəllifin iştirak etməsi daha yaxşı olar, çünki ortaya çıxan bir çox sualları yalnız o cavablandıra bilər.
Tədbirdən əvvəl elan hazırlanmalıdır. Elanda kitabın müəllifi və annotasiyası yazılmalı, oxucuların rəylərini yazmaq üçün "hesabat üçün cədvəl" paylanmalıdır. Bundan başqa imkan daxilində kitab haqqında buklet və dəvətnamələr hazırlamaq olar. Müəllif və kitab haqqında qısa məlumat, tədbirin keçirilmə yeri və vaxtı göstərilmiş dəvətnamələr əlaqədar təşkilatlara göndərilməlidir.

***Təbliğatın şifahi formalarından biri də oxucu konfranslarıdır.***

Konfrans bir qrup elmi, ictimai tədris, müəssisə və təşkilatların, həmçinin dövlətlərin, qurumların nümayəndələrinin müəyyən əhəmiyyətli, xüsusi məsələlərin müzakirəsi üçün toplanmış yığıncaqdır. Konfranslar məzmun və məqsədinə görə 3 növ olur: ***1)məsləhət konfransları; 2) Tematik konfranslar; 3) Hesabat konfransları.***



Məsləhət konfransların məqsədi nəzərdə tutulan elmi-siyasi, bədii və s. ədəbiyyatın mütaliəsinə alışdırmaqdır. Bunun üçün konfransda oxuculara məqsədəuyğun kitabların mütaliə edilməsi, mütaliə mədəniyyəti və qaydaları haqqında məsləhətlər verilir.
Tematik konfranslar hər hansı müasir siyasi, elmi, tərbiyəvi problemlərə həsr edilir. Konfrans bir kitaba, hər hansı bir müəllifin yaradıcılığına, yaxud mövzu və ideyaca bağlı olan bir neçə müəllifin kitablarına və s. tərbiyəvi məsələ və problemlərə həsr edilir.
Tematik konfranslar hər hansı müasir siyasi, elmi, tərbiyəvi problemlərə həsr edilir. Konfrans bir kitaba, hər hansı bir müəllifin yaradıcılığına, yaxud mövzu və ideyaca bağlı olan bir neçə müəllifin kitablarına və s. tərbiyəvi məsələ və

problemlərə həsr edilə bilər. Tematik konfranslar məzmunca aşağıdakı növlərə bölünür: a)elmi-praktik konfranslar; b)elmi-nəzəri konfranslar; v)elmi-metodik konfranslar. Elmi-praktik konfranslarda elmi və publisistik kitablar, görkəmli elm və mədəniyyət xadimlərinin həyat və yaradıcılıqları müzakirə edilir. Müzakirədə aktual problemlər və məsələlər praktiki işlərlə əlaqələndirilir. Yəni müzakirə prosesində həm elmi, həm də praktiki işlər müqayisə edilir, tənqidi yanaşılır, nöqsanlar, çatışmazlıqlar aşkar edilir.
Elmi-nəzəri konfranslarda oxucular mütaliə prosesində müəyyən praktik biliklərə yiyələnməklə bərabər, əsərlərə öz münasibətlərini bildirir, müəyyən nəzəri problem və məsələlərlə bağlı təklif və arzularını söyləyirlər.
Elmi-metodik konfransların məzmunu və forması məsləhət konfranslarını xatırladır. Konfransda iştirak edənlər öz iş üsullarından danışırlar. Belə konfranslar qabaqcıl təcrübənin yayılmasında, gənc nəslin təlim-tərbiyəsində mühüm rol oynayır.



Tematik konfranslar digər konfranslarla müqayisədə əhatəlidir və onların təşkili və keçirilməsi də gərgin iş tələb edir.
Hesabat konfransları yarım ildə, rüblərin axırında, ilin sonunda keçirilir. Bu konfranslarda oxucular oxuduqları kitablar, əldə etdikləri bilik, bacarıq və vərdişlər, onların faydası və s. haqqında çıxışlar edirlər. Kitabxanaçı oxucuların mütaliəsinin vəziyyətini öyrənir, konfransı yekunlaşdırır, qüsurları qeyd edir, oxuculara məsləhətlər verir və nəhayət, gələcəkdə oxucu mütaliəsinə necə rəhbərlik etmək üçün müəyyən nəticələr çıxarır.
Kitabxanaçı oxucu konfransının keçirildiyi mühit və şəraiti, çıxış edənləri, qonaqların fəaliyyətini və görüləcək işləri qabaqcadan nəzərə almalıdır. Konfransın mövzusu mənəvi tərbiyənin maraqlı və aktual sahələrini əhatə etməlidir. Konfransın gedişində mənəvi tərbiyə məsələlərini əks etdirən ayrı-ayrı əsərlərə istinad edilməli, maraqlı fakt və material-lardan nümunələr gətirilməlidir. Kitabxanaçı konfransın keçirilməsi üçün qabaqcadan ayrıca plan tərtib etməlidir. O, planda keçiriləcək tədbirin adını, giriş sözü və eləcə də çıxış edəcək başqa şəxslərin adlarını göstərməlidir. Konfransın mövzusundan asılı olaraq mühazirə və söhbət, sərgi, tövsiyə siyahıları, kitabxana plakatları, bülletenlər və ya divar qəzetləri, bədii və sənədli filmlərin nümayişi, konfransın mövzusu üzrə ekskursiya və başqa tədbirlər də nəzərdə tutula bilər. Tədbirdən əvvəl elan hazırlanmalı, dəvətnamələr yazılmalıdır.
Kitabxanaçı oxucularla fərdi iş prosesində konfransda çıxış etmək istəyənləri müəyyənləşdirməli, kimin hansı məsələ ətrafında çıxış edəcəyini öyrənməli, onlara lazımi məsləhətlər verməlidir. Bütün bunlarla yanaşı tədbirin harada və nə vaxt keçiriləcəyi də qeyd edilməlidir. Kitabxanaçı ilk növbədə aktual mövzuları, günün tələblərindən irəli gələn məsələləri nəzərdən qaçırmamalıdır. Konfransın mövzusu üzrə fondda olan kitabların bir neçəsini seçib ayırmalı və məruzəçiyə hazırlaşmaq üçün həmin kitabları tövsiyə etməlidir. Kitabxa-naçı konfransda çıxış edəcək hər

bir oxucunu kitabla təmin etməli və onların çıxışa hazır olub-olmadığını müəyyənləş-dirməlidir. Yalnız bundan sonra konfransı keçirmək üçün vaxtı təyin edib elan yazmaq olar.



***Konfrans*** - onun məqsədi və keçirilmə qaydası haqqında giriş sözündən, mövzu ətrafında kiçik məruzədən, oxucuların çıxışından və rəhbərin son sözündən ibarətdir. Konfransın müvəffəqiyyəti bir çox cəhətdən onun rəhbərindən, yəni mövzunu dərindən bilməsindən, giriş sözünu məharətlə qurmasından, tədbirin əhəmiyyətini müəyyən etməsindən, müzakirə edilən problemə həvəs oyatmasından, ən mühüm məsələlərin qoyulmasını təşkil etməsindən asılıdır. Son sözdə konfransın rəhbəri müzakirəyə yekun vurur.

Konfransın maraqlı keçirilməsi üçün ziyalıları işə cəlb etmək çox vacibdir. Əlbəttə, kitabxanaçı təşkil etdiyi hər bir tədbirdə özu də çıxış etməlidir. O, tədbirin mövzusu üzrə kitabxana tərəfindən həyata keçirilmiş məsələlərdən danışmalıdır. Oxucu konfransının gedişatı haqqında protokol yazılmalıdır ki, bu da bülleten buraxmaq üçün materialdan istifadə etməyə, kitabxana plakatı hazırlamağa, müəllifi oxucuların qeydləri ilə tanış etməyə imkan yaradır. Həmin protokol və məruzəçinin çıxışının mətni kitabxanada saxlanılmalıdır.

Kitab müəllifləri ilə keçirilən görüşlər də çox əhəmiyyətlidir. Görüş iki cəhətdən əhəmiyyət kəsb edir. Birincisi, görüş zamanı oxucu ilə yaradıcı-müəllif arasında canlı ünsiyyət yaranır və ikincisi, bu canlı ünsiyyət zamanı kitab haqqında yazılmamış, mətbuatda açıqlanmamış fikirlər üzə çıxır. Bu iki cəhət nəticəsində həm üzbəüz dialoq üçün şərait yaranır, həm müəllifin fikri ilə oxucu fikrinin qarşılıqlı uzlaşması baş verir, həm də natiqlik məharəti vasitəsilə mənəvi tərbiyə sahəsindəki bir çox məsələlərə aydınlıq gətirilir.



Görüşdə iştirak edəcək yaradıcı ziyalılar, mühazirəçilər, çıxışçılar həm də natiqlik məharətlərinə görə seçilməlidirlər. İştirakçıların diqqətini cəlb etmək, mənəviyyatımızın sirlərinə hərtərəfli bələd olmaqdan ötrü tarixi, mənəvi zənginliyimiz haqqında maraqlı məlumatları yüksək natiqlik məharəti ilə çatdırmaq, sözün qiymətini artırmaq, iştirakçılarda dərin təəssürat yaratmaq böyük əhəmiyyət kəsb edir.

Görüşlərin səmərəli və keyfiyyətli təşkilində müasir texniki vasitələrin gücündən, indiyə qədər çap olunmuş materiallardan bəhs edən lent yazılarından, audio-video materiallardan istifadə olunmalıdır. Təəssüratların uzun illər yaşamasında görüşlərdə iştirak edən maraqlı şəxsiyyətlərin çıxışları mühüm əhəmiyyət kəsb edir. Məktəblilər ideallaşdırdıqları, əlçatmaz bildikləri həmin şəxsiyyətlərlə üzbəüz təmasda olduqdan sonra özləri də bu zirvəni fəth etmək arzusunda olurlar, onlarda müsbət keyfiyyətlər formalaşır, inkişaf edir.Oxucuları yazıçı və şairlərin, müharibə

iştirakçılarının, deputatların və digər görkəmli şəxslərin həyat və yaradıcılığı ilə daha yaxından tanış etmək üçün keçiriləcək görüşlər qabaqcadan planlaşdırılmış şəkildə hazırlanmalıdır. Gecəni aparıcının giriş sözü ilə başlamaq olar. Aparıcı gecəyə dəvət olunanları tədbirin iştirakçıları ilə tanış edir, qısaca həyat və yaradıcılıqlarından danışır, sonra sözü onlara verir. Bundan sonra tədbir iştirakçıları suallar verir, bəzən isə təklif və rəylərlə çıxış edirlər. Bir çox hallarda görüşü keçirilən şair və yazıçının əsərlərinin mövzusunda klubun bədii özfəaliyyət üzvlərinin xüsusi konsert çıxışları təşkil edilir.

Sonda oxucular çıxış edə və görüşə çağırılmış şəxsə suallarla müraciət edə bilərlər.

Tədbirin sonunda kitabxanaçı oxucuların, eləcə də kitabxana işçilərinin adından görüşə gələn şəxsə təşəkkürünü bildirməlidir.

Digər bir kütləvi tədbir forması tematik gecələrdir. Mövzu müəyyən edildikdən sonra kitabxanaçı mövzu ilə yaxından tanış olmalı, sənədli materiallar, maraqlı faktlar əsasında tədbirin ssenarisini tərtib etməlidir. İştirakçıların yaş həddi nəzərə alınmalı, onların dünyagörüşünün formalaşmasına, ölkəmizin tarixi keçmişinə yaxından bələd olmasına, milli mənəvi dəyərlərimizə hörmət hisslərinin aşılanmasına diqqət yetirilməlidir.

Adətən, belə gecələr kiçik məruzə və mühazirə ilə başlayır. Gecə, tədbirdə iştirak edən ziyalı fəalların çıxışları ilə başa çatır. Tədbir keçirilən bina gecənin əsas mövzusunu əks etdirən xüsusi şüarlar, plakatlar, fotomontajlar ilə bəzədilir. Fotomontaj fotoşəklin lazımlı hissəsini kəsib başqa şəkillərlə əlaqələndirmək imkanı verir. Fotomontaj hər hansı şəklin ilk variantı ilə sonrakı variantı arasında müqayisə aparmağa imkan yaradır. Çox vaxt gecələr üçün sərgilər, kitab vitrinləri hazırlayır, məsləhət görülən ədəbiyyatın siyahısını asırlar.

**Tematik gecə** milli dəyərlərin təbliği mövzusunda təşkil edilmiş sənədli, elmi-kütləvi, bədii filmlərin göstərilməsi ilə və ya bədii özfəaliyyət dərnəklərinin konserti ilə başa çatır.

***Ədəbiyyatın təbliği geniş yayılmış ədəbi-bədii gecələr vasitəsilə də həyata keçirilir.*** Ədəbi-bədii gecələr tanınmış şair və yazıçılardan birinin yaradıcılığına, habelə bir və ya bir neçə ədəbi əsərə həsr oluna bilər. Bu tədbirlər böyük təhsil və tərbiyə əhəmiyyəti kəsb edir, bədii əsərə sevgi oyadır, bədii zövqü formalaşdırır, ciddi mütaliəyə maraq yaradır.



Keçiriləcək tədbirin kompozisiyasından asılı olaraq xüsusi proqram, ssenari tərtib edərək, teatrlaşdırılmış səhnəcik qurmaq olar.Gecəyə hazırlaşmaq yaradıcılıq qabiliyyəti tələb edir. Kitabxanaçı gecənin əvvəlindən sonuna kimi bütün elementləri (çıxış, rəy, qonaqlara söz vermə, musiqi nömrələrini) ssenaridə əks etdirir. Ssenari tərtib edilərkən seçilən şeir parçalarının, çıxışların, diktor replikalarının məzmununun iştirakçıların ideya-siyasi tərbiyəsinə müsbət təsiri diqqət mərkəzində saxlanmalıdır. İştirakçıların

yerləşdirilməsi, diktorların yeri, qonaqların qarşılanması, ədəbi-bədii gecə keçiriləcək zalın mövzuya uyğun bəzədilməsi, lazımi stend, sərgi, ədəbi bülleten və albomların hazırlanması əvvəlcədən planlaşdırılmalıdır. Gecədə müəllifin əsərlərinin tərcümələrindən də istifadə olunmalıdır.

Adından məlum olduğu kimi ədəbi-bədii gecə iki hissəyə bölünür. Hər bir ədəbi gecənin əsasını məruzə təşkil edir. İkinci hissə isə tədbirin mövzusu ilə bağlı şeir, bədii qiraət, ədəbi kompozisiya və səhnəciklərlə tamamlanır.

***Gecənin mövzusuna uyğun ədəbiyyat sərgisi, viktorina, ədəbi oyunlar hazırlana bilər.***



Yerləşdiyi ərazidəki məktəbdə rəssamlığa, memarlığa maraq göstərən şagirdlərin rəssamlıq, memarlıq qabilliyyətlərini aşkara çıxarmaq və maraqlarını təmin etmək üçün ədibin əsərlərinə çəkiləcək ən yaxşı illüstrasiyalar, hazırlanacaq maketlər üçün müsabiqə elan edilə bilər.

Müəllifin həyat və yaradıcılığına aid tərtib edilmiş maraqlı ədəbi viktorinanın da ssenariyə əlavə edilməsi məqsədəuyğun olardı. Sənətkarın dram əsəri varsa, kitabxanaçı şagirdlərin ifasında tamaşa üçün səhnəcik hazırlamalı, yazıçının belə bir əsəri yoxdursa, onun hekayə, povest, yaxud romanından bir parçanın səhnələşdirilməsini nəzərdə tutmalıdır. Gecələrin keçirilməsində proyektorlardan, dekorasiya, aktyor geyimləri, audiovizual materiallardan məharətlə istifadə edilməlidir.

***Ədəbi-bədii gecələr aşağıdakı estetik tələblərə cavab verməlidir:***



Musiqi və poeziyanın vəhdəti nümayiş etdirilməli;

Sənət əsərinin ifaçılarına, natiqlərin nitqinə, aparıcıların çıxışına yüksək tələbkarlıqla yanaşılmalı;

Poetik parçalar həm ideya-siyasi, həm də emosionallıq cəhətdən kamil olmalı;

Emosionallığı artırmaq üçün video görüntülərdən, dekorasiya, aktyor geyimlərindən istifadə edilməli;

Müəyyən mövzu ilə əlaqədar şagirdlər tərəfindən çəkilmiş illüstrasiyalar, portretlər, hazırlanmış maketlər, albomlar, stend və sərgi materialları yüksək zövq meyarı ilə qiymətləndirilməli və seçilməlidir.

Tədbirdən əvvəl elan hazırlanmalı, dəvətnamələr yazılmalıdır.

***Biblioqrafik icmallar da geniş yayılmış şifahi təbliğat üsullarından biridir.***




Məqsəd və vəzifələrinə görə biblioqrafik icmallar iki növdən: **elmi-köməkçi və tövsiyə icmalından** ibarətdir.**Elmi-köməkçi icmallar** əsasən mütəxəssis oxucular üçün təşkil edilir ki, burada da əsas məqsəd onları müvafiq sahəyə dair yeni ədəbiyyatla tanış etməkdir.

**Tövsiyə icmallarının** məqsədi isə geniş oxucu kütlələrinin diqqətini bu və ya digər sahəyə dair, xüsusən ictimai-siyasi məzmunlu, ədəbiyyat və incəsənət sahəsində yaranan yeni əsərlərə cəlb etməkdən ibarətdir.

Biblioqrafik icmal keçirməkdə məqsəd oxucuları müvafiq bədii ədəbiyyatla tanış etmək və həmin kitabları təbliğ etməkdir. İstər elmi-köməkçi və istərsə də tövsiyə icmalları universal, sahəvi, mövzu və şəxsi (personal) xarakter daşıya bilərlər.

Universal və sahəvi icmallar əksər hallarda kitabxanaya yeni daxil olmuş bir qrup kitaba həsr edilir. Belə icmallar vaxtaşırı olaraq qiraət zalında təşkil edilir və kitabxana işçisi 25-30 dəqiqə ərzində 15-25 adda kitab haqqında danışa bilər.

Şəxsi icmallar bir qayda olaraq hər hansı bir şəxsə (şair, yazıçı, ictimai xadim, müəyyən bir sahənin mütəxəssisi) həsr olunur, onun əsərlərini, həyat və yaradıcılığına aid əsərləri əhatə edir. Kütləvi kitabxanalarda biblioqrafik icmalı yeni alınan bədii kitabların sərgisi, oxucu konfransı, görüşlər və başqa tədbirlərlə bir vaxtda keçirmək məqsədəuyğundur, çünki icmal hər hansı bir tədbiri tamamlayır. Təcrübə göstərir ki, kitab sərgisi ətrafında keçirilən icmallar daha maraqlı olur və daha çox oxucu toplayır. Həm də bu zaman oxucu kitabı görməklə yanaşı, onun qısa məzmunu ilə də tanış olur. İcmal keçirilərkən oxucu qrupu, mövzunun aktuallığı mütləq nəzərə alınmalıdır. Kitabların icmalında müəyyən ardıcıllıq gözlənilməlidir. Yeni kitabların icmalı çox kitabı əhatə etdikdə onları ümumi mövzular üzrə qruplaşdırıb qısa annotasiya ilə kifayətlənmək olar. İcmal zamanı bədii kitab haqqında geniş danışmaq məsləhət deyil. Barəsində söhbət açılan kitablardan elə detallar və ya faktlar seçilməlidir ki, hər bir oxucu tezliklə həmin kitabı oxumağa tələssin.

Mövzu icmallarında hər hansı bir problem və ya aktual məsələyə həsr edilmiş ədəbiyyat barədə danışılır. Mövzu icmallarında müvafiq məsələ ilə əlaqədar son illərdə nəşr olunmuş müxtəlif tipli kitablar (elmi-kütləvi ədəbiyyat, dərs vəsaitləri və s.) seçilir.

**Məsələn:Uşaq kitabxanalarında mövzu icmallarında "Oxucu və kitabxana" mövzusunda rəy sorgusu təşkil edilir.**

1. İnformasiyanı daha çox hardan əldə etmək sizin üçün rahatdır?
   a) kitabxanadan-
   b) məktəbdən-
   c) internetdən-
   d) televiziyadan-

2. Mütaliə deyəndə nə başa düşürsünüz?
   a) müəllim tapşırıqları əsasında dərs materiallarını oxumaq-
   b) öz dünyagörüşünü artırmaq məqsədilə ədəbiyyat oxumaq-
   c) nitq inkişafini artırmaq məqsədilə ədəbiyyat oxumaq-
   d) kitab oxumağa vərdiş etmək-

3. Müasir kitabxana nə deməkdir?
   a) istirahət yeri-
   b) qiraət evi-
   c) məktəb proqramı ilə bağlı dərs tapşırıqlarını yerinə yetirmək üçün müəssisə-
   d) internet zal-

4. Ən çox müraciət etdiyiniz sorğu?
   a) tarixi mövzularla bağlı-
   b) bədii ədəbiyyat-
   c) elmi ədəbiyyat-
   d) incəsənətlə əlaqədar mövzular

5. Sənin marağın daha çox nəyədir?
   a) mütaliəyə-
   b) internetə-
   c) tədbirlərə-
   d) heç nəyə-

6. İnformasiyanı daha çox hansı mənbədən alırsınız?
   a) CD, DVD disklərdən
   b) Kitabdan-
   c) audio, video kasetlərdən
   d) internetdən-

7. İnformasiya texnologiyasına münasibətiniz?
   a) yaxşı-
   b) pis-
   c) bilmirəm-
   d)istirahət yeri
   e) qiraət evi
   f) məktəb proqramı ilə bağlı dərs tapşırıqlarını yerinə yetirmək üçün müəssisə
   g) internet zal

4. Ən çox müraciət etdiyiniz sorğu?
   a) tarixi mövzularla bağlı
   b) bədii ədəbiyyat
   c) elmi ədəbiyyat
   d) incəsənətlə əlaqədar mövzular

5. Sənin marağın daha çox nəyədir?

e) mütaliəyə
f) internetə
g) tədbirlərə
h) heç nəyə

6. İnformasiyanı daha çox hansı mənbədən alırsınız?

e) CD, DVD disklərdən
f) kitabdan
g) audio, video kasetlərdən
h) internetdən

7. İnformasiya texnologiyasına münasibətiniz?

d) yaxşı
e) pis
f) bilmirəm

Mövzu icmalı keçirilərkən hər kitaba geniş xarakteristika verilməlidir. Ona görə də nəzərdən keçirmək üçün icmala yalnız mövzu ilə bilavasitə əlaqəsi olan bir neçə kitab daxil edilməlidir. İcmalın əvvəlində mövzunun adı, sonra məqsədi qeyd edilməlidir. Bu prosesdə təkcə biblioqrafik təsvir və müəllif haqqında məlumat deyil, həm də kitabın məzmunu, onun keyfiyyətləri və nöqsanlarından da yığcam danışılmalıdır. Mövzu icmallarının ətraflı planını, mətnini işçilər və kitabxana işinə cəlb edilmiş fəallarla əvvəlcədən müzakirə etmək məqsədəuyğun olardı.

Şifahi təbliğatın təsirli formalarından biri də "Sual-cavab gecələri"dir. Müəyyən aktual mövzulara dair məsələləri izah etməkdə sual-cavab gecələrinin rolu əvəzsizdir. Sual-cavab gecəsinin mahiyyətini və əhəmiyyətini açmaqdan ötrü əsas mənbə hesab olunan kitablar seçilməlidir. Qoyulan sualların əhatəli şəkildə işıqlandırılmasını təmin etmək üçün müxtəlif sahələr üzrə mütəxəssislər cəlb olunmalıdır. Sualların qabaqcadan toplanması, tədbir zamanı yeni sualların da ortaya çıxmasını istisna etmir. Hazırlıq prosesi bitdikdən sonra sual-cavab gecəsinin keçiriləcəyi yer və vaxt göstərilən elan hazırlanır. Sual-cavab gecəsi ona yekun vurulması ilə bitir. Cavabların gecədə iştirak edənləri nə dərəcədə qane etdiyini, gələn sual-cavab gecəsini hansı mövzuya həsr etmək lazım gəldiyini öyrənməklə tədbiri yekunlaşdırmaq olar. Verilən suallara daha məzmunlu cavab vermək üçün sual-cavab gecələrində əyani, illüstrasiya materiallarından istifadə etmək, bu məsələlərin geniş izahı verilmiş ədəbiyyatı dinləyicilərə tövsiyə etmək çox faydalıdır.

***Ədəbiyyatı təbliğ etmək üçün "Disput"un keçirilməsi də məqsədəuyğundur.***



Disputun hazırlanması və keçirilməsi prosesində disputun auditoriyasını, kimin üçün hazırlandığını müəyyən etmək lazımdır. Disputun müvəffəqiyyəti onun möv-zusundan asılıdır. Dəqiq, aydın, konkret ad böyük təşkiledici əhəmiyyətə malikdir. Mövzunun adı mübahisə və onda iştirak etmək həvəsi doğurmalıdır. Disputun maraqlı keçməsi üçün böyük hazırlıq işi aparılmalıdır. Disputun aparıcısı mövzunu dərindən bilməli, məsələni kəskin və maraqlı qoymağı bacar-malıdır. Mövzu ətrafında 4-6 sualla kifayətlənmək olar. Suallar mövzunun əsas məsələlərini əhatə etməli, məntiqi ardıcıllıqla düzülməlidir ki, müzakirə də həmin ardıcıllıqla getsin. Disputun suallarını müəyyən etmək aparıcının (kitabxanaçının) vəzifəsidir. Hazırlıq işi mövzunun və onun suallarının müəyyən edilməsi ilə bitmir. Kitabxanaçı disputa hazırlaşmaqda, onda fəal iştirak etməkdə çıxış edənlərə kömək göstərməlidir. Hazırlıq prosesində təkcə disputun təşkilatçılarının çıxışlarını deyil, başqa çıxış edənləri də hazırlamaq lazımdır. Təşkilati məsələləri həll etdikdən sonra aparıcı giriş sözü söyləməlidir. Bu zaman müzakirəyə verilmiş mövzunun əhəmiyyəti, əsas suallar, müzakirənin ümumi istiqaməti göstərilməlidir. Giriş sözündə müzakirə edilən problem haqqında ziddiyyətli fikirlər olduğunu söyləmək, oxucuları mövzu və qoyulan suallar ətrafında çıxış etməyə, öz münasibətlərini bildirməyə çağırmaq lazımdır. Aparıcı son sözü ilə disputu yekunlaşdırır.




***Dəyirmi masa*** - Kitabxanada rayonların mədəniyyət şöbələrindən, müxtəlif təşkilatlardan dəvət edilmiş qonaqların iştirakı ilə dəyirmi masalar keçirmək olar. Bu cür tədbirlərdə Azərbaycan xalqının mədəniyyəti, incəsənəti, folkloru, unudulmuş milli adət-ənənələrimizin təbliği, ailə və cəmiyyət münasibətləri, vətən, torpaq sevgisi, dilimizin şirinliyi və s. Bu kimi mövzular müzakirə oluna bilər. Eyni zamanda kitabxana işi sahəsində kitabxanaçıları ən çox narahat edən məsələlərlə, problemlərlə bağlı mütəxəssislərin iştirakı ilə dəyirmi masalar təşkil edilir. Anım (xatirə) günlərində kitabxanada yığıncaq təşkil edilir, söhbətlər aparılır. Tədbirlə əlaqədar əvvəlcədən hazırlıq işləri görülür. Bu məqsədlə (anım gününün mövzusuna uyğun olaraq) şəhidlərin xatirəsinə fotostendlər, sərgilər və divar qə-zetinin xüsusi nömrəsi hazırlanır, sənədli filmlər göstərilir, uşaqların əl işlərindən ibarət sərgi düzəldilir.

Həmin gün şəhidlərin qəbri ziyarət edilir, ədəbi kompozisiyalar, video görüntülər nümayiş etdirilir. Uşaqların ifasında Vətən məhəbbətini, qəhrəmanlığı tərənnüm edən şeirlər söylənir. Tədbirə şəhidlərin ailə üzvlərindən, yaxınlarından, döyüş yoldaşlarından bir neçə nəfərin dəvət olunması, xatirələrinin dinlənilməsi daha məqsədəuyğun olardı.

***Divar qəzetləri*** adı, məzmunu, tərtibatı, buraxılış müddəti və materiallarının janrlarına görə müxtəlifdir. Divar qəzetlərinin əsas növləri operativ qəzet, çoxnüsxəli divar qəzeti, tematik buraxılışlar, işıq qəzetləri, bülletenlər və başqalarıdır.




Operativ divar qəzeti çoxmövzulu xarakterdə olur. Onun ayrı-ayrı nömrələri bir konkret mövzuya, tarixi günlərə həsr edilir.

Divar qəzetlərinin redaksiya heyətləri tez-tez bülletenlər buraxır. Bunlar geniş auditoriya üçün maraqlı olan mühüm hadisələr haqqında qısa xəbərdən ibarət olur. Bülletenlər o zaman buraxılır ki, divar qəzetinin növbəti nömrəsini gözləmədən ictimaiyyətin diqqətini ölkənin həyatında və dünyada baş verən mühüm hadisələrə təcili olaraq cəlb etmək zərurəti yaranır. Bir qayda olaraq bülleten konkret bir məsələyə həsr edilir.

Divar qəzetlərinin nəinki növləri, həm də orada dərc edilən materialların janrları da müxtəlifdir. Burada kiçik məqalə, ocerk, mətbuat icmalı, resenziya, təbliğat məqaləsi verilə bilər. Bu janrların hər birinin konkret vəzifəsi və xüsusiyyəti vardır. Onlar bir-birindən süjet və üslub əlamətlərinə görə fərqlənir. Divar qəzetinin tərtibatı məzmunu ilə müəyyən edilir və onu oxucuya daha yaxşı çatdırmağa kömək edir. Şəkillər də böyük və əhəmiyyətli rol oynayır. Onlar təbliğatın təsirli vasitəsi olub qəzeti bəzəyir və daha canlı edir. Öz inandırıcılığı və təsir gücü etibarı ilə şəkillər bir çox hallarda qəzet materiallarının başqa növlərindən üstün olur. Qəzetin bədii tərtibatı bəzək xarakteri daşımayıb, məzmunu açmaq üçün mühüm ünsür əhəmiyyəti daşıyır.



"Yeni daxil olmuş ədəbiyyatın məlumat bülleteni" kitabxananın fonduna daxil olan yeni nəşrlər haqqında məlumat mənbəyidir. Bülletenə müəyyən dövr ərzində kitabxanaya daxil olan bütün yeni kitabların təsviri daxil edilir. "Müqəddimə"də bülletenin quruluş prinsipi, işlədilmiş şərti işarələr və ixtisar edilmiş sözlər izah edilir, materiallar sahəvi bölmələrə ayrılmaqla sistemli qaydada, bölmələr daxilində isə müəlliflərin (sərlövhənin) əlifbasına görə düzülür. Əgər sərlövhəyə görə nəşrin məzmununu təyin etmək çətindirsə, onda təsvirdən sonra qısa annotasiya verilir. Təsvirin sol tərəfində kitabın şifrəsi, sağ tərəfində isə MKS-nin bölməsinin adı göstərilir.

Bülleten ayda bir dəfə buraxıla bilər. İlin axırında bülletenin buraxılışları bir yerdə cildlənir, köməkçi soraq ədəbiyyatı-əlifba mövzu göstəricisi, buraxılışlara daxil olan müəlliflərin və kitabların adlarının əlifba siyahısı tərtib edilir.

Bülleten oxucular tərəfindən operativ istifadə olunmaq üçün sistemin bütün bölmələrinə, həmçinin xidmət ərazisində yerləşən idarələrə və müəssisələrə göndərilir.

***Kiçik yaşlı oxuculara yaradıcılıq imkanları aşılayan kütləvi tədbirlərdən biri də səhərciklərdir.***



Ədəbi səhərciklər adətən tematik olur. Onlar əlamətdar yubileylərə və tarixi günlərə, müxtəlif ədəbi simaların yaradıcılığına həsr oluna bilər.

Səhərciklərin hazırlanması və keçirilməsində çoxlu oxucu kütləsi iştirak edir, hazırlıq dövründə onlar öz mütaliə mədəniyyətlərini yüksəldir. Hətta mütaliə həvəsi olmayan şagirdlər də işə cəlb olunurlar. Məsələn, S.Vurğunun həyat və yaradıcılığına həsr olunmuş səhərcikdə kiçik məktəblilər üçün şeir parçası seçilir. Ədibin həyat və yaradıcılığına həsr olunmuş sərgi tərtib olunur.



Belə tədbirlərin təşkili şagirdlər arasında kitabı təbliğ etmək, proqram materialını hərtərəfli zənginləşdirmək, möhkəmləndirmək, şagirdlərə yeni bilik, bacarıq və vərdişlər aşılamaq məqsədi daşıyır.

Səhərciklərin səmərəliliyi onun hazırlığından asılıdır. Mövzu müəyyənləşdikdən sonra səhərciyə hazırlıq ən azı 20-30 gün çəkir ki, geniş oxucu kütləsi məlumatlı olur və müəyyən işlər (kitab sərgiləri, plakatlar, rəsmlər, albomlar, bülletenlər və divar qəzetləri, annotasiya və rəylər) görülür.

Bu məqsədə nail olmaq üçün qabaqcıl kitabxanalarda bir ay qabaq elan verilir, iş bölgüsü aparılır. Məsələn, aşağıdakı məzmunda elan yazılır:



Uşaqların nəzərinə!

Aprel ayının 20 - də axırında Xanımana Əlibəylinin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar olaraq onun yaradıcılığına dair səhərcik keçiriləcəkdir. Kitabxanada bu barədə geniş yaradıcılıq işləri aparılır. Səhərciyə hazırlaşmağa tələsin! Səhərcikdə çıxış etmək istəyənlər kitabxana ilə əlaqə saxlasınlar.

Kitabxanaçı həvəskar oxucularla iş bölgüsü – deklamasiyalar, şeirlər, musiqi nömrələri və s. təşkil edir. Səhərcik keçirilən zaman rəsmlər, rəylər, annostasiyalar və şagirdlərin digər əl işlərindən ibarət sərginin tərtib olunması yaxşı olardı.

Kiçik məktəblilər üçün təşkil olunan bu tədbirlərin proqramı böyük olmamalı, bir saatlıq vaxt üçün nəzərdə tutulmalıdır. Proqramın rəngarəng olması - bədii qiraət və deklamasiyalar (latınca – declamatio - gözəl danışmağa nail olmaq, şeir və ya nəsr əsərlərini bədii söyləmə məharəti), nağıl etmələr, diafilm nümayiş etdirmək və s. şagirdlərin diqqətinin mərkəzləşməsinə və davamlılığına kömək edir.

***Səhərciyin proqramı mövzudan asılı olaraq müxtəlif cür qurula bilər*.**



Adətən onun proqramı aşağıdakı quruluşa malik olur:

1.Giriş sözü;

2.Bədii hissə;

3.Ədəbi oyunlar və viktorinalar.

IX-XI sinif sagirdlərinin söylədiyi giriş sözü 5-6 dəqiqədən artıq vaxt aparmamalıdır. Giriş sözündə səhərciyin mövzusu və tədbir iştirakçıları haqqında məlumat öz əksini tapır.

Bədii hissədə şagirdlər fəal iştirak edir, onlar şeirlər deyir, səhnələşdirilmiş təmsil tamaşası göstərir, hekayələr oxuyurlar. Səhərciklərə valideynlər, müəllimlər və başqa şəxslərin dəvət olunması şagirdlərin məsuliyyətini və fəallığını artırır. Görüşlər şagirdlər üçün əsl mədəniyyət, kitab, mütaliə bayramına çevrilir. Səhərciklərin səmərəliliyini artırmaq, geniş oxucu cəlb etmək üçün oraya ədəbi oyunların cəlb edilməsinin didaktik və tərbiyəvi rolu böyükdür. Belə oyunlar tədbiri canlandırır və gənc oxucuları düşündürür, məşğul edir və bu yolla da daha çox kitab mütaliə etməyə, daha çox atalar sözü, tapmacalar, bayatılar, qosmalar və s. öyrənib onları belə mərasimlərdə nümayiş etdirməyə həvəs oyadır. Təcrübə göstərir ki, kiçik yaşlı şagirdlər rəngarəng bədii oyunlarda ciddi fəallıq göstərirlər.



Oyunlar rəngarəng ola bilər.

Bəzi nümunələr qeyd edək:

1) “Müəllif kimdir?” Bir sıra sagirdlərə məşhur kitablardan parçalar yazılmış kartoçkalar paylanır. Hər kəs öz növbəsində kartoçkanı oxuyur və parçanın hansı əsərlərdən götürüldüyünü tapırlar.

2) Bədii qəhrəmanların fotoşəkilləri üzərində müsahibə aparılır. Ya qəhrəman təsvir edilir, ya da onun haqqında əsərdən parçalar oxunur. Şagirdlər qəhrəmanları tapıb haqqında bildiklərini danışırlar.

3) Bu sözləri kim demişdir? (Əsərlərdən parçalar və ya monoloqlar oxunur).

4) Hər hansı bir müəllifin əsər və qəhrəmanlarını kim sadalayar?

5) Davamını sən de. Dialoq üzrə hər hansı bir şeir və deyişmələrin, hekayə və nağılların ifadə olunması və ardının oxucu tərəfindən davam etdirilməsidir.

6) Verilmiş hikmətli sözlərin, aforizmlərin müəllifi kimdir?

7) Kartoqram - hər hansı bir şeirdən bir və ya bir neçə beyt yazılır. Şeirin buraxılmış (əvvəli və ya axırı) beytləri iştirakçılar tərəfindən tamamlanır. İlk növbədə şeir başlığı (adı) kimə düşmüşdürsə o, oxuyur. O səxs oyundan çıxır ki, şeirin buraxılmış beytlərini deyə bilmir.

8) İmprovizasiya. Oyunun rəhbəri müəyyən edilmiş mövzu ilə əlaqədar hekayə və şeir söyləməyə başlayır. Hər növbəti oyunçu onu davam etdirir.

Orta yaşlı şagirdlər üçün ədəbi oyunlar müxtəlif mövzulara aid böyük tədbirlərin keçirilməsində daha çox istifadə olunur: Kitablar aləminə səyahət, doğma ölkəmizə səyahət və s. Belə oyunların keçirilməsi üçün geniş hazırlıq aparılır, əsərlərin

siyahısı verilir, onun keçirilmə vaxtı elan edilir, məqsədi və vəzifəsi haqqında qısa söhbət keçirilir ki, bu da şagirdlərin oyuna ciddi hazırlaşmasına səbəb olur.

***Ədəbi oyunların geniş və mürəkkəb forması viktorinalardır.***

Viktorinalarda şagirdlərdən süurlu, diqqətli və səriştəli mütaliə tələb edən müxtəlif rəngarəng suallar, tapmacalar verilir. Əksər məktəblərdə xüsusi lövhələr və sual-cavab qutuları (orada suallar yazılır, cavabları qutuya salınır) təşkil edilir. Cavabların qutuya salınma vaxtı və müzakirə vaxtı qeyd edilir. Viktorinaların sualları ayrı-ayrı yaş dərəcələri üzrə tərtib edilir. Şagirdlər arasında viktorinaların keçirilməsi pedaqoji kollektivlə sıx əlaqə şəraitində keçirilir. Pedaqoji kollektiv tədbirdə istirak edərək şagirdlər arasında tədrisin keyfiyyətinə kömək edən işlərin səviyyəsini, şagirdlərin maraqlarını, tədris prosesində meydana çıxan nöqsanları və s. öyrənir.

Məsələn: Yuxarı sinif şagirdləri üçün daha fərqli düşünülmüş oyunlar tətbiq etmək lazımdır. On-on birinci sinif şagirdləri arasında intellektual yarışlar keçirmək olar. Bu kimi oyunlar oynayan uşaqlarda daha çox öyrənmək və bilmək rəqabəti onları mütaliə etməyə sövq edə bilər. Bundan başqa uşaqlar üçün müxtəlif fənnlər üzrə bilik yarışmaları da təşkil etmək mümkündür. Bununla da şagirdlər müxtəlif fənnlərlə əlaqədar olan kitablarla maraqlanır, onları əldə etməyə çalışırlar. Intellektual oyunlar zamanı iştirakçılara verəcəyiniz sualları sizə təqdim edirik.

**1.** Seneqalda Dakar, İranda Təbriz, İraqda Bəsrə, Bosniya və Hersoqovinada Sarayevo, Türkiyədə İzmir, bəs İtaliyada?
**Cavab.** Neapol Bakı ilə qardaşlaşmış şəhərdir.
**2.** O, bir çox ölkələrdə müvəqqəti olaraq məhdudlaşdırılmışdı. Lakin çox vaxt bu az davam edirdi. Hazırda isə Çinin materik hissəsində, İran, Liviya, Tunis ,Türkiyə və Türkmənistanda məhdudlaşdırılıb. Kayzendə ondan çox istifadə edilir. Söhbət nədən gedir?
**Cavab:** Youtube.
**3.** "***Gəlin qayası***" Şərqdə ilk ....
**Cavab.** müəllifi qadın olan ilk operadır. Müəllifi isə Şəfiqə Axundova.
**4.** O ilk dəfə e.ə. 45-ci ildə Yuli Sezarın sayəsində peyda oldu. Sonralar isə o hər dörd ildən bir peyda olurdu. Biz onu 1600-cü və 2000-ci illərdə də görmüşdük, lakin 1800-cü və 1900-cü illərdə onu görən olmamışdı. Siz isə onun son dəfə nə zaman gözə dəydiyini tapın.
**Cavab:** 2008-ci ildə (o 29 fevraldır.)
**5.** “Kişilər şəhəri” və “kişilər birliyi” hansı şəhəri təmsil edir?
**Cavab.** Mançester. Man United və Man City Manchester şəhərinin komandalarıdır.
**6.** Cənub qütbündə neçə ölkənin sərhədi var:
**Cavab:** heç bir ölkənin
**7.** Rusiyada Novqorod (Новгород) , İtaliyada ...
**Cavab:** Neapol
**8.** 1968-ci ildə İsveçin Dövlət Bankı bu mükafatı təsis etdi?
**Cavab:** İqtisadiyyat üzrə Nobel mükafatı və s.

***Əyani təbliğatın formaları***

Sözün lazımi fikri nə qədər aydın ifadə edilməsinə baxmayaraq, ona əyanilik də lazımdır. Əyani təbliğat tövsiyə olunan kitabların bilavasitə göstərilməsi və ya görmək, qavramaq, mənimsəmək şəklində onların məzmununun meydana çıxarılması vasitəsilə həyata keçirilir. Onun məqsədi insanları mütaliəyə cəlb etmək, onlarda mütaliə mədəniyyəti formalaşdırmaq və kitab fondlarını oxucular qarşısında açmaqdır. Oxucularda kitabın məzmunu və xarakteri haqqında iki üsulla təsəvvür yaratmaq mümkündür:

Ədəbiyyatın bilavasitə göstərilməsi – bu üsul müxtəlif kitab sərgilərinin təşkili vasitəsilə həyata keçirilir.

Kitabların təsviri incəsənət vasitələri ilə təbliği – bu üsula, əsasən albomlar, plakatlar, sxemlər, cədvəllər, dioqramlar, xəritə, xəritə-sxem, kartoqram, kartodioqram, sitatlar, izahlı mətnlər, şəkillər, müxtəlif vitrinlər, çağırışlar, sərgilər və b. aiddir.

Əyani təbliğat formasının bütün üsullarının ümumi məziyyətləri onların təsirinin və seçilməsinin uzunmüddətli olmasındadır.

Əyani təbliğat prosesində məsləhət vitrinlərindən də istifadə olunur. "Soruşun, cavab verək", (müxtəlif mövzular üzrə), "Öz şəhərini tanıyırsanmı?", "Öz tarixini bilirsənmi?" və bir çox başqa adlarda vitrinlər hazırlamaq olar. Belə vitrinlərə əsas tələbat - maksimum dərəcədə əyanilik və operativlikdir. Vitrinlər təşkil edərkən mövzuya uyğun olaraq kitab, qəzet, jurnal materiallarından, tanışlıq və təbliğat xarakterli foto şəkillərdən, məlumat vərəqələrindən, audio və video materiallardan istifadə etmək məqsədə müvafiqdir.

***Kitabxanalarda sərgilərin təşkili əyani təbliğat formasının ən geniş yayılmış üsuludur.*** Hər gün dünyada yüzlərlə kitab çap olunur. Bir neçə vaxtdan sonra onlardan hansısa unudulur. Bu səbəbdən də kitabxanaların, mətbu evlərinin vəzifəsidir ki, ara-sıra sərgilər təşkil etsinlər. F.Köçərli adına Respublika Uşaq Kitabxanası da bu işdə heç kimdən geri qalmır. Daimi oxucular bilirlər ki, aprelin 2-ni, Beynəlxalq Uşaq Kitabı Gününü, Kitab festivalı və Milli Uşaq Kitabı sərgisi ilə qeyd etmək bizim kitab evi üçün artıq ənənə halını alıb. Kitabxanamız bu neçə illər ərzində çoxlu sayda sərgilər təşkil edərək gələcəyimiz olan uşaqları bu sahədə maarifləndirmişdir. İndi biz sizə həm yeni, həm də məlumatlandırma məqsədilə mövzuya uyğun sərgilənən köhnə kitablardan danışaq.




Kiçik yaşlılar üçün "Güvəncin nağılları", "Nağıllar aləmində", "Kitablarda mən hələ baxıram şəkillərə" bölmələrində həm azərbaycan, həm də digər dünya xalqlarının nağıllarının yer aldığı kitablar sərgilər, Xarici dillərə həvəsi olan



uşaqlar üçün kitabxanaya müxtəlif dillərdə olan uşaq kitablar, Hələ oxuyub-yazmağı bilməyənlər üçünsə disklərlə zəngin olan kitablar. “Qızılquş”, “Tülkü və dolça”, “Kobud ayı”, “Turpun nağılı”, “Iki tənbəl” və s.

Sərgidə iştirak edən bir neçə nəşriyyat evlərinə də ayrıca stendbr ayırmaq olar. «Altun» nəşriyyatının diqqətin inkişafma yönəldilmiş testbrini, riyaziyyatdan çalışma məsələlərini, «Təhsil» nəşriyyatmın «Məktəb kitabxanası» seriyasını və «Beşik» nəşriyyatınm nağıl kitablarını xüsusi qeyd etmək istəyirəm.

Uşaq yazarlarlarının sərgidə aktiv iştirakı bütün yazıçı və şairlərə örnək ola bilər.




Sevinc Nuruqızı, Gülzar İbrahimova, Rafıq Yusifoğlu, Yayım Assosiasiyasının əməkdaşları deyirlər ki, belə tədbirlərdə iştirakları həm onların özləri, həm də oxucuları üçün faydalıdır. Uşaqlar istədikləri sualı onlara yönəldib, cavablarını yerindəcə ala, müəlliflər isə balaca oxucularını maraqlandıran məsələləri öyrənə bilirlər. Sərgilər həcminə, tərtibat texnikasına və müddətinə görə bir-birindən fərqləndirilir. Sərgi bir və ya bir neçə lövhədə, stenddə yerləşə bilər. Sərgi, əsasən baxılmaq üçün təşkil olunduğundan, onun tərtibi məsələlərinin böyük əhəmiyyəti vardır. Burada mətn və təsvir materialları bir-birini tamamlamalıdır. Kitabxanaların müasir sərgi fəaliyyətində aparıcı tendensiyalar kitabxana sərgisinə alternativ yanaşma və dizayn işinin işlənib hazırlanmasıdır.

***Hazırda uşaq kitabxanaları üçün sərgiləri aşağıdakı növlərə görə qurmaq olar:***




- ənənəvi informasiya daşıyıcıları olan kitabxana sərgiləri (dərc edilmiş nəşrlər);
- elektron kitabxana sərgiləri (kitabxanaların veb saytında verilən müxtəlif formalardan istifadə etməklə kataloq şəklində informasiyalar);

ən son nəşr olunan uşaq kitabları (nağıllar, dastanlar, fəsillər, rəsmlər, səsli nağıllar, dizaynına görə seçilən kitablar və s.

- kompleks kitabxana sərgiləri, müxtəlif xüsusiyyətli fonoqramların köməyi ilə tərtib olunmuş “danışan” kitab sərgiləri, video filmlər təqdim etməklə sərgilər, baxışlar, elektron sərgi günləri, uşaq hüquqlarından bəhs edən sərgilər, və s.

Həmçinin müasir şəraitdə informasiyaların təbliğində yeni forma və metodlara tələbatın olması məsələsi də ortaya çıxır (məs. kitabxanaların şəhər və regional sərgi və yarmarkalarda iştirakı, elektron layihələrin işlənməsi və reallaşdırılması və s.)

***<u>Hər bir uşaq  kitabxanası öz sərgi modelini fəaliyyətinə və vəzifəsinə uyğun olaraq qurur.</u>***



Sərgi fəaliyyəti modelinin seçilməsinə bir çox faktorlar (əhalinin tərkibi, kitab fondunun keyfiyyəti) təsir göstərir. Məsələn, oxucuların informasiya tələbatı, həmçinin kitabxana əməkdaşlarının bilik səviyyəsi və yaradıcılıq potensialı. Qeyd edək ki, kitabxanalarda təşkil edilən sərgilərdə kitablarla yanaşı, müxtəlif qəzet və jurnal nömrələri əks etdirilir ki, bu da həmin sərginin əhəmiyyətini xeyli artırır. Kitabxanalarda məqsəd və ümumi məzmununa görə ənənəvi sərginin iki növü təşkil edilir.

a) kitabxanaya yeni daxil olan kitablar haqqında məlumat xarakterli universal sərgilər;

b) tövsiyə xarakterli tematik sərgilər.

Kitab sərgiləri yalnız burada nümayiş etdirilən kitabların məzmununa görə deyil, eyni zamanda məqsədinə görə – tədris prosesinə və şəxsi təhsilə kömək məqsədi daşıyan sərgilər; müddətinə görə – daimi, uzun müddətli və müvəqqəti sərgilər; ədəbiyyatın nəşr tipinə və növünə görə – kitab sərgiləri, qəzet və jurnal sərgiləri, not sərgiləri, patent sərgisi və s. təşkil edilə bilər.

Kitab sərgisi üzərində iş metodikası mövzunun müəyyən edilməsi və öyrənilməsi, planın tərtibi, materialın seçilməsi və tərtibatından ibarətdir.

Hər hansı bir kitab sərgisi aşağıdakı qaydada tərtib edilir: Sərginin ümumi başlığı və yarımbaşlıq, tövsiyə olunan ədəbiyyat, sitat (mövzu haqqında izahlı mətnlər) və şəkil (foto illüstrasiyalar).



Ümumi başlıq sərginin mövzusunu müəyyən edir və onun əsas məzmununu aydınlaşdırır. Sərginin sərlövhəsi müəyyənləşdirildikdən sonra burada əks etdirilməsi lazım gələn məsələləri dəqiqləşdirmək lazımdır. Həmin məsələlər sərgi-də bölmə və yarımbölmələr şəklində verilməlidir. Bölmələrin və yarımbölmələrin sərlövhələri dəqiq seçilməli, bölmənin məzmunu aydın əks etdirilməlidir. Sərginin daxili bölmələrinin məzmunu və ardıcıllıq mövzunun xarakterindən asılıdır. Sərgidə materialların yerləşdirilməsi müxtəlif prinsiplərə əsaslana bilər: tematik, xronoloji, coğrafi və materialların mürəkkəbliyi dərəcəsi prinsipi. Bu ma-terialların sərgidə yerləşdirilməsi daxili məntiqə əsaslanmalıdır. Hər şeydən əvvəl kitabxanaçı ədəbiyyatın düzülüşündə iki cəhəti nəzərə almalıdır:



a) çap əsərlərinin əhəmiyyətini və elmi dəyərini;
b) sərgidə mövzunun ayrı-ayrı məsələlərinin əks etdirilməsi ardıcılığını.
Kitab sərgilərinin tərtibatında həm də simmetriya gözlənilməlidir. Eyni zamanda sərgidə çap əsərlərinin, şəkillərin və lazımi mətnlərin yerləşdirilməsində müəyyən məna ifadə olunmalıdır.
Sərgidə materialların düzülüşündə simmetriyadan danışılarkən qeyd olunmalıdır ki, burada nümayış etdirilən kitabların ölçüsü, onların cildlərinin rəngi, şəkillərin



məzmunu, qarşılıqlı münasibəti və s. nəzərə alınmalıdır. Çünki kütləvi təbliğat məqsədilə nümayiş etdirilən hər hansı əşya və predmet təkcə zahiri parlaqlığı ilə deyil, eyni zamanda özünün simmmetriyası, məna ifadə etməsi və estetik təsiri ilə diqqəti cəlb edir. Ona görə də sərgidə eyni rəngli, eyni ölçülü kitabların, həmçinin oxşar məzmunlu və eyni ölçülü şəkillərin yanaşı düzülməsi məqsədəuyğun deyildir. Əlbəttə, burada ölçünün və rənglərin nümayiş etdirilməsi nəzərdə tutulmur.

***<u>Nümunə üçün sərgi</u>***

Başlıq: Azərbaycan –doğma diyar
Sitat: Bizim hamımızın bir vətəni var: Bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır.
**Heydər Əliyev, ümummilli lider**
Sərgidə Azərbaycan xəritəsi və münasib bir şəkil yerləşdirmək olar.
Həmçinin xarici ölkələrin uşaq kitablarının sərgisi.
Və yaxud 20  yanvardan bəhs edən rəsm sərgisi.Həmçinin 20 yanvardan bəhs edən şəkillərdən hazırlanmış sərgi. Belə sərgilərin təşkili Azərbaycanın gələcəyi olan körpələrimizdə vətənpərvərlik hissini daha da artırar.






II Bölmə: Ana yurdum Azərbaycan
Sitat: Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrin məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir.
**Ümummilli lider Heydər Əliyev**

İzahlı mətn: Bunları unutmaq olmaz!
1813-1828-ci illərə qədər Azərbaycan dövlətinin sahəsi təxminən 410 min kv km olmuşdur.
1813-1828-ci illərdə işğal edilmiş Azərbaycan əraziləri: İran əsarəti altındakı Cənubi Azərbaycan əraziləri: sahəsi təxminən 280 min kv km olmuşdur.
Rusiya əsarəti altındakı Şimali Azərbaycan: sahəsi təxmi-nən 130 min kv km olmuşdur.
1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığı – sahəsi 9 min kv km olmuşdur.
Rusiya əsarəti altındakı Dərbənd xanlığı – sahəsi 7 min kv km olmuşdur. 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respubli-kasının qurulduğu ərazinin sahəsi – təxminən 114 min kv km olmuşdur.
Ermənistan Sovet Sosialist Respublikasının qismən nəzarətinə verilən Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican və Gürcüstan SSRİ-nin qismən nəzarətinə verilən Borçalı –birlikdə sahəsi 27,4 min kv km olmuşdur.
1920-1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan SSR-nin ərazisi 86,6 min kv km olmuşdur.
Qan yaddaşımız!
Azərbaycanın 1988-1994-cü illərdə işğal edilmiş ərazi-ləri: Cəmi: 13,110 kv km olmuşdur.
Dağlıq Qarabağın (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut): işğal tarixi – 1988-1993-cü illər (sahəsi: 4400 kv km) olmuşdur.
1991-ci il 26 dekabr Xankəndinin işğalı (sahəsi – 926 kv km, əhalisi – 57000)
1992-ci il 26 fevral Xocalının işğalı (sahəsi – 970 kv km, əhalisi – 11544)
1992-ci il 8 may Şuşanın işğalı (sahəsi – 289 kv km, əhalisi – 28000)
1992-ci il 18 may Laçının işğalı (sahəsi – 1835 kv km, əhalisi – 58000)
1992-ci il 2 oktyabr Xocavəndin işğalı (sahəsi – 1458 kv km, əhalisi – 11000)
1993-cü il 3-4 aprel Kəlbəcərin işğalı (sahəsi – 1936 kv km, əhalisi – 62000)
1993-cü il 7 iyul Ağdərənin işğalı (sahəsi – 1700 kv km, əhalisi – 47000)
1993-cü il 23 iyul Ağdamın işğalı (sahəsi – 1094 kv km, əhalisi – 161000) 1993-cü il 23 avqust Cəbrayılın işğalı (sahəsi – 1050 kv km, əhalisi – 57000)
1993-cü il 23 avqust Füzulinin işğalı (sahəsi – 1112 kv km, əhalisi – 110000)
1993-cü il 31 avqust Qubadlının işğalı (sahəsi – 826 kv km, əhalisi – 38000)
1993-cü il 29 oktyabr Zəngilanın işğalı (sahəsi – 707 kv km, əhalisi – 42000)
Torpaq – uğrunda ölən varsa vətəndir! Sitat 1. Vətən yolunda şəhid olanlar ölmürlər, xalqın qəlbində, ürəyində əbədi yaşayırlar... biz onların qəhrəmanlığı, şəhidliyi ilə fəxr edirik. Bu bizim millətimizin iftixarıdır.
**Ümummilli lider Heydər Əliyev**
2. İnsan ömrünün ən böyük zinəti, onu yaşadan ən qadir qüvvə vətənpərvərlik hissidir.

## *Azərbaycan mədəniyyəti və incəsənəti*



Sitat: Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik. Heydər Əliyev, ümummilli lider İzahlı mətn: Azərbaycan incəsənəti xalqımızın tarixi qədər qədim və zəngindir. Uzun və mürəkkəb inkişaf yolu keçmiş teatr, kino, musiqi və xalq sənətinin müxtəlif növlərinin tədqiqi xalqımızın yüksək mədəni irsə malik olmasını sübut edir. Ölkəmizin mədəniyyət və incəsənət xadimləri milli mədəniyyətimizin dünyaya çatdırılması istiqamətində daim səy göstərmişlər. Azərbaycan muğamının YUNESKO tərəfindən Bəşəriyyətin Mədəni İrs siyahısına daxil edilməsi, görkəmli kino ustası, kinodramaturq və kinorejissor R.İbrahimbəyovun “Oskar” mükafatına layiq görülməsi və ümumiyyətlə, müxtəlif zamanlarda el sənətkarlarının ərəyə-ərsəyə gətirdiyi əl işlərinin və toxuduğu xalçaların dünyanın məşhur muzeylərində mühafizə olunması buna əyani sübutdur.

1. **Azərbaycanın musiqi dünyası** Sərgi orada yerləşən materiallarla tanış olmağa imkan verən, diqqəti cəlb edən yerdə olmalıdır. Sərginin yanında məsləhətlər, söhbətlər, icmallar təşkil edilə bilər. Kitabxanaçılar sərgilərə ad seçərkən onun rəngarəng və çağırış ruhlu olmasına xüsusi fikir verməlidirlər. Başlıq qısa və aydın olmalıdır. Məsələn: “Qalx ayağa, Azərbaycan!”, “Nahaq qan yerdə qalmaz”, “Azərbaycanın müstəqilliyi əbədidir”, “Vətən mənə oğul desə...”, “Qanlı şənbə gecəsi”, “Xocalı – əsrin faciəsi”, “Vətən torpaqları bizi gözləyir”, “Ya Qarabağ, ya ölüm!”, “Qələbə çal, igid əsgər!” və s. Mövzu sərgilərinin məqsədi müəyyən bir mövzuya həsr olunmuş kitabları oxuculara əyani şəkildə tövsiyə etməkdən ibarətdir.




Mövzu sərgiləri fondun müəyyən hissəsinin məzmununun açılıb göstərilməsində, bu və ya digər mövzuya dair kitabların tövsiyə olunmasında kitabxanaçıya kömək göstərir. Mövzunu daha aydın anlatmaq, mühüm məqsədlərə diqqəti daha tez çatdırmaq üçün sərgilər illüstrasiyalar və mətnlərlə müşayiət olunur. Hazırkı dövrün xüsusiyyətlərini nəzərə alaraq mövzu sərgilərinin hazırlanmasının vacibliyini aşağıdakılarla izah etmək olar: 1. Azərbaycan Respublikası 25 ildir ki, müstəqil inkişaf yoluna qədəm qoymuşdur və müstəqil dövlətin müstəqil ədəbiyyatı və incəsənəti yaranır; 2. Milli-mənəvi dəyərlər, vətənpərvərlik, vətənə və xalqa məhəbbət ideyalarını əks etdirən əsərlərin məqsədyönlu təbliği bu gün daha çox aktuallıq kəsb edir; 3. Azərbaycan torpaqlarının bir hissəsi erməni işğalçılarının tapdağı altında qaldığından gənc nəsil hərbi vətənpərvərlik duyğuları

aşılayan bədii əsərlərlə müntəzəm tanışlığa ehtiyac duyur; 4. Dövlət başçısının fərmanları ilə yubileyi keçirilən şair və yazıçıların ayrı-ayrı mövzular üzrə təbliği daha böyük səmərə verə bilər. Nümunə üçün “Azərbaycanın müstəqilliyi əbədidir”, “Milli mənəvi dəyərlərimizi qorumaq hər birimizin müqəddəs borcudur”, “Azərbaycan bu gün”, “Sənin Konstitusiyan – sənin hüququn”, “Vətən torpaqları bizi gözləyir”, “Biz torpaqlarımıza qayıdacağıq”, “Tarixi romanlarımız”, “Komediyalar aləmində”, “Poeziya dünyası”, “Satira güzgüsündə”, “Macəra ustaları” və s. başlıqlarla sərgilər təşkil etmək olar. Mövzuların müxtəlifliyinə görə sərgiləri aşağıdakı kimi qruplaşdırmaq olar: 1. Yeni daxil olan ədəbiyyatın universal sərgiləri; 2. Beynəlxalq və ölkə daxilində baş verən mühüm hadisələrə həsr edilmiş mövzu sərgiləri; 3. Əlamətdar və tarixi günlərə həsr edilmiş mövzu sərgiləri; 4. Sosial problemlərə həsr olunmuş mövzu sərgiləri; 5. Ölkəşünaslıq xarakterli sərgilər və s. Mövzuya müvafiq olaraq eyni zamanda mövzunun tam əhatə olunması üçün jurnal və qəzet məqalələrindən də kifayət qədər istifadə olunmalıdır. Mövzu ilə əlaqədar tövsiyə olunması vacib sayılan hər hansı jurnal və ya qəzet məqalələri sərgidə iki formada 1) məqalələr dərc olunan səhifələri sərgiyə açıq şəkildə düzmək 2) məqalələrin təsvirini kartoçkaya köçürüb jurnalın və qəzetin üstünə bərkitməklə nümayiş etdirmək olar. Bu qayda məqalələr məcmuəsində dərc olunmuş hər hansı məqalənin tövsiyəsi zamanı da tətbiq edilə bilər.Yeni kitabların sərgisi kitabxanaya yeni daxil olmuş nəşrlər haqqında müntəzəm məlumat vermək məqsədi daşıyır. Yeni alınmış kitablar sərgidə müəyyən qaydada şöbələrə görə: təbiət elmləri, nağıllar, mahnılar, az yaşlı uşaqlar üçün şəkilli kitablar, jurnallar, ictimai-siyasi elmlər, bədii ədəbiyyat və s. qoyulmalıdır. Sərgiləri yalnız yeni kitablarla məhdudlaşdırmaq olmaz. Hər bir kitabxanada külli miqdarda kitablar var ki, onlar haqqında məlumat pis təşkil edildiyindən oxucuların onlardan xəbəri yoxdur. Belə kitabları təbliğ etmək üçün müxtəlif bilik sahələri üzrə “Unudulmuş kitablar” və ya “Bu kitabları oxuyun!” başlığı altında sərgilər təşkil etmək məqsədəuyğundur. Sosial problemli sərgilər cəmiyyətin sosial problemlərinə (məsələn, ekologiyaya, narkomaniyaya, millətçiliyə və s. məsələlərə) həsr olunur və kitabxanaların maarifləndirici fəaliyyətini tələb edir.

Sərgilər oxuculara müəyyən məsələlərin öyrənilməsində kömək edir. Dərs vəsaitləri və dərsliklərdən fərqli olaraq sərgi-lər informasiyaları kompleks şəkildə təsvir edir.



Sərgi fəaliyyəti ilə məşğul olan kitabxanaçılardan - müasir forma və metodlardan, kompyuter texnologiyalarından istifadə bacarığı, pedaqoji, layihələşdirmə və modelləşdirmə təcrübəsi tələb olunur. Kitabxanalar və kitabxanaçılar ölkənin (regionun) tarixi və mədəni təcrübələrinin toplandığı xəzinənin qoruyucuları kimi ölkə sakinlərinin elmi dünyagörüşünün, siyasi şüurunun formalaşmasında vacib rol oynayırlar. Onların fəaliyyətinin məqsədi

yalnız ölkəşünaslığı (diyarşünaslığı) əks etdirən sənədlərin kütlələr arasında yayılması deyil, həm də sərgilər, reklamlar vasitəsilə fondlarının ölkəşünaslıq (diyarşünaslıq) ədəbiyyatının açılması və oxucularla mədəni-maarif işinin də aparılmasıdır.Beləliklə, kitabxanaların ölkəşünaslıq fəaliyyətinin məqsədi, ölkənin tarixini, mədəniyyətini öyrənmək və ölkəşünaslıq biliyini təbliğ etməkdir. Bu fəaliyyətin səmərəli nəticə verməsi üçün kitabxananın saytında ölkənin tarixinə və mədəniyyətinə aid tarixi-ölkəşünaslıq sənəd (məlumat) bazasının yaradılması vacibdir.



Ölkəşünaslıq (diyarşünaslıq) kitabxana sərgisi – kitabxanada olan kitab və başqa informasiya daşıyıcılarının daha çox effektli, kəsərli formada əyani təqdimetmə növüdür. Ölkəşünaslıq (diyarşünaslıq) kitab sərgiləri öz məzmununa, oxucu sahələrinə görə müxtəlifdir: həmişə fəaliyyət göstərən, universal mövzulu, məşhur və yaddaqalan tarixlərə aid, yeni daxil olan materialların sərgisi. F. Köçərli adına RUK- sının Elmi Metodika şöbəsi Ölkəşünaslıq (diyarşünaslıq) mövzusunda vəsait hazırlayıb rayonlarımızda yerləşən uşaq kitabxanalarına göndərmişdir. Ölkəşünaslıqdan bəhs edən kitabxana sərgilərinin əsas funksiyaları bunlardır:- dərketmə funksiyası - oxuculara öz diyarlarının tarixi və mədəniyyəti haqqında biliklərə yiyələnmək imkanlarını təqdim etməsi; - informasiya funksiyası - müxtəlif qrup və müxtəlif kateqoriyalı oxucular üçün ölkəşünaslıq fondlarının üzə çıxarılması; mövzu sərgiləri vasitəsilə mədəni təcrübələrin və ənənələrin varisliyinin təmsil edilməsi; adaptasiya (uyğunlaşma) funksiyası - ölkəşünaslıq (diyarşünaslıq) informasiyasına dair lazımi, maksimum əyani axtarışların təmin edilməsi. Ölkəşünaslıq (diyarşünaslıq) xarakterli sərgilər bir qayda olaraq daimi fəaliyyət göstərən sərgilərdir ki, onlar vətənpərvərlik tərbiyəsi və istifadəçilərin ekoloji maarifləndirilməsi çərçivəsində realizə olunur. Böyüməkdə olan gələcək nəsillərə doğma Azərbaycanımızı tanıtmaq hamımızın borcudur. Hərə bildiyi və bacardığı qədər bunu etməlidir. Belə bir iş müqəddəs bir işdir. Hər bir nəsil yaşadığı mühitə göz açır, onun ab-havası ilə böyüyür, necə deyərlər, hər şeyi bir növ hazır görür. Və bilmir ki, onun tarixi, və keçmişi var. Bu gün dünəndən yaranıb, sabah da bu gündən yaranacaq. Bildiyiniz kimi, tarix və çağdaşlıq qırılmaz tellərlə bağlıdır. Biri digərsiz ola bilməz. Odur ki, biz hamımız tariximizi, keçmişimizi əzbər bilməli və bildiklərimizi gələcək nəslə bacardığımız qədər çatdırmalıyıq. Elə buna görə də bizə bu işdə yazılı mənbələr, peşəkar tarixçilər, görüb-götürmüş müdriklər, el ağsaqqallarımızın xatirələri həmişə yardımçı olur. Bildiyiniz kimi, "Ölkəşünaslığın Uşaq Kitabxanalarında" təbliği geniş bir mövzudur. Geniş olduğu qədər də çətin bir mövzudur. Bu mövzu



həmişə aktual olmuş və olacaqdır. Bu il F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsində bu mövzuyla bağlı iş planı tutulmuşdur.

***"Gələcəyimiz milli ruhda tərbiyə olunmalıdır, gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz"***

***Heydər Əliyev!***

Azərbaycan...Üzərindən sevənlərinin duaları kəsilməyən sevda məkanım...

Torpağına rəhmət yağışı, hikmət şehi düşən canım məmləkətim...

Qədim-cavan-gələcəkli, dünya xəritəsinin qiymətli daşı-əvəzsiz Diyarım...

Ruhumun sədası, qəlbimin sirdaşı, dilimin şirin ana sözü –Azərbaycan!

Sən heç vaxt kölgəsi itməyəcək, varlığı, əzəməti getməyəcək bir kainat möcüzəsisən.

Xəbis düşmən səndən bir parçanı-Qarabağını qoparıb almaq istədi.

Gözləri kor oldu-görmədilər kəsmək istədikcə, kökündən bitən fidanı görmədilər-kökü anaya bağlı telləri.

Qarabağım, qərib durma, qərib olma, Azərbaycanın sinəsindəsən-oradan kim qoparıb kəsə bilər səni...

Dünya durduqca bütöv qalacaq-sevilmiş,
Sevilən, seviləcək ərlər yurdu, mərdlər diyarı-Azərbaycan!...

Ölkəşünaslıq bir diyarın təbii coğrafi şəraitini, tarixi və mədəniyyətinin (qədim dövrdən müasir dövrə qədər olan tarixini, dövlət quruluşunu, dövlətin iqtisadi-siyasi sahələri, qəhrəmanlıq tarixi, şəxsiyyət, incəsənət, musiqi, ədəbiyyat, elmi-texnika, memarlıq və s.) onun sosial-iqtisadi, siyasi, etnoqrafiya, adət və ənənələrini öyrənən bir elmdir.Ölkəşünaslıq bəşər cəmiyyətinin keçmişini hərtərəfli öyrənən elm sahəsidir. Dünya tarixindən ümumi məlumatlara malik olmaqla yanaşı hər bir xalq öz tarixi keçmişini daha dərin və ətraflı bilməlidir. Bildiyiniz kimi,  tarixi öyrənmə daha çox sənəd və faktlara söykənir. Xalqların mənəviyyatı, adət-ənənələri, dilləri, ictimai-siyasi həyatı və s. haqqında bilgi verən və dövrümüzə qədər gəlib çatan maddi-mədəniyyət abidələri, yazılı sənədlər öz əksini tarixi mənbələrdə tapır. Ölkəşünaslıq bu yönümdə əvəzolunmazdır. Ölkəşünaslıq materiallarının içərisində ərazinin ümumi tarixi ilə yanaşı, yerli tarixi fakt və hadisələr xüsusi önəm daşıyır. Təsadüfi deyil ki, bölgələrdə  fəaliyyət göstərən Tarix-Diyarşünaslıq muzeyləri yerli əhali arasında çox böyük populyarlığa malikdir.Ölkəşünaslığın öyrənilməsi ölkənin bir guşəsinin öyrədilməsindən başlanılır.



Yeri gəlmişkən qeyd edək ki, ölkəşünaslıq, diyarşünaslıq oxşar və paralel bir sahədir. İndiki, vaxtda isə bu termin regionşünaslıq da adlandırılır. Ölkəşünaslıq materialının işlənməsində məqsədimiz kitabxanamızdan istifadə edən oxucuların, rayon və kənd kitabxanalarının oxucularının vətənpərvərlik, milli qürur hiisinin daha da yüksəldilməsindən ibarətdir. Ölkəşünaslıq

materiallarının yazılması, nəşr edilməsi faydalı iş olmaqla bərabər həm də tədqiqatçılıq xarakteri daşıyır. Belə bir iş nəinki oxucularda təlim-tərbiyə işinin keyfiyyətini yüksəldir, eyni zamanda kitabxanaçıların, müəllimlərin və s. ideya-siyasi və elmi nəzəri səviyyəsini və biliklərini artırır. Ölkəşünaslıq materiallarının Uşaq Kitabxanalarında təbliği deyərkən nələr nəzərdə tutulur?

Bu zaman, öyrənilən ərazi Azərbaycan Respublikasının iqtisadi-coğrafi rayonlaşdırılmasında, əhali və onun bölüşdürülməsi, sənayesi, kənd təsərrüfatı və onun strukturu, nəqliyyatı, xidmət sahələri, inzibati ərazi bölgüsü əsas götürülür.

Bütün bu saydıqlarımıza əlavə olaraq öyrənilən ərazinin kartoqrafik və topoqrafik təsvirləri, öyrənilən əraziyə aid müxtəlif cədvəl, sxem və diaqramlar, ərazinin müxtəlif sahələrini əks etdirən fotoşəkillər, doğma diyarı vəsf edən şeirlərdən və s. istifadə oluna bilər. Ölkəşünaslıq materialları kompüterə daxil edilərkən yazı və görüntü materialları bir-birini elə tamamlamalıdır ki, vəhdət təşkil etsin. Ölkəşünaslıq coğrafiyanın tərkib hissəsi sayılmaqla eyni zamanda yerli elmi-kütləvi informasiya xarakteri daşıyır. Yəni oxucuların öz yaşadıqları ərazi üzrə görə bilmədiyi (və ya eşitmədiyi) coğrafi obyektlər ekrana gətirilir və bu da nəticə etibarilə, oxucu ruhuna, dünyagörüşünə və ən əsası yaddaşına birbaşa təsir edir. Ölkəşünaslıq materiallarının işlənib hazırlanması başqa mövzulardan tam fərqli olaraq sərbəst yanaşılan bir mövzudur. Belə bir materialların hazırlanması kitabxanaya gələn oxucu və şagirdlərin kitaba, dövrü mətbuata mənimsəmə keyfiyyətini artıran cəhətlərdəndir.

Ölkəşünaslıq materiallarının tədrisində elektron variantın tətbiqi də vacib məsələlərdən biridir. Bu oxucularda mənimsəmə və qavrayışı asanlaşdırır, əyaniliyi təmin edir, oxuduqlarının yaddaşda daha yaxşı qalmasına şərait yaradır, oxucular ölkəşünaslıqla bağlı daha ətraflı bilik və məlumatlar əldə edir, kompüter variantı operativ texniki informasiya vasitəsi kimi oxucuları özünə cəlb edir, onların doğma yurda olan məhəbbətini artırır. Beləliklə, sorğu, müşahidə, eksperiment, elmi-tədqiqat yolu ilə diyarşünaslıq materiallarının toplanılaraq elektron dərs sisteminə daxil edilməsi əhəmiyyətli işlərdəndir. Digər tərəfdən sual-cavab və müzakirələr əsnasında oxuculara sərbəstlik verilməlidir ki, onların doğma yurdla bağlı fikir, təklif və rəyləri üzə çıxsın. Bu da nəticə etibarilə ölkəşünaslıq materiallarının zənginləşməsinə xidmət etmiş olur.

Hər il oduğu kimi bu il də F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Metodika və Biblioqrafiya şöbəsinin illik iş planlarına müntəzəm olaraq daxil edilən Ölkəşünaslığın Uşaq Kitabxanalarında təbliği məsələsinə böyük diqqət ayrılmışdır. **Həmçinin sərgidə Vətən haqqında Atalar sözlərindən də istifadə etmək olar.**

1. Bülbülü saldılar qəfəsə dedi: "Ay Vətən, ay Vətən". Buraxdılar, qondu tikan koluna, dedi: "Can Vətən, can Vətən".
2. Vətən viranə də olsa, məsəldir, məhz cənnətdir.
3. Vətəndən ayrı ayrı düşsəm, viran ollam, talannam.
4. Vətən həsrəti çəkdim, gözlərimə qan gəldi.
5. Qürbətdə xan olunca, Vətənində dilən, gəz.

6. Dağ yeri - duman yeri, Yurd yeri - guman yeri.
7. Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır.
8. Vətənə gəldim, imana gəldim.
9. Dam dirək üstə durar.
10. Doğma yurd şirin olar.


















Kitabxanalara yeni informasiya texnologiyalarının tətbiqi onların qarşısında çox geniş imkanlar açır, fondun mühafizə edilməsi və xidmət işində oxucuların tələbatlarının ödənilməsində yaranan problemləri asanlaşdırmağa, oxuculara yeni üsullarla xidmət etməyə imkan verir. Yeni texnologiyaların Mətbuat (çap) təbliğatının formaları. Oxucular arasında bədii ədəbiyyat təbliğinin formalarından biri də mətbuat (çap) təbliğatıdır. Mətbuat (çap) təbliğatı formasının mətbuat vasitəsi ilə (qəzet, jurnal, bülleten, kitabça, kitab) yayılması üsulu daha faydalıdır. Oxucularda vətənpərvərlik hisslərinin aşılanmasında, milli-mənəvi dəyərlərimizin qorunmasında mətbuat əsərlərinin imkanlarını daha yaxşı reallaşdırmaq üçün ədəbiyyatı və dövri mətbuat əsərlərinin təbliğat işini daim yaxşılaşdırmaq, onların hər bir ailəyə ən asan yolla çatmasına kömək etmək lazımdır.

**II sərgi "Azərbaycan odlar diyarım"** adlı sərgidir. Sərgidə Azərbaycanın qeyri-adi gözəllikləri, təbiət mənzərələri, qədim abidələri nümayiş olunur. Sərgiyə baxan və onu seyr edən hər bir kəsdə ölkəmiz haqqında dərin məlumat və təəssürat yaranır. Əlavə şərhə, izahata ehtiyac qalmır. Əshabi-Kəhf ziyarətinin əzəməti, Bakının rəmzi olan Qız qalası və onun ətrafı, İçərişəhərin görünüşü, Mömünə xatun məqbərəsi, sərgiyə gələnləri valeh edir. Qeyd edək ki, kitabxanalarda təşkil edilən hərbi vətənpərvərlik məzmunlu sərgilərdə müharibə mövzusunda yazılmış bədii, publisistik kitablarla yanaşı, müxtəlif qəzet və jurnal ma-terialları da əks etdirilir ki, bu da həmin sərginin əhəmiyyətini xeyli artırır. Azərbaycan Respublikasının qlobal informasiya mühitinə daxil olması cəmiyyətin informasiya təminatını həyata keçirən kitabxanaların fəaliyyətində əsaslı islahatlar aparılması

üçün geniş imkanlar açmışdır. Elə buna görə də indi kitabxanada xidmətlər təkmilləşdirilir, fondlar müasir informasiya daşıyıcıları ilə zənginləşdirilir, elektron məlumat bankları yaradılır, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi üçün tədbirlər görülür. Müasir cəmiyyətdə elm və texnikanın sürətlə inkişaf etməsi onun bütün fəaliyyət sahələrinə tətbiqini tələb edir.

**"II Sərgi: "Folklorumuz və abidələrimiz"**adlı sərgidə oxucuların əl işləri və rəsm əsərləri nümayiş etdirilir











.

***Dövri mətbuat materiallarının təbliğinin ən geniş yayılmış forması qəzet vitrinidir.*** Vitrinlərdə təzə qəzetləri asmaqla kifayətlənməyib, dərc edilmiş mühüm materialları oxucuların diqqətinə çatdırmaq lazımdır. Qəzetlərlə yanaşı jurnallarla da böyük iş aparmaq olar. Onları müntəzəm oxumaq müəyyən dərəcədə uşaqlarda elm, texnika, ədəbiyyat, incəsənət və başqa sahələrə dərin maraq yaradır. Jurnallarla, əsas etibarilə kitabxananın qiraət zalında iş aparılır. Oxuculara jurnallar və onlara daxil edilmiş məqalələr haqqında məlumat plakatlar, habelə jurnal məqalələrinin əlifba və ya sistemli annotasiyalı kartotekası vasitəsilə verilir. Yeni jurnalların təbliği xüsusi vitrinlər vasitəsilə təşkil edilir. Oxucular qarşısında jurnalın məzmununu açmaq və onları ayrı-ayrı məqalələrlə maraqlandırmaq məqsədilə kitabxana "Mətbuatımızla tanış olaq" başlığı altında xüsusi plakat və ya lövhə hazırlayır. Burada jurnal vərəqələrinin arasına "Sənin maraq dünyan", "Maraqlı məqalələr toplusu" və s. yazılmış əlfəcinlər qoyurlar, ya da həmin

səhifəni açıq nümayiş etdirirlər ki, tövsiyə edilən məqaləni oxucu görə bilsin. Mətbuat (çap) təbliğatı vasitələri hər zaman oxucuların köməyinə çatır. Kitabxanaçı oxucularla fərdi iş apararkən, kitabxananın işi haqqında məlumat verərkən və kitab tövsiyə edərkən özünün şifahi söhbətinə əlavə olaraq oxucuya çap materialı da təqdim edir. Mətbuat (çap) təbliğatı vasitələri həm kitabların əyani təbliğatı zamanı sərgiləri tamamlayır, həm də yazıçılara və kitablara həsr olunmuş gecələrin, kitab icmallarının təşkili zamanı şifahi-kütləvi işdə istifadə edilir.

***Sərgi fəaliyyətində reklam informasiya işi.*** Kitabxana sərgisi “intellegent” kitabxana imici təsəvvürü yaradan reklam üsuludur. Kitabxana sərgisi uşaqlar üçün nə qədər maraqlı və cəlbedici olsa, bir o qədər kitabxana haqqında bütünlükdə güclü müsbət təəssürat yaranır.

***Kitabxana sərgisi aşağıdakı üstünlüklərə malikdir*:**

Uşaqların istiqamətləndirilməsinə kömək edir; hər kitabdan maksimum istifadə etmək imkanı yaradır. Eyni zamanda sərginin özünün kitabxana fəaliyyətinin bir forması kimi reklama ehtiyacı vardır. Kitabxana reklamı kitabxana şəraitində mütaliə etməyin səmərəliliyi və burada müxtəlif xidmət prosesləri barədə özünəməxsus anlayış yaratmaq imkanına malikdir. Hər bir kitabxananın həyata keçirdiyi reklam işi həmin kitabxananın iş xüsusiyyətləri barədə oxucularda aydın təsəvvür yaradır, başqa kitabxanalardan fərqli cəhətlərini göstərməklə onun obrazını yaratmış olur. Kitabxana reklamı adətən müxtəlif məzmunlu kitabxana xidməti barədə istiqamətləndirici rol oynamaq imkanına malikdir.

***Bu cəhətdən məqsədinə görə reklamlar iki növə bölünür.*** Birinci növ reklamlar uşaq kitabxanalarının ümumi simasını açan, iş xüsusiyyətlərini şərh edən reklamlardır. İkinci növ reklamlar isə uşaq kitabxanaları tərəfindən həyata keçirilən konkret tədbirlər, konkret xidmət növü haqqında məlumat verən reklamlardır. Hər bir tədbirə maraq reklamdan başlayır. Reklam məlumatlarının əsas tələbləri bunlardır: - istifadəçiyə reklam obyekti barədə yeni informasiyaları təqdim etmək;- reklam olunan sərginin əhəmiyyətli olduğuna inandırmaq; auditoriyanın xüsusiyyətini nəzərə almaq; - reklam olunan sərginin əsas xüsusiyyətlərini əks etdirmək.

***Sərgi haqqında məlumat reklamın məqsədindən asılı olaraq daxili və xarici ola bilər. Sərgilər haqqında reklam məlumatının ən geniş yayılmış forması – elandır.***









Məzmununa və məqsədinə görə elanın bir neçə forması vardır. Anons, reklam, afişa, bildiriş və s. kimi əməli yazılar elan xarakterlidir. Elan bu və ya digər məlumatı uşaqlara, onların valideynlərinə, müəllimlərinə qabaqcadan çatdırmaqla təşkiledici missiyanı yerinə yetirir. Məlumat qruplaşdırılarkən aşağıdakılar diqqət mərkəzində saxlanılmalıdır: 1. Məlumatın mahiyyəti, məzmunu aydın qeyd

olunmalıdır. 2. Məlumatın vaxtı, saatı dəqiq göstərilməlidir; 3. Tədbirin keçiriləcəyi yer (ərazi, bina, otağın nömrəsi) qeyd edilməlidir; 4. Məlumatın kim tərəfindən verilməsi göstərilməlidir.Elanda bir və ya bir neçə məlumat öz əksini tapa bilər. **Bu gün kitabxanalara oxucu cəlb etməyin əsas şərtlərindən biri elanlarda tədbirin məzmununun necə təqdim edilməsi, nə şəkildə oxucuya çatdırılmasıdır.** Keçiriləcək tədbir haqqında cəlbedici elan yazılmalı, tədbirdə iştirak edəcək şəxslərin adları və titulları qeyd edilməlidir.Uşaq kitabxanaları tədbirə maraqlı, göz və könül oxşayan adın seçilməsinə xüsusi diqqət yetirməlidirlər. Tədbirin keçiriləcəyini informasiya vasitələrindən istifadə etməklə də yaymaq olar. Kitabçaların, bukletlərin, elanların, vərəqələrin səmərəsi onların düzgün paylanması və münasib məzmunda yazılmasından asılıdır. Reklam məlumatlarını tərtib edərkən aşağıdakı məqamlara diqqət yetirmək lazımdır: əgər müsbət təsirə nail olmaq istəyirsinizsə, sərginin özəlliklərinə diqqəti cəlb etmək üçün səmərəli dəlillərdən istifadə olunmalıdır; sadə, maraqlı, orijinal olmalıdır və eyni fikri bildirən, şüura rahat təsir edə bilən açar sözlərdən təşkil olunmalıdır;- məlumat imkan daxilində qısa olmalıdır; - sözlər insanlara müsbət emosiyalar aşılamalı, yaxşı əhval-ruhiyyə yaratmalıdır. Sərgi reklamlarının yayılmasındakı vasitələrdən biri də kitabxanaların saytıdır. Axtarış sistemlərində və kataloqlarda saytın qeydə alınması belə reklamların daha effektli olmasında vacib faktorlardandır.

***Bədii ədəbiyyatın əyani təbliğinin geniş yayılmış növlərindən biri də kitabxana plakatlarıdır.***




Kitabxana plakatı tövsiyə olunan bədii kitabı təsviri sənət vasitəsi ilə təbliğ edir, ən vacib detallardan istifadə etməklə məsləhətçi rolunu oynayır. Plakatlar həm də oxuculara istiqamət vermək, hər hansı bir bədii ədəbiyyat haqqında onlarda müəyyən təsəvvür yaratmaq məqsədi ilə hazırlanır. Kitabxana plakatları məqsədinə və vəzifəsinə görə iki cür olur: Təbliğat və təşviqat xarakterli plakatlar; 2. Metodik xarakterli plakatlar. Təbliğat-təşviqat xarakterli plakatlarda, adətən müəyyən mövzulara dair kitablar tövsiyə olunur. Kitabxanalarda klassiklərdən Nizami, Füzuli, M.P.Vaqif, M.Ə.Sabir, C.Məmmədquluzadə, A.Şaiq, M.F.Axundov, S.Ə.Şirvani, S.S.Axundov, F. Köçərli, S.Vurğun, M.Müşfiq, S.Rüstəm, M.Şəhriyar, R.Rza, O.Sarıvəllinin, müasir yazıçı və şairlərdən Xanımana Əlibəyli, Mikayıl Rzaquluzadə, Teymur Elçin, İlyas Tapdıq, Rafik Yusifoğlu və b. yaradıcılığına həsr olunmuş plakatların tərtibi məqsədəuyğundur. Bu plakatlar təkcə şair və yazıçının yaradıcılığı haqqında deyil, həm də həyat və fəaliyyəti, yaşadığı tarixi dövr haqqında müəyyən məlumat verir. Kitabxana plakatı kitabxanalarda, əsasən aktual mövzulara həsr olunur. Onu da deyək ki, kitab sərgisindən fərqli olaraq plakatda az sayda ədəbiyyat (məsələn 5-6 kitab, jurnal və qəzet məqaləsi) nümayiş etdirilir. Plakatın əsas ünsürləri kitabların özü deyil, onların üz qabığı (plakatda əl ilə çəkilmiş, yaxud fotoşəkil), bir neçə sitat, qısa mətn və plakatın əsas ideyasını açan, mənalı başlıqlardır. Plakatın tərtibində kitablara çəkilmiş illüstrasiyalar da

əks etdirilir. Plakatda ədəbiyyatın qısa annotasiyası mütləq verilməlidir. Annotasiyalar kitabların ideya və məzmununun açılmasına kömək edir. Plakat oxucuya ifadəli, aydın, gözəl təsir bağışlamalıdır. Məsələn: Hər hansı bir yazıçıya həsr edilmiş plakatda yazıçının şəkli, şəklin altında ədibin həyat və fəaliyyəti haqqında qısa mətn, mətndən sonra yazıçının kitablarının üz qabığının şəkillərini vermək olar. Plakatda “Ədibin müasirləri” başlığı altında onun qələm və məslək dostlarının şəkillərini də nümayiş etdirmək mümkündür.Məsələn: İlk folklor antologiyasının banisi F. Köçərlidən bəhs edən sərgi
Nümunə üçün bir plakatın sxemini veririk:1.yubilyarın şəkli annotasiya 2.sitat Başlıq 3.kitab 4. üz qabığı 5. annotasiya 6.illüstrasiya 7.kitab 8.annotasiya 9.üz qabığı10. Kitab





Başlıq: **F. Köçərli - 150 İlk folklor antologiyasının banisi**
F. Köçərli- şəkli, şəklin altında ədibin həyat və fəaliyyəti haqqında qısa mətn.
1. Kitabın əl ilə çəkilmiş şəkli və annotasiya.
2. Mətndən sonra yazıçının kitablarının üz qabığının şəkilləri
3. “Ədibin müasirləri” başlığı altında onun qələm və məslək dostlarının şəkilləri.

Metodik xarakterli plakatlar isə oxucularda mütaliə mədəniyyəti tərbiyəsinə xidmət məqsədi daşıyır və bədii ədəbiyyatın təbliği sahəsində böyük rol oynayır.



Kitabxana plakatları həm öz məzmunu, həm forması, həm də qarşısına qoyduğu məqsədinə görə bir-birindən fərqlənir. Hər hansı mövzuda kitabxana plakatı tərtib edən kitabxanaçı qarşıya qoyduğu məqsədə yalnız o zaman nail ola bilər ki, istər seçdiyi mövzu, istərsə də orada nümayiş etdirilən kitablar, illüstrasiyalar və mətnlər müxtəlif yaşlı oxucu qrupları üçün anlaşıqlı olsun.
Hər hansı bir kitabxana plakatı kitabla yanaşı kitabxananı da təbliğ edir. Kitabxana binasından kənar yerlərdə asılan plakatlar uşaqları kitab oxumaq üçün kitabxanaya cəlb etməlidir.

**Guşələr** sərgiyə nisbətən daha geniş və əhatəli olmalıdır. Belə ki, guşədə əlavə olaraq kartoteka, qəzet, jurnal materialları, tövsiyə ədəbiyyat siyahıları, mövzuya uyğun bir sıra sənədlər və şəkillər də öz əksini tapmalıdır. Guşələrin təşkilində əsas məqsəd oxucuya axtardığı materialları asanlıqla tapmaqda kömək etməkdən

ibarətdir. Bu işdə hər cür texniki təbliğat vasitələrindən gündən-günə daha çox istifadə edilir.
Mənəvi həyatımızın tarixi ən qədim dövrlərdən başlayaraq kitabla sıx bağlı olmuş və məhz onun ehtiyacları müqabilində kitab yeni-yeni formalara düşərək təkmilləşmiş, formalaşmışdır. Müasir informasiyalaşdırılmış cəmiyyətdə kitabın rolu daha da artır, kitab kommunikasiya üsullarından biri kimi çıxış edir. Uşaqlar arasında kitaba məhəbbət oyatmaq, kitabı onlara sevdirmək, kitabın nüfuzunu qaldırmaq üçün kütləvi tədbirin müxtəlif formalarından istifadə etmək vacibdir.
***Belə tədbirlərdən biri də kitab bayramıdır.***




Bayrama hazırlıq zamanı milli kitab mədəniyyəti və ədəbiyyatımızın müxtəlif uğurlarına, problemlərinə, perspektivlərinə həsr olunmuş dəyirmi masa, ədəbi görüşlər, sərgilər, yeni nəşr olunmuş kitabların təbliğinə dair tədbirlər planı hazırlanmalıdır. Tədbirlər planında: - Ümummilli lider Heydər Əliyevin ölməz həyat yolunu əks etdirən kitabların sərgisini hazırlamaq və müxtəlif tədbirlər keçirmək;
- Milli-mənəvi dəyərlərimizin və vətənpərvərlik tərbiyəsinin təbliği ilə bağlı ədəbiyyatın sərgisini keçirmək;
- Nəşriyyatların və müəlliflərin birbaşa iştirakıyla yeni kitabların sərgisini keçirmək;
- Ötən ilin dəyərli kitablarını və mədəniyyət hadisələrini oxucuların diqqətinə çatdırmaq;
- Müəlliflərlə naşirlərin, yazarlarla oxucuların birbaşa ünsiyyətinə, görüşünə şərait yaratmaq;
- Yeni nəsil istedadlı cavanların yaradıcılığının təbliğinə, cəmiyyətə tanıdılmasına səy göstərmək;
- Yazıçıların yeni əsərlərinin ictimai təbliğatı, təqdimatı və müzakirəsini təşkil etmək;





Bayram çərçivəsində rayonun Tarix-Diyarşünaslıq Muzeyində saxlanılan maraqlı, qədim, tarixi eksponatlara baxış, istedadlı uşaqların əl işlərindən ibarət, turizm zonalarının təbliği ilə bağlı, rayonda yaşayan uzun ömürlülər haqqında sərgilər və s. nümayiş etdirilə bilər.

Tədbirdən əvvəl elan hazırlanır. Dəvətnamələr yazılır. Son vaxtlar bütün sahələrdə olduğu kimi, kitabxanaların da fəaliyyətini yoxlamaq üçün monitorinqlərdən istifadə olunur.

***Kitabxanalarda, xüsusilə uşaq və məktəb kitabxanalarında adları çəkilən əyani təbliğat formaları sırasında Kitabxana albomlarının da özünəməxsus yeri vardır.*** Kitabxananın həm kiçik yaşlı məktəblilər, həm də yeniyetmələr üçün olan oxu zallarının kitabxanaçıları məktəbli oxucuların fəal iştirakı ilə məktəblilər üçün vacib sayılan və məktəb proqramına müvafiq olan mövzuları əks etdirən kitabxana albomları hazırlayır. Bununla əlaqədar hər bir məktəbliyə müvafiq bir mövzu verilir və həmin mövzuda albom tərtib etmək üçün təlimatlandırılır. Məktəbli albom üçün lazımi materialları, məlumatları kitabxana şəraitində, kitabxanaçının birbaşa köməkliyi ilə toplayır. Albomun tərtibi modeli də kitabxanaçının iştirakı ilə hazırlanır. Məktəbli oxucu albomu hazırlamalı olduğu müddətdə həm müəllimlərin həm də valideynlərin imkanlarından yararlana bilərlər.

Kitabxanada hazırlanan bu cür albomlar adətən məktəbli oxucular üçün maraqlı mövzulara həsr olunmalıdır ki, bunların sırasında ən çox görkəmli şair və yazıçıların, elm, mədəniyyət və dövlət xadimlərinin həyat və yaradıcılığına müraciət olunur. Ayrı-ayrı şəxsiyyətlərin həyat və yaradıcılığına həsr edilmiş kitabxana albomlarında həmin şəxsiyyətin anadan olduğu vaxtdan ömrünün sonuna qədərki bütün həyat və fəaliyyətini əks etdirən mətnlər, faktlar, rəqəmlər, foto şəkillər, rəsmlər xronoloji qaydada və məntiqi ardıcıllıqla verilir. Əlbəttə, bu cür albomlar kitabxananın oxu zalının köməkçi fondunun tərkib hissəsi kimi saxlanılır və məqsədəuyğun olaraq məktəbli oxucuların istifadəsinə verilir.

Məktəbli oxucuların hər hansı konkret bir movzuda müfəssəl məlumat almalarına kömək etmək üçün kitabxana albomları ən yaxşı və münasib vasitə hesab olunur.

Kitabxanalarda informasiya təbliğatının əsasını kompleks tədbirlər – informasiya günləri və həftələri, sərgi-baxış, mütəxəssis günləri kimi tədbirlər təşkil edir.

İnformasiya həftəsi – müəyyən mövzu üzrə kompleks tədbirləri, sərgi-baxışı, biblioqrafik icmalları, söhbəti, məsləhətləri əks etdirir.



***İnformasiya günü*** – kitabxana xidməti sistemində kompleks kitabxana-informasiya tədbirlərindən biri kimi kitabxanaya yeni daxil olan çap məhsulları haqqında oxucuları məlumatlandırmaq məqsədi daşıyır. İnformasiya gününə (həftə, ongünlük) hazırlıq bir neçə mərhələdə olur. Birinci mərhələ tədbirin mövzusunun müəyyən edilməsidir. Bu mərhələnin ən başlıca addımlarından biri sərgi-baxış üçün mövzuya uyğun yeni daxil olan mühüm ədəbiyyatlara baxışın keçirilməsi və onların seçilməsidir.

Sərgi orada yerləşən materiallarla tanış olmağa imkan verən, diqqəti cəlb edən yerdə olmalıdır. Sərginin yanında məsləhətlər, söhbətlər, icmallar təşkil edilə bilər.

Kitabxanaçılar sərgilərə ad seçərkən onun rəngarəng və çağırış ruhlu olmasına xüsusi fikir verməlidirlər. Başlıq qısa və aydın olmalıdır. Məsələn: “Qalx ayağa, Azərbaycan!”, “Nahaq qan yerdə qalmaz”, “Azərbaycanın müstəqilliyi əbədidir”, “Vətən mənə oğul desə...”, “Qanlı şənbə gecəsi”, “Xocalı – əsrin faciəsi”, “Vətən torpaqları bizi gözləyir”, “Ya Qarabağ, ya ölum!”, “Qələbə çal, igid əsgər!” və s.
Mövzu sərgilərinin məqsədi müəyyən bir mövzuya həsr olunmuş kitabları oxuculara əyani şəkildə tövsiyə etməkdən ibarətdir. Mövzu sərgiləri fondun müəyyən hissəsinin məzmununun açılıb göstərilməsində, bu və ya digər mövzuya dair kitabların tövsiyə olunmasında kitabxanaçıya kömək göstərir. Mövzunu daha aydın anlatmaq, mühüm məqsədlərə diqqəti daha tez çatdırmaq üçün sərgilər illüstrasiyalar və mətnlərlə müşayiət olunur. Hazırkı dövrün xüsusiyyətlərini nəzərə alaraq mövzu sərgilərinin hazırlanmasının vacibliyini aşağıdakılarla izah etmək olar:
1. Azərbaycan Respublikası 24 ildir ki, müstəqil inkişaf yoluna qədəm qoymuşdur və müstəqil dövlətin müstəqil ədə-biyyatı və incəsənəti yaranır;
2. Milli-mənəvi dəyərlər, vətənpərvərlik, vətənə və xalqa məhəbbət ideyalarını əks etdirən əsərlərin məqsədyönlu təbliği bu gün daha çox aktuallıq kəsb edir;
3. Azərbaycan torpaqlarının bir hissəsi erməni işğalçılarının tapdağı altında qaldığından gənc nəsil hərbi vətənpərvərlik duyğuları aşılayan bədii əsərlərlə müntəzəm tanışlığa ehtiyac duyur;
4. Dövlət başçısının fərmanları ilə yubileyi keçirilən şair və yazıçıların ayrı-ayrı mövzular üzrə təbliği daha böyük səmərə verə bilər.

Nümunə üçün “Azərbaycanın müstəqilliyi əbədidir”, “Milli mənəvi dəyərlərimizi qorumaq hər birimizin müqəddəs borcudur”, “Azərbaycan bu gün”, “Sənin Konstitusiyan – sənin hüququn”, “Vətən torpaqları bizi gözləyir”, “Biz torpaqlarımıza qayıdacağıq”, “Tarixi romanlarımız”, “Komediyalar aləmində”, “Poeziya dünyası”, “Satira güzgüsündə”, “Nağıllar aləminə səyahət”,”Sənin maraq dünyan”, “Sənin hüquqların səni qoruyur”, “Torpaq əgər uğrunda ölən varsa Vətəndir!”,“Macəralar aləminə səyahət” və s. başlıqlarla sərgilər təşkil etmək olar.
Mövzuların müxtəlifliyinə görə sərgiləri aşağıdakı kimi qruplaşdırmaq olar:
1. Yeni daxil olan ədəbiyyatın universal sərgiləri;
2. Beynəlxalq və ölkə daxilində baş verən mühüm hadisələrə həsr edilmiş mövzu sərgiləri;
3. Əlamətdar və tarixi günlərə həsr edilmiş mövzu sərgiləri;
4. Ölkəşünaslıq xarakterli sərgilər (ildə 1 dəfə) və s.
Mövzuya müvafiq olaraq eyni zamanda mövzunun tam əhatə olunması üçün jurnal və qəzet məqalələrindən də kifayət qədər istifadə olunmalıdır. Mövzu ilə əlaqədar tövsiyə olunması vacib sayılan hər hansı jurnal və ya qəzet məqalələri sərgidə iki formada 1) məqalələr dərc olunan səhifələri sərgiyə açıq şəkildə düzmək 2) məqalələrin təsvirini kartoçkaya köçürüb jurnalın və qəzetin üstünə bərkitməklə nümayiş etdirmək olar. Bu qayda məqalələr məcmuəsində dərc olunmuş hər hansı məqalənin tövsiyəsi zamanı da tətbiq edilə bilər.

Yeni kitabların sərgisi kitabxanaya yeni daxil olmuş nəşrlər haqqında müntəzəm məlumat vermək məqsədi daşıyır. Yeni alınmış kitablar ”Bizə kitab gəlib” başlıqlı sərgidə müəyyən qaydada şöbələrə görə: təbiət elmləri, bədii ədəbiyyat və s. qoyulmalıdır. Sərgiləri yalnız yeni kitablarla məhdudlaşdırmaq olmaz. “Bu kitabları oxuyun!” başlığı altında sərgilər təşkil etmək məqsədəuyğundur. Sosial problemli sərgilər cəmiyyətin sosial problemlərinə (məsələn, ekologiyaya, narkomaniyaya, millətçiliyə və s. məsələlərə) həsr olunur və kitabxanaların maarifləndirici fəaliyyətini tələb edir. Sərgilər oxuculara müəyyən məsələlərin öyrənilməsində kömək edir. Dərs vəsaitləri və dərsliklərdən fərqli olaraq sərgilər informasiyaları kompleks şəkildə təsvir edir. Sərgi fəaliyyəti ilə məşğul olan kitabxanaçılardan - müasir forma və metodlardan, kompyuter texnologiyalarından istifadə bacarığı, pedaqoji, layihələşdirmə və modelləşdirmə təcrübəsi tələb olunur.
Kitabxanalar və kitabxanaçılar ölkənin (regionun) tarixi və mədəni təcrübələrinin toplandığı xəzinənin qoruyucuları kimi ölkə sakinlərinin elmi dünyagörüşünün, siyasi şüurunun formalaşmasında vacib rol oynayırlar. Onların fəaliyyətinin məqsədi yalnız ölkəşünaslığı (diyarşünaslığı) əks etdirən sənədlərin kütlələr arasında yayılması deyil, həm də sərgilər, reklamlar vasitəsilə fondlarının ölkəşünaslıq (diyarşünaslıq) ədəbiyyatının açılması və oxucularla mədəni-maarif işinin də aparılmasıdır. Beləliklə, kitabxanaların ölkəşünaslıq fəaliyyətinin məqsədi, ölkənin tarixini, mədəniyyətini öyrənmək və ölkəşünaslıq biliyini təbliğ etməkdir. Bu fəaliyyətin səmərəli nəticə verməsi üçün kitabxananın saytında ölkənin tarixinə və mədəniyyətinə aid tarixi-ölkəşünaslıq sənəd (məlumat) bazasının yaradılması vacibdir.
**Ölkəşünaslıq (diyarşünaslıq) kitabxana sərgisi** – kitabxanada olan kitab və başqa informasiya daşıyıcılarının daha çox effektli, kəsərli formada əyani təqdimetmə növüdür. Ölkəşünaslıq (diyarşünaslıq) kitab sərgiləri öz məzmununa, oxucu sahələrinə görə müxtəlifdir: həmişə fəaliyyət göstərən, universal mövzulu, məşhur və yaddaqalan tarixlərə aid, yeni daxil olan materialların sərgisi
Ölkəşünaslıq (diyarşünaslıq) xarakterli sərgilər bir qayda olaraq daimi fəaliyyət göstərən sərgilərdir ki, onlar vətən-pərvərlik tərbiyəsi və istifadəçilərin ekoloji maarifləndirilməsi çərçivəsində realizə olunur.
Qeyd edək ki, kitabxanalarda təşkil edilən hərbi vətənpərvərlik məzmunlu sərgilərdə müharibə mövzusunda yazılmış bədii, publisistik kitablarla yanaşı, müxtəlif qəzet və jurnal materialları da əks etdirilir ki, bu da həmin sərginin əhəmiyyətini xeyli artırır.
Azərbaycan Respublikasının qlobal informasiya mühitinə daxil olması cəmiyyətin informasiya təminatını həyata keçirən kitabxanaların fəaliyyətində əsaslı islahatlar aparılması üçün geniş imkanlar açmışdır. Elə buna görə də indi kitabxanada xidmətlər təkmilləşdirilir, fondlar müasir informasiya daşıyıcıları ilə zənginləşdirilir, elektron məlumat bankları yaradılır, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi üçün tədbirlər görülür.
Müasir cəmiyyətdə elm və texnikanın sürətlə inkişaf etməsi onun bütün fəaliyyət sahələrinə tətbiqini tələb edir. Bu baxımdan müasir kitabxanalar da informasiya texnologiyaları olmadan lazımi səviyyədə inkişaf edə bilməz. Kitabxanalara yeni

informasiya texnologiyalarının tətbiqi onların qarşısında çox geniş imkanlar açır, fondun mühafizə edilməsi və xidmət işində oxucuların tələbatlarının ödənilməsində yaranan problemləri asanlaşdırmağa, oxuculara yeni üsullarla xidmət etməyə imkan verir. Yeni texnologiyaların tətbiqi ilə əlaqədar kitabxanalar oxuculara yeni on-line xidmət növünü təklif edirlər ki, İnternet bu xidmət növünün həyata keçirilməsində əvəzsiz vasitədir. İnternet həm də kitabxanaların yeni informasiya resursları ilə zənginləşməsini təmin edir. İnternet və on-line xidmətləri kitabxanalara onların informasiya ehtiyatlarından və məlumat bazalarından ölkədən kənarda da istifadə olunmasına şərait yaradır.

Yaradılmış məlumat bazaları istifadəçinin maraqları üçün onun informasiyaya olan tələbatını ödəyə bilən dəyərli mənbə olmalıdır. Kitabxana xidmətində kompyuter texnologiyalarının istifadəsi bir neçə istiqamətdə ola bilər:

- sərgi fəaliyyəti;
- nəşriyyat fəaliyyəti (CD və digər elektron nəşrlər);
- on-line rejimində kitabxana xidməti.

Kompyuter texnologiyalarının kitabxanaların sərgi fəaliyyətində istifadə olunmasının yüksək effektivliyi bir sıra obyektiv amillərlə şərtlənir. Bu şərtlərə aiddir:

- sərgi materiallarının ənənəvi olmayan təqdimatı;
- əyanilik;
- materialın strukturlaşdırılması.

Kitabxana xidmətində kompyuter texnologiyalarının tətbiqi müasir dövrün əsas tələbidir. Hazırda kütləvi kitabxanaların sərgi fəaliyyətində kompyuter texnologiyalarından istifadə bir qayda olaraq başlıqların, sitat və illüstrasiyaların qrafiki tərtibində istifadə olunur. Bununla yanaşı multimedia texnologiyaları informasiyaların təqdim olunmasında müəyyən qədər sərhədləri genişləndirir və məhsulların yayılmasına imkan verir.

**Elektron sərgi** ənənəvi (kitab) və yeni (elektron) qaydaların sintezində informasiyanın təqdim olunma üsuludur. Elektron kitabxana sərgisini kitabxananın saytında yerləşdirmək olar. Bunun üçün onu xüsusi proqramda və HTML formatında yaratmaq vacibdir.

Kitabxanaçının fəaliyyəti daim yaradıcılıq tələb edir. Əgər kitabxanaçı yaradıcıdırsa, özünün peşə hazırlığının qayğısına qalırsa, kitabxanaçıya qoyulan tələblərə cavab verirsə, müasir informasiya texnologiyalarından bacarıqla, yerli-yerində istifadə edərək, tədbirləri öz fantaziyasına uyğun, yaradıcı şəkildə təşkil edəcək, öz işində layiqli uğurlar, müvəffəqiyyətlər qazanacaq.

Respublika Uşaq Kitabxanası olaraq kitabxanamızda Azərbaycan xalqının zəngin adət və ənənələrinin təbliği, milli bayram və mərasimlərin qorunub saxlanılması, tarixi rəmz və abidələrin bərpası, milli musiqi və rəqslərin təşviqi, şifahi xalq yaradıcılığının qorunması, xalq oyun və tamaşalarının bərpası, təsviri, dekorativ və miniatür sənətinin zəngin ənənələrinin inkişaf etdirilməsi, dünyanın nüfuzlu muzeylərində saxlanılan Azərbaycan incəsənəti nümunələrinin öyrənilməsi və onların Azərbaycana aid olmasının təsdiqlənməsi, UNESCO, ISESCO, TÜRKSOY və digər beynəlxalq təşkilatlarda təsviri sənətimizin təbliği və tanıdılması

istiqamətində zəruri işlər görülmüşdür. Biz uşaq kitabxanalarının əməkdaşları olaraq üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırıq.
Bu gün uşaq kitabxanalarında daim həyat qaynayır, uşaqların dünyagörüşlərinin formalaşması, mütaliəyə cəlb olunması ilə bağlı daha maraqlı işlər keçirilməsi üçün elmi tədqiqat işləri aparılır, sorgular keçiririlir. Bu gün hər bir uşaq kitabxanası öz iş prosesini dünya kitabxanları səviyyəsinə çatdırmağa səy göstərir. F. Köçərli adına Respublika Uşaq kitabxanası olaraq kitabxanamız bundan sonra da, informasiya təminatı istiqamətində faəliyyətinin səmərəsinin artırılması, inkişafı və təkmilləşdirilməsi məqsədilə günün tələbləri səviyyəsində mütərəqqi iş üsullarından istifadə edəcək.

## Ədəbiyyat siyahısı:


1. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə "Dövlət Proqramı"- nın təsdiq edilməsi barədə: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı. 6 oktyabr, 2008-ci il [Mətn] //Azərbaycan.- 2008.-7 oktyabr.- S. 1.
2. Aslan, K. Bədii ədəbiyyatın təbliğinin müasir vəziyyəti: nəzəriyyə və təcrübə [Mətn] //Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal.- 2004.- №1.- S.57-74.
3. Kitabxanalarda kütləvi tədbirlərin ənənəvi və yeni formaları: metodik vəsait /tərt. ed. N.Alışova; ixtis. red. və bur. məs. K.Tahirov; red. X.İsmayılova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2012.- 71 s.
4. Ədəbi-bədii gecələrin keçirilməsinə dair [Mətn]: metodik tövsiyələr /tərt.ed. Ə.Rəhimova.- Bakı, 1981.- 31 s.
5. Oxuculara xidmət [Mətn]: dərs vəsaiti /S.Rzayev.- Bakı, 2009.- 337 s. Tahirov, K. Kitabxana işinə dair yeni "Dövlət Proqramı" mədəni dəyərlərimizə qayğının təzahürüdür [Mətn] /K.Tahirov //Xalq qəzeti.- 2008.- 15 oktyabr.- S. 5



**Redaktor:** **Qəmbərova Şəhla - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtib edən:** **Məmmədli Ruhiyyə – F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi-metodika şöbəsinin müdiri**